Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

ISSN 2790-2188

# İQTİSADİ İSLAHATLAR

№ 1 (10)-2024

www.journal.ereforms.org

Bakı-2024

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

ISSN 2790-2188 (print)
2790-2196 (online)

# “İQTİSADİ İSLAHATLAR”
# ELMİ-ANALİTİK JURNAL

# SCIENTIFIC-ANALYTICAL JOURNAL
# "ECONOMIC REFORMS"

# НАУЧНО-АНАЛИТИЧЕСКИЙ ЖУРНАЛ
# «ЭКОНОМИЧЕСКИЕ РЕФОРМЫ»

Jurnal 2021-ci ilin noyabr ayından çıxır.

№1 (10) -2024

Təsisçi

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Baş redaktor: Ramil HÜSEYN
Məsul redaktor: Mətanət RƏSULOVA
Dizayner: Elvira ZEYNALOVA
Rəhman BƏDƏLOV

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İqtisadi İslahatlar" jurnalı 21 oktyabr 2021-ci il tarixində N4362 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

“İqtisadi islahatlar” elmi-analitik jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısına (iqtisad elmləri üzrə) daxil edilmişdir.

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.

Dərc olunmuş materiallardakı faktlara və rəqəmlərə görə müəllif məsuliyyət daşıyır.

ISSN 2790-2188 (print), 2790-2196 (online)

# "İqtisadi islahatlar" elmi-analitik jurnal

**REDAKSİYA HEYƏTİ**

İ.e.d., professor QASIMLI V.Ə.
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru,
Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının professoru,
Bakı, Azərbaycan

Akademik ƏLƏKBƏROV U.K.
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik
Akademiyasının rektoru,
Bakı, Azərbaycan

T.e.d., professor BABANLI M.B.
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
Bakı, Azərbaycan

İ.e.d., professor İBRAHİMOV E.R.
Milli Məclisin deputatı,
Bakı, Azərbaycan

İ.e.d., professor, əməkdar elm xadimi ATAŞOV B.X.
Azərbaycan Kooperasiya Universiteti,
Bakı, Azərbaycan

İ.e.d., professor XƏLİLOV H.A.
Aqrar Tədqiqatlar Mərkəzi,
Bakı, Azərbaycan

İ.e.d., professor MƏMMƏDOV M.A.
Azərbaycan Memarlıq və İnşaat Universiteti,
Bakı, Azərbaycan

İ.e.d., professor ƏLİYEV Ü.Q.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Bakı, Azərbaycan

İ.e.d., professor BALAYEV R.Ə.
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
Bakı, Azərbaycan

İ.ü.f.d. HÜSEYNOV R.F.
Almaniyanın Bonn Universitetinin doktoru,
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi,
Bakı, Azərbaycan

# Mündəricat

- Ön söz ... 5
- Z.Talıbova, T.Verdiyeva, F.Nuriyeva
  **Süni intellektin ictimaiyyətlə əlaqələr işinin təşkilində tətbiqi** ... 7
- N.Hacızadə
  **Azərbaycanda xarici ticarət dövriyyəsinin iqtisadi artıma təsiri: Kointeqrasiya testi və VECM Granger səbəbiyyət əlaqəsi** ... 16
- F.Camalov
  **Strateji mallarla ticarətə nəzarət sisteminin strukturu və onun təkmilləşdirilməsi yolları** ... 27
- M.Səfərov
  **Azərbaycan Respublikasında kiçik və orta biznesin inkişafında islam maliyyə alətlərindən istifadənin əhəmiyyəti** ... 47
- F.Mirzəyev
  **Konsessiya dövlət-özəl tərəfdaşlığının ən geniş yayılmış mexanizmi kimi** ... 66
- M.Bağırzadə
  **İqtisadi inkişaf mərhələlərində dövlətin dəyişən rolu: fordizm və postfordizm** ... 76
- R.Abbasov
  **Davamlılığa doğru irəliləyiş: Azərbaycanın gələcəyi üçün ESG çərçivəsinin hazırlanması** ... 97
- C.Seyfullalı
  **Resursla zəngin ölkələrdə fiskal siyasət çağırışları** ... 105
- S.Yıldırım
  **Səhiyyə müəsisəslərində rəqabət və bazara çıxış strategiyaları necə hazırlanır** ... 121
- İ.Fətahov
  **Tikinti sənayesi məhsulunun keyfiyyətinin yüksəldilməsi zamanı yaranan xərclər** ... 131

# “İQTİSADİ İSLAHATLAR”
## elmi-analitik jurnal

# ÖN SÖZ

№ 1(10)-2024

# Baş redaktordan

**Hörmətli oxucular!**

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təsisçisi olduğu "İqtisadi islahatlar" elmi-analitik jurnalının 2024-cü ildəki birinci, ümumilikdə isə onuncu sayının nəşr olunması xəbərini sizlərlə bölüşməkdən məmnunuq. İlk olaraq vacib bir xəbəri də nəzərinizə çatdıraq ki, 2024-cü ildən etibarən jurnalımızın fəaliyyətini "online first publication" prinsipinə uyğun olaraq qurduğumuz üçün onun ildə iki dəfə kağız variantda çapı qərarlaşdırılmışdır. Digər mühüm xəbərimiz isə jurnalımızın bu sayından etibarən çap olunan məqalələr üçün Rəqəmsal Obyekt İdentifikatorunun (DOI - Digital Object Identifier) alınması ilə bağlıdır.

Jurnalımızın onuncu sayında çap olunan məqalələrə gəlincə isə ənənəmizə sadiq qalaraq rəyçilər tərəfindən müsbət rəy verilən on məqalə ilə görüşünüzə gəlmişik. Doğrudur, jurnalımızın sonuncu sayına kifayət qədər maraqlı məqalələr daxil olub. Onların bir hissəsi rəy prosesində olduğu üçün jurnalın 11-ci sayında çap üçün dəyərləndiriləcək. Yeri gəlmişkən fürsətdən istfadə edərək jurnalımıza daxil olan məqalələri təmannasız olaraq oxuyub, obyektiv rəy verən bütün rəyçilərimizə təşəkkürümü bildirirəm.

Jurnalımızın 2024-cü ildəki birinci sayında nəşr olunan məqalələrlə bağlı onu qeyd edə bilərik ki, aşağıdakı mövzularda "İqtisadi islahatlar" elmi-analitik jurnalında çap edilən on elmi-analitik məqaləni ödənişsiz olaraq www.journal.ereforms.org səhifəsində oxuya, həmkarlarınızla paylaşa, elektron cihazlarınıza yükləyə və öz tədqiqatlarınızda istinad verməklə istifadə edə bilərsiniz: "Süni intellektin ictimaiyyətlə əlaqələr işinin təşkilində tətbiqi", "Azərbaycanda xarici ticarət dövriyyəsinin iqtisadi artıma təsiri: Kointeqrasiya testi və VECM Granger səbəbiyyət əlaqəsi", "Strateji mallarla ticarətə nəzarət sisteminin strukturu və onun təkmilləşdirilməsi yolları", "Azərbaycan Respublikasında kiçik və orta biznesin inkişafında islam maliyyə alətlərindən istifadənin əhəmiyyəti", "Konsessiya dövlət-özəl tərəfdaşlığının ən geniş yayılmış mexanizmi kimi", "İqtisadi inkişaf mərhələlərində dövlətin dəyişən rolu: fordizm və postfordizm", "Davamlılığa doğru irəliləyiş: Azərbaycanın gələcəyi üçün ESG çərçivəsinin hazırlanması", "Resursla zəngin ölkələrdə fiskal siyasət çağırışları", "Səhiyyə müəsisətlərində rəqabət və bazara çıxış strategiyaları necə hazırlanır", "Tikinti sənayesi məhsulunun keyfiyyətinin yüksəldilməsi zamanı yaranan xərclər".

**Hörmətli tədqiqatçılar!**

"İqtisadi islahatlar" elmi-analitik jurnalının 11-ci sayı üçün məqalə qəbuluna başlamışıq. Jurnalımızın səhifəsindən məqalələrə qoyulan tələblərlə tanış olub (https://journal.ereforms.org/az/page/requirements-for-the-article), daha sonra məqalələrinizi onlayn qaydada jurnalımıza təqdim edə bilərsiniz (https://journal.ereforms.org/az/submit-article). Məqaləniz "online first publication" prinsipinə uyğun olaraq müsbət rəy aldıqdan dərhal sonra onlayn qaydada çap olunacaqdır. Jurnalımızda məqalə çapı ödənişsizdir. Hər birinizi "İqtisadi islahatlar" elmi-analitik jurnalı ilə səmərəli əməkdaşlığa dəvət edirik.

Ramil HÜSEYN
"İqtisadi islahatlar" elmi-analitik jurnalının baş redaktoru

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# SÜNİ İNTELLEKTİN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR İŞİNİN TƏŞKİLİNDƏ TƏTBİQİ

№ 1(10)-2024
səh. 7-15

Zənurə TALIBOVA,
İİTKM-in İctimaiyyətlə əlaqələr
şöbəsinin müdiri, doktorant

Türkay VERDİYEVA,
İİTKM-in İctimaiyyətlə əlaqələr
şöbəsinin baş məsləhətçisi

Firəngiz NURİYEVA,
İİTKM-in İctimaiyyətlə
əlaqələr şöbəsinin məsləhətçisi
DOI:10.30546/2790-2196.1.10.2024.001.

zanura.talibova@ereforms.gov.az
turkay.verdiyeva@ereforms.gov.az
firangiz.nuriyeva@ereforms.gov.az

# Süni intellektin ictimaiyyətlə əlaqələr işinin təşkilində tətbiqi

Zənurə TALIBOVA,
İİTKM-in İctimaiyyətlə əlaqələr
şöbəsinin müdiri, doktorant

Türkay VERDİYEVA,
İİTKM-in İctimaiyyətlə əlaqələr
şöbəsinin baş məsləhətçisi

Firəngiz NURİYEVA,
İİTKM-in İctimaiyyətlə
əlaqələr şöbəsinin məsləhətçisi

**XÜLASƏ**

Süni intellektin ictimaiyyətlə əlaqələr işində tətbiqi texnoloji tərəqqinin yaratdığı zərurət nəticəsində, yeni çağırışlar əsasında formalaşır. Xüsusilə, son on ildə bu sahədə nəzərəçarpan dəyişilik müşahidə olunur. Böyük verilənlər, maşın öyrənməsi, şəxsiləşdirilmiş çat-botlar, məkan kəşfiyyatı kimi termin və anlayışlar korporativ ünsiyyətin tərkib hissəsinə çevrilərək ictimaiyyətlə əlaqələr işinə də sürətlə inteqrasiya edir. Məqalədə ictimaiyyətlə əlaqələrdə süni intellektin tətbiq olunduğu istiqamətlər araşdırılıb. Xüsusilə, məlumatların təhlili, proqnozlaşdırma, məzmun yaradılması, böhran idarəetməsi, multimedia məhsullarının hazırlanması, hədəf kütlə ilə kommunikasiyanın qurulmasında süni intellekt alətlərindən geniş istifadə olunur. Bununla yanaşı, məqalədə sosial media platformaları vasitəsilə ictimaiyyətlə əlaqələrin qurulmasında yeni təmayüllər tədqiq edilib, reklam və marketinq fəaliyyətində istifadəçi rəylərinin öyrənilməsində süni intellektin imkanları araşdırılıb. Beynəlxalq tədqiqat mərkəzlərinin bu sahədə hesabatları təqdim olunub, müxtəlif göstəricilər üzrə təsnifat aparılıb. Süni intellektin üstünlükləri ilə yanaşı, çatışmayan və ya təkmilləşdirməyə ehtiyac duyulan xüsusiyyətləri də tədqiq olunub. Ümumilikdə belə nəticəyə gəlmək olar ki, süni intellekt hər nə qədər insan şüurunu simulyasiya etsə də, onu tamamilə əvəz edəcəyi ilə bağlı hələ ki ciddi əsas yoxdur.

***Açar sözlər**: süni intellekt, ictimaiyyətlə əlaqələr, strateji idarəetmə, məzmun yaradılması, istifadəçi təcrübəsi*

***Jel code: H10; H83; D73***

## GİRİŞ

Son illərdə süni intellekt bir çox sahəyə, o cümlədən ictimaiyyətlə əlaqələr işinə əhəmiyyətli yeniliklər gətirib. Bu texnologiyanın imkanlarından istifadə istər dövlət, istərsə də özəl müəssisələrdə strateji idarəetmə, istifadəçi interaksiyası, böhran kommunikasiyası, proqnozlaşdırma və digər istiqamətləri əhatə edir. Məzmun yaradılması prosesində süni intellekt avtomatlaşdırılmış məzmun yaradılması və fərdiləşdirilmiş təkliflər vasitəsilə səmərəliliyi artırır. Müasir şirkətlər bu texnologiyanı istifadə edərək istənilən konsepti daha effektiv və sürətli şəkildə formalaşdırır. Strateji planlaşdırma sahəsində isə o, data analizi və proqnozlaşdırma texnologiyaları vasitəsilə şirkətlərə strateji idarəetmə dəstəyi təqdim edir. Məsələn, böyük məlumat toplusunun analizi və maşın öyrənmə modelləri vasitəsilə təşkilatlar gələcək trendləri proqnozlaşdıraraq daha dəqiq və effektiv strategiyalar hazırlaya bilirlər. Bu, müəssisələrin bazar şərtlərinə uyğunlaşmasını asanlaşdırır və rəqabət üstünlüyünü qorumasına kömək edir.

Bu məqalə süni intellektin ictimaiyyətlə əlaqələrdəki müxtəlif tətbiq üsullarını, onların

faydalarını və perspektivlərini araşdıraraq, bu sahədə baş verən dəyişiklikləri və inkişaf istiqamətlərini təqdim edir. Süni intellektin ictimaiyyətlə əlaqələrdə tətbiqinin geniş spektri onun texnoloji inkişafın bir hissəsi olaraq necə bir transformasiya vasitəsi olduğunu göstərir. Bu texnologiyanın gələcəkdə daha da inkişaf edərək ictimaiyyətlə əlaqələr sahəsində yeni imkanlar yaratması və mövcud prosesləri daha da təkmilləşdirməsi gözlənilir.

## SÜNİ İNTELLEKT NƏDİR?

Süni intellekt (Sİ) insanın müxtəlif sahələrdə gördüyü işləri əvəz etmək məqsədilə istifadə olunan texnoloji yeniliklərdən biridir. [1] Bu, insan şüurunun tələb olunduğu vəzifələri yerinə yetirmək üçün ağıllı maşınlar və kompüter proqramları yaradan elm və texnologiya sahəsidir. Süni intellekt insan funksiyalarını təqlid edən bir sistemdir və verilmiş tapşırıqlarda yüksək nəticəyə nail olmaq üçün "Böyük Verilənlər" kimi məlumat bazalarından istifadə edir. Bir vaxtlar təxəyyül məhsulu kimi qəbul olunan və fantastik görünən Sİ hazırda elm, təhsil, səhiyyə, bank və maliyyə, ticarət, logistika, aviasiya və digər bir çox sahədə tətbiq olunur. [2]

Süni intellektin tarixi filosof və yazıçıların yaratdığı bəzi iddialarla başlayır. Filosoflar insan olmağın vacibliyini başa düşmək üçün ağıllı maşınlar konsepsiyasını irəli sürüblər. Fransız filosofu Rene Dekart ağıllı maşınların mümkünlüyünü təsvir etmək üçün "mexanik insan" metaforasından istifadə edir. Jül Qabriel Vern (19-cu əsr), Ayzek Azimov (20-ci əsr) kimi yazıçılar da əsərlərində ağıllı qeyri-insan haqqında söz açıblar.  1942-ci ildə amerikalı yazıçı Ayzek Azimov mühəndislər Q.Pauel və M.Donavan tərəfindən hazırlanmış robotdan bəhs edən "Runaround" adlı qısa hekayə yazır. Bu hekayə süni intellekt, robototexnika, kompüter elmləri sahəsində çalışan bir çox alimləri ruhlandırır. Təxminən eyni vaxtda ingilis riyaziyyatçısı Alan Türinq ilk elektromexaniki kompüter hesab edilən "The Bombe" adlı kodları sındırmaq üçün maşın icad edir. O, Almaniya ordusu tərəfindən İkinci Dünya Müharibəsi zamanı istifadə edilən Eniqma kodunu aşkar etmək üçün Britaniya hökuməti üçün bu maşını hazırlayır. 1950-ci ildə alim "Türinq testi" adlanan ağıllı maşınların yaradılması və sınaqdan keçirilməsini təsvir edən "Hesablama Maşınları və Kəşfiyyat" məqaləsini nəşr edir. "Türinq testi" sistemin intellektini tapmaq üçün istifadə olunur: əgər insan maşınla qarşılıqlı əlaqədə olarkən başqa bir insanı fərqləndirə bilmirsə, maşın o zaman ağıllıdır. 1956-cı ildə Stenford Universitetinin kompüter mühəndisliyi üzrə alimləri: Marvin Minski və Con Makkarti təxminən səkkiz həftə davam edən "Dartmutda Süni İntellekt üzrə Yay Araşdırma Layihəsi"nə (DSRPAI) ev sahibliyi edirlər. Bu proqram süni intellekt baharının başlanğıcı hesab olunur.

Süni intellekti səciyyələndirən bir sıra əsas xüsusiyyətlər:

- İnsan intellektini simulyasiya edir;
- Məlumatların itirilməsinin qarşısını alaraq daimiliyi təmin edir;
- Sürətli qərar qəbul edir;
- Problemin həllində kömək edir;
- Qərar qəbul edərkən emosiyaları nəzərə almır, faktlara əsaslanır [10];
- Məlumatı asanlıqla yayır;
- Süni intellekt insanın çətinlik çəkdiyi və ya edə bilməyəcəyi mürəkkəb işi görə bilər [11];
- Bir çox tapşırığı insanla müqayisədə daha tez tamamlayır;
- Tədqiq edilməmiş sahələri aşkar edə bilir;
- Minimum xəta ilə işləyir;
- Sonsuz funksiyaları var;
- Birdən çox funksiyanı eyni vaxtda yerinə yetirir [12];
- Yüksək müvəffəqiyyət nisbəti təmin edir;
- Daha uzun müddət işləmək üçün proqramlaşdırıla bilər [13];
- Optimal həllə zəmanət vermir;
- Müəyyən qərarları məntiqi izah edə bilmir;
- Həlli olmayan problemləri müəyyən edə bilmir;
- Kiçik nasazlıqda belə səhv həll irəli sürə bilir;
- Yanlış istifadədə geri dönüşü olmayan xətalar yarada bilər [10];

- İşsizliyin artmasına səbəb ola bilər;
- Həllə yaradıcı yanaşmaq imkanı məhduddur.

Süni intellektin bir çox üstünlükləri vardır. Bu da həm fərd, həm də cəmiyyət üçün faydalıdır. Lakin texnologiyadan istifadənin artmasının mənfi cəhətləri də meydana çıxır. Gələcəkdə süni intellekt, şübhəsiz ki, indiki ilə müqayisədə daha çox xüsusiyyətlərə sahib olacaq.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

İctimaiyyətlə əlaqələr tarix boyu insanların qarşılıqlı əlaqəsi və məlumatların yayılması ilə formalaşıb. Bu, təşkilatların, fərdlərin və brendlərin ictimai imicini yaratmağa və qorumağa, eləcə də ictimai rəyə təsir göstərməyə və müəssisə ilə onun auditoriyası arasında münasibətləri idarə etməyə həsr olunan peşədir. İctimai münasibətlərin tarixi qədim olduğu qədər mürəkkəbdir, bəşər sivilizasiyasının inkişafı ilə paralel irəliləyib. Amma burada fundamental məqsədlər sabit qalır: məlumatlandırmaq, inandırmaq və əlverişli ictimai təsəvvürlər yaratmaq. İctimai yığıncaqlarda insanları inandırmaq üçün ritorika və natiqlikdən istifadə edən qədim sivilizasiyaların köhnə təcrübələrindən tutmuş 21-ci əsrdə tətbiq olunan mürəkkəb rəqəmsal strategiyalara qədər "PR"ın təkamülü cəmiyyətlərin ünsiyyət qurduğu dəyişən mühitləri və düşüncə tərzini əks etdirir. Müasir dövrdə effektiv ünsiyyətin təməl prinsipi kimi ictimaiyyətlə əlaqələrin əhəmiyyəti təkcə məlumatları ötürmək deyil, həm də onları formalaşdırmaq, ictimai diskurs yaratmaq və son nəticədə biznes, siyasət və digər əlaqələrdə əsas hadisələrin nəticələrini idarə etmək bacarığındadır. Mütəxəssislərin fikrincə, tarixi missiyasına sadiq qalaraq ictimaiyyətlə əlaqələr sektoru ssenarilərin hazırlanmasında, reputasiyanın idarə olunmasında və getdikcə daha da mürəkkəbləşən qlobal cəmiyyətdə hadisələrin gedişatına təsir etməkdə instrumental qüvvə olmağa davam edəcək. [14]

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR İŞİNDƏ SÜNİ İNTELLEKTİN TƏTBİQİ

Son illər süni intellekt ictimaiyyətlə əlaqələr sferasına sürətlə daxil olaraq həm köməkçi, həm də həlledici rol oynayır. Bu texnologiyanın əsas təsir istiqaməti məzmunun yaradılmasıdır. Süni intellekt ictimaiyyətlə əlaqələr mütəxəssislərinə ideya, strategiya, ümumiləşdirmə, yazmaq və redaktə etməkdə kömək edir. Avtomatlaşdırma daha səmərəli və yaradıcı nəticələr ortaya çıxarır, komandaları yeni ideyalarla, məzmunu sürətli və dəqiqliklə təkmilləşdirmək üçün alətlərlə təmin edir. Söhbət təkcə səmərəliliklə bağlı deyil; süni intellektin böyük həcmdə məlumatı təhlil etmək və şərh etmək imkanı auditoriyanın maraqları və davranışlarını təhlil etməyə kömək edir. Məzmun yaradılmasından başqa, ictimaiyyətlə əlaqələrdə süni intellekt daha da irəliləyir; güclü analitika və anlayışlarla insanın yaradıcılığını və intuisiyasını dəstəkləyir. [8]

İctimaiyyətlə əlaqələr üzrə mütəxəssislər süni intellektdən istifadə etməklə müasir ünsiyyətin mürəkkəbliyini daha dəqiq və effektiv şəkildə idarə edə bilirlər. Real vaxtda əhval-ruhiyyə təhlilindən tutmuş proqnozlaşdırıcı analitikaya qədər süni intellekt alətləri əvvəllər əlçatmaz olan hədəfləri yaxınlaşdırır. Bu, xüsusilə məqsədyönlü kampaniyalar və daha ağıllı qərarlar qəbul etməyə imkan verən Böyük Verilənlər və Data Analitika kimi kütləvi məlumat toplularından istifadə ilə mümkündür. Süni intellektin böyük həcmdə məlumatı yoxlamaq və yaranan tendensiyaları müəyyən etmək bacarığı ictimaiyyətlə əlaqələr mütəxəssislərinə mesajlarını daha effektiv çatdırmağa və auditoriya ilə münasibətləri dərinləşdirməyə şərait yaradır. İctimaiyyətlə əlaqələr üçün süni intellektdən istifadə ənənəvi yanaşmaları dəyişdirir, kampaniyaları daha individual, həssas və təsirli edir.

İndoneziyada 2020-ci ildə ictimaiyyətlə əlaqələr üzrə 330 subyektlə aparılan sorğu nəticəsində süni intellektin xəbər başlıqlarının toplanması, KİV-lə əlaqələrin qurulması, sosial media idarəetməsi, bülletenlərin yayılması və məzmun tərtibatında istifadəsinin zəruriliyi ön plana çəkilib. [3]

Böyük Britaniyanın nüfuzlu ictimaiyyətlə əlaqələr institutu olan "Chartered İnstitute of Public Relations" (CİPR) tərəfindən 2021-ci ildə nəşr olunmuş "The AI and Big Data Readiness Report"da (Süni İntellekt və Böyük Verilənlərə Hazırlıq Hesabatı) PR mütəxəssisləri və alimlərlə birgə aparılmış tədqiqat nəticəsində süni intellektdən istifadə 12 kateqoriyaya bölünüb. 2023-cü

ilə həmin institunun "Artificial Intelligence (AI) Tools and the Impact on Public Relations (PR) Practice" (Süni intellekt alətləri və onun ictimaiyyətlə əlaqələr təcrübəsinə təsiri) adlı tədqiqatında isə bu kateqoriyaların sayı 18-ə çatdırılıb.

İctimaiyyətlə əlaqələr işində süni intellektin tətbiq olunduğu sahələrin bir qismi:

- Monitorinq və təhlillərin aparılması;
- Mətbuat üçün bülletenlərin hazırlanması;
- Press-relizlərin yazılması;
- Strateji kommunikasiyanın təşkili;
- Müştəri xidmətləri (robot operatorlar və s.);
- Media qurumlarının siyahıya alınması;
- Multimedia məhsullarının hazırlanması (verilən mətn əsasında videoçarx və foto-slaydların tərtibatı, mətnlərin səsləndirilməsi);
- Hədəf kütlənin (və ya fokus qruplarının) tələbatının öyrənilməsi və buna uyğun fəaliyyət strategiyasının hazırlanması;
- Qurumu təmsil edən marka, kampaniya və ya şəxslərlə bağlı ictimaiyyətin rəyinin öyrənilməsi və analiz edilməsi, buna uyğun gələcək üçün proqnoz və fəaliyyət planının hazırlanması;
- Qurumun nüfuzuna xələl gətirən fəaliyyətin dərhal aşkarlanması və qarşısının alınması;
- Saxta məlumat və multimedia məhsullarının aşkarlanması;
- Elektron poçt, məktub, faks və digər müraciətlərin avtomatlaşdırılmış qaydada cavablandırılması;

Media monitorinqi və təhlili: Süni intellekt çox vaxt tələb edən işi səmərəli, real vaxt rejimində icra edərək media monitorinqində inqilab etdi. Qabaqcıl süni intellektin alətləri nüfuzun idarə edilməsi və strateji planlaşdırma üçün vacib olan ictimai əhval-ruhiyyə, yaranan tendensiyalar və fokus qruplarının fəaliyyəti haqqında əsas anlayışları təhlil edir, geniş məlumatları süzgəcdən keçirir.

Məlumata əsaslanan auditoriya fikirləri: Avtomatlaşdırılmış məlumat təhlili və proqnozlaşdırıcı analitika süni intellektin ictimaiyyətlə əlaqələrə verdiyi əsas töhfələrdəndir. Bu texnologiyalar auditoriya davranışlarını dərindən başa düşməyə imkan verir, effektiv ünsiyyət strategiyalarını formalaşdırır.

Böhranların idarə edilməsi və qabaqlayıcı tədbirlər: Böhran vəziyyətlərində süni intellektin real vaxt rejimində məlumat təhlili və avtomatlaşdırılmış cavab imkanları əvəzolunmazdır. "ChatGPT", "Gemini", "Copolit" kimi alətlər kommunikasiyaların idarə edilməsində, kanallar arasında ardıcıllığın qorunmasında və strategiya düzəlişləri üçün anlayışların təmin edilməsində dərhal dəstək təklif edir.

Auditoriyanın analizi: Süni intellektin qabaqcıl analitikası maraqlı tərəflərin demoqrafik göstəriciləri, psixoqrafikləri və davranışları haqqında daha dərindən məlumat almağa kömək edir. Bu, auditoriya hədəflənməsinə, mesajların fərdiləşdirilməsinə və kampaniyanın effektivliyinə gətirib çıxarır, ənənəvi ictimaiyyətlə əlaqələr ölçülərinin sərhədlərini aşır.

Sosial media analizi və trendlərin müəyyən edilməsi: "Facebook" və "Instagram" kimi böyük sosial media platformaları istifadəçi məlumatlarını analiz edərək trendləri müəyyənləşdirməkdə və marketinq strategiyalarını formalaşdırmaqda süni intellektdən istifadə edirlər. Məsələn, hər hansı məhsulun sosial media vasitəsilə reklamında müştərilərin reaksiyalarının ölçülməsi və tələbatının müəyyən edilməsi üçün maşın öyrənməsindən faydalanırlar.

Çatbotlar və virtual köməkçilər: Bir çox şirkət müştərilərinin suallarını avtomatik cavablandıran çatbotlardan istifadə edir. Məsələn, bankların, telekommunikasiya şirkətlərinin robot operatorları sorğuları cavablandırır, sadə əməliyyatları yerinə yetirir. Beləliklə, müştərilərə fasiləsiz xidmət göstərilir.

# SOSİAL MEDİADA SÜNİ İNTELLEKTİN TƏTBİQİNİN İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR İŞİNƏ TƏSİRİ

Dünyada, eləcə də ölkəmizdə internet istifadəçilərinin sayı hər gün artmaqdadır. Beynəlxalq miqyasda internet və sosial media istifadəsi üzrə təhlillər aparan "www.datareportal.com"un statistikasına əsasən, 2024-cü ilin əvvəlində Azərbaycanda 9,19 milyon internet istifadəçisi olub. 2024-cü ilin yanvarında isə ölkəmizdə 6,10 milyon nəfər sosial mediaya daxil olub. Bu isə ümumi əhalinin 58,4 faizini təşkil edir. Bu rəqəmlər onu deməyə əsas verir ki, müasir rəqəmsal əsrdə sosial media ictimaiyyətlə əlaqələr strategiyasının mərkəzindədir. Böyük auditoriyaya çatma sürəti, qarşılıqlı əlaqə və əks əlaqə imkanları sosial medianı PR fəaliyyətlərində əvəzolunmaz bir vasitəyə çevirib.

Süni intellektin təsiri ilə sosial medianın davamlı inkişafı, intensiv istifadəsi, yeniliklərin tətbiqi üçün geniş imkanlara sahib olması ictimaiyyətlə əlaqələr sahəsində də əhatə dairəsini genişləndirir. Marka imicinin formalaşdırılması və məzmun yaradıcılığı, böhran idarəetməsi, analiz və qiymətləndirmə kimi sahələrdə sosial media ictimaiyyətlə əlaqələr strategiyalarının əvəzolunmaz bir hissəsinə çevrilib. Markalar və təşkilatlar rəqəmsal dövrdə uğur qazanmaq üçün sosial media strategiyalarını düzgün formalaşdırmalı və idarə etməlidir. Bütün sadalanan keyfiyyətləri nəzər alaraq sosial medianı "ikitərəfli qarşılıqlı əlaqəyə və əks əlaqəyə imkan verən interaktiv kommunikasiya kanalı" kimi müəyyən etmək olar.

Hazırda ən aktiv istifadə olunan şəbəkələr sırasına "Facebook", "İnstagram", "X"(Tvitter), "Linkedin", "Whatsapp", "Telegram", "YouTube" kimi kanalları aid edə bilərik. Hər biri məlumatların yayılması üçün əlverişli şəraitə malik olsa da, özünəməxsus hədəf kütlələrinə xitab edirlər. Məsələn, "Linkedin" şəbəkəsi daha çox biznes mühiti və kariyera ilə bağlı paylaşımların edildiyi, "Facebook" məlumat xarakterli yazıların yerləşdirildiyi, "X" istifadəçilərin rahat müzakirələr aparıb azad fikir yürüdə bildiyi, "İnstagram" yazıdan çox şəkillərlə, "YouTube" isə videolarla öz kütləsinə xitab edən platformalardır. Məhz süni intellektin tətbiqi ilə bu şəbəkələrdən uğurla istifadə edib bütün izləyicilərə səmərəli şəkildə məlumat çatdırmaq üçün ilk növbədə həmin platformanın doğru hədəf kütləsini və maraq dairəsini müəyyən etmək mütləqdir. Platformaların sadalanan xüsusiyyətlərini mənimsədikdən sonra kütləyə uyğun fəaliyyət strategiyasının qurulması nəzərdə tutulan məlumatı daha çox insana çatdırır. Kontenti daha maraqlı təqdim etmək üçün isə slaydlar, posterlər, şəkilli mətnlərdən istifadə edilir. Araşdırmalar göstərir ki, sosial mediada ilk olaraq nəzərə çarpan mətndən əvvəl poster və şəkillərdir. Hazırlanan posterlərin cəlbedici olması məlumatların hədəf kütləyə tez zamanda çatmasına zəmin yaradır. Sosial şəbəkə qurucuları etiraf edirlər ki, süni intellektdən istifadə etməklə foto, video və digər xeyli sayda vizual həllərə nail olmaq mümkündür.

Sosial media platformalarının əsas üstünlüklərindən biri də odur ki, onlar təmsil olunan brend və ya qurumun ictimai imicini və izləyicilərin paylaşılan məzmunlara reaksiyasını ölçməyə imkan verir. Süni intellekt izləyicilərin daim aktiv olduğu bu platformalarda yazdıqları fikirlər, kontent bəyənmə faizlərini ölçərək qurum üçün monitorinq aparmağa şərait yaradır. Onlar dəyişməli və inkişaf etdirməli olduqları istiqamətləri aydın görə bilirlər. Bu kanallar, eyni zamanda, istifadəçi ilə birbaşa kommunikasiya yaratmağa icazə verir. İzləyicilər hər hansı bir sual, təklif və ya şikayət yarandığı təqdirdə süni intellektin imkanları ilə əlaqə qura, azad formada fikirlərini çatdıra bilirlər.

Bütün bunlardan əlavə, sosial media platformaları PR mütəxəssislərinə yayılan informasiyanın təsirini və effektivliyini ölçməyə imkan verən güclü analitik alətlər təqdim edir. Onlar PR və kommunikasiya strategiyalarını optimallaşdırmaq və kütləyə daha doğru xitab etmək üçün effektiv məzmun təqdim edə bilirlər. Süni intellektin analitik təhlilləri nəticəsində fokus qruplarının yaş statistikası, region və ölkə üzrə bölgüsü və buna uyğun maraq dairəsi müəyyən edilir.

Mütəxəssislər hesab edirlər ki, süni intellektin sosial mediaya inteqrasiyası birbaşa ünsiyyətə imkan vermək, kommunikasiyanı gücləndirmək, böhranın idarə edilməsini asanlaşdırmaq və güclü analitik alətlər təqdim etməklə PR işində inqilabi nəticələrə səbəb ola bilər. Belə ki, sosial media platformalarında məzmun yaradılması, rəylərin təhlili və marketinq

strategiyalarının optimallaşdırılması üçün daha kompleks alqoritmlər və maşın öyrənməsi texnologiyaları daha intensiv tətbiq olunacaq. Həmçinin gələcəkdə çatbotlar daha da intuitiv və fəal istifadəçi interfeysləri ilə təchiz ediləcək və məzmun üçün daha dəqiqliq və yararlılıq təmin ediləcək. Süni intellekt ictimai məlumatların daha dərin analizini və təhlilini təmin edəcək, bu da strateji qərarlarının qəbulunda həlledici rol oynayacaq.

## NƏTİCƏ

Digər sahələrdə olduğu kimi, ictimaiyyətlə əlaqələr işinin təşkilində də süni intellektin tətbiqi effektivliyi artırır, vaxta qənaət etməyə imkan verir, bir çox təkrarlanan əməliyyatları avtomatlaşdırmaqla komandaların yaradıcı işə fokuslanmasına şərait yaradır. Bu texnologiya informasiya cəmiyyətində məlumatların təhlili və proqnozlaşdırma işini yeni səviyyəyə yüksəldərək, məzmun idarəetməsi və strateji planlaşdırma sahələrində inqilabi dəyişikliklər yaradır. Süni intellektin təhlil gücü sayəsində şirkətlər və təşkilatlar istifadəçi davranışlarını daha yaxşı anlamaq və müştəri ehtiyaclarını əvvəlcədən müəyyən etmək imkanına malikdirlər. Bu, onların müştərilərlə daha fərdiləşdirilmiş və effektiv əlaqələr qurmasına imkan yaradır.

Gələcəkdə süni intellektin sürətlə inkişaf edəcəyi və ictimaiyyətlə əlaqələr sahəsində daha geniş istifadə olunacağı gözlənilir. Bu, yeni tətbiq sahələrinin və innovativ həllərin ortaya çıxmasına səbəb olacaq. İctimaiyyətlə əlaqələr üzrə mütəxəssislər süni intellektin təqdim etdiyi imkanlardan yararlanaraq, daha təsirli və məqsədəuyğun strategiyalar hazırlayacaq və həyata keçirəcəklər. Nəticədə süni intellektin tətbiqi şirkətlərin və təşkilatların ictimaiyyətlə daha effektiv əlaqələr qurmasına və bu əlaqələri davamlı şəkildə idarə etməsinə kömək edəcək.

Beləliklə, süni intellektin ictimaiyyətlə əlaqələr sahəsində istifadəsi yalnız texnoloji inkişafın nəticəsi deyil, həm də strateji düşüncə və yaradıcılıqla birləşən kompleks bir prosesdir. Bu texnologiya müasir dünyada ictimaiyyətlə əlaqələr sahəsində yeni standartlar müəyyən edir və gələcək üçün daha böyük yeniliklərin əsasını qoyur.

İctimaiyyətlə əlaqələr sahəsində süni intellektin unikal gücü onun saysız-hesabsız sosial media mətnləri və jurnalist məqalələrini nəzərdən keçirməsi müştəri rəylərinin təhlilini aparması və real vaxt rejimində marketinq kampaniyalarının effektivliyi haqqında məlumat verməsidir. O, ictimaiyyətlə əlaqələr üzrə mütəxəssislərin saysız-hesabsız oxuma və araşdırma saatlarına qənaət edir. Süni intellekt gündəlik, həftəlik və aylıq olmaqla bütün təkrarlanan işləri öz üzərinə götürür. Şübhə yoxdur ki, süni intellektin ictimaiyyətlə əlaqələr sahəsində tətbiqi ünsiyyətə yanaşma tərzimizi dəyişəcək. Bu, kommunikasiya mütəxəssisləri üçün yeni bacarıqları inkişaf etdirmək və ya onların köhnə vərdişlərini cilalamaq üçün çağırışları ortaya çıxarır. Süni intellektin inqilabi yeniliklərinə baxmayaraq, ictimaiyyətlə əlaqələr işi insan emosiyalarına əsaslandığı üçün bu sahədə tam olaraq avtomatlaşdırmaya keçmək hələ ki mümkünsüz görünür.

## ƏDƏBİYYAT

1. Bhbosale, S., Pujari, V., & Multani, Z. (2020). Advantages and Disadvantages Of Artificial Intellegence. Aayushi International Interdisciplinary Research Journal, 227-230.
2. Buchanan, B. G. (2005). A (very) brief history of artificial intelligence. Ai Magazine, 26(4), 53-53.
3. Chen, L., Chen, P., & Lin, Z. (2020). Artificial intelligence in education: A review. Ieee Access, 8, 75264-75278.
4. Chowdhury, M., & Sadek, A. W. (2012). Advantages and limitations of artificial intelligence. Artificial intelligence applications to critical transportation issues, 6(3), 360- 375.
5. Crandall, D. J. (2019). Artificial intelligence and manufacturing. Smart Factories: Issues of Information Governance, 10-16
6. Dwivedi, Y. K., Hughes, L., Ismagilova, E., Aarts, G., Coombs, C., Crick, T., ... & Williams, M. D. (2019). Artificial Intelligence (AI): Multidisciplinary perspectives on emerging challenges, opportunities, and agenda for research, practice and policy. International Journal of Information Management, 101994

7. Ghimire, A., Thapa, S., Jha, A. K., Adhikari, S., & Kumar, A. (2020, October). Accelerating business growth with big data and artificial intelligence. In 2020 Fourth International Conference on I-SMAC (IoT in Social, Mobile, Analytics and Cloud) (I-SMAC) (pp. 441- 448). IEEE.
8. Gao, Yuhang, et al. "Artificial Intelligence and Its Applications in Public Relations: A Systematic Review." Journal of Public Relations Research 33.1-2 (2021): 1-21.
9. Sahu, C. K., Young, C., & Rai, R. (2021). Artificial intelligence (AI) in augmented reality (AR)-assisted manufacturing applications: a review. International Journal of Production Research, 59(16), 4903-4959.
10. Srivastava, S. K. (2018). Artificial Intelligence: way forward for India. JISTEM-Journal of Information Systems and Technology Management, 15
11. Strong, A. I. (2016). Applications of artificial intelligence & associated technologies. Science [ETEBMS-2016], 5(6).
12. Wirkuttis, N., & Klein, H. (2017). Artificial intelligence in cybersecurity. Cyber, Intelligence, and Security, 1(1), 103-119
13. Yu, K. H., Beam, A. L., & Kohane, I. S. (2018). Artificial intelligence in healthcare. Nature biomedical engineering, 2(10), 719-731.
14. https://www.joriwhitepr.co.uk/articles/the-history-of-public-relations
15. https://prowly.com/magazine/ai-in-public-relations/
16. https://datareportal.com

## APPLICATION OF ARTIFICIAL INTELLIGENCE IN THE ORGANIZATION OF PUBLIC RELATIONS WORK

Zanura TALIBOVA,
Turkay VERDIYEVA,
Firangiz NURIYEVA

### SUMMARY

The application of artificial intelligence in public relations work arises from the new challenges created by technological progress. Especially in the last ten years, a noticeable change has been observed in this sphere. Terms and concepts such as big data, machine learning, personalized chatbots, and spatial intelligence have become integral to corporate communication and are rapidly integrating into public relations. The article examines the directions in which artificial intelligence is applied in public relations. In particular, artificial intelligence tools are widely used in data analysis, forecasting, content creation, crisis management, multimedia product development, and communication with the target audience. In addition, the article explores new trends in establishing relations with the public through social media platforms and examines the possibilities of artificial intelligence in studying user opinions in advertising and marketing activities. Reports from international research centers in this field were presented, and classifications were made according to various indicators. Along with the advantages of artificial intelligence, the features that are lacking or need improvement were also explored. In general, it can be concluded that although artificial intelligence can simulate human consciousness, there is still no serious reason to believe it will completely replace it.

***Keywords***: *artificial intelligence, public Relations, strategic management, content Creation, user experience*

**ПРИМЕНЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ОРГАНИЗАЦИИ РАБОТЫ ПО СВЯЗЯМ С ОБЩЕСТВЕННОСТЬЮ**

Занура ТАЛЫБОВА,
Туркай ВЕРДИЕВА,
Фирангиз НУРИЕВА

**РЕЗЮМЕ**

Применение искусственного интеллекта в работе по связям с общественностью активно развивается на основе новых задач, порожденных техническим прогрессом. В последние десять лет в этой области наблюдаются значительные изменения. Термины и концепции, такие как большие данные, машинное обучение, персонализированные чат-боты и пространственный интеллект, стали неотъемлемой частью корпоративных коммуникаций и быстро интегрируются в сферу связей с общественностью. В научной статье рассматриваются различные направления применения искусственного интеллекта в области связей с общественностью, включая анализ данных, прогнозирование, создание контента, антикризисное управление, разработку мультимедийных продуктов и коммуникацию с целевой аудиторией. Также исследуются новые тенденции в использовании платформ социальных сетей для установления связей с общественностью и анализе мнений пользователей в рекламной и маркетинговой деятельности. Статья также охватывает отчеты международных исследовательских центров, которые классифицируют различные аспекты данной области по различным критериям и показателям. Вместе с выявлением преимуществ искусственного интеллекта рассматриваются и функции, требующие дальнейшего улучшения или отсутствующие в текущих системах. В целом можно заключить, что несмотря на постепенное моделирование искусственным интеллектом человеческого сознания, отсутствуют научные основания для утверждения, что он полностью сможет его заменить.

***Ключевые слова:*** *искусственный интеллект, связи с общественностью, стратегическое управление, создание контента, пользовательский опыт*

Məqalə redaksiyaya daxil olub: 17.05.2024
Təkrar işlənməyə göndərilib: 01.06.2024
Çapa qəbul olunub: 28.06.2024

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# AZƏRBAYCANDA XARİCİ TİCARƏT DÖVRİYYƏSİNİN İQTİSADİ ARTIMA TƏSİRİ: KOİNTEQRASİYA TESTİ VƏ VECM GRANGER SƏBƏBİYYƏT ƏLAQƏSİ

№ 1(10)-2024
səh. 16-26

Nicat HACIZADƏ,
Azərbaycan Dövlət İqtisad
Universitetinin doktorantı

DOI:10.30546/2790-2196.1.10.2024.003.

nicat.hacizadeh@ereforms.gov.az

# Azərbaycanda xarici ticarət dövriyyəsinin iqtisadi artıma təsiri: Kointeqrasiya testi və VECM Granger səbəbiyyət əlaqəsi

Nicat HACIZADƏ,
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı

**XÜLASƏ**

Bu tədqiqatın əsas məqsədi Azərbaycanda ixracata əsaslanan böyümə modelinin tədqiq edilməsidir. Bu məqsədlə 2001-2023-cü illəri əhatə edən rüblük verilənlərə əsasən ixracın böyümə üzərindəki təsiri "vector error correction" model və səbəbiyyət testi ilə test edilmişdir.

Hidrokarbogen ehtiyatlarına malik Azərbaycanın ixrac etdiyi enerji resursunun əhəmiyyətli hissəsi qeyri-MDB ölkələrinə, qeyri-resurs məhsullarının mühüm hissəsi isə MDB bazarlarına yönəlir. Bu tədqiqatda sözügedən bazarlar ilə iqtisadi böyümə arasında VECM əsasında "Granger" səbəbiyyət testini etməklə "İxracata əsaslanan böyümə modeli" hipotezinin mövcud vəziyyəti tədqiq edilir.

Tədqiqatda qeyd edilən analizlərin edilməsi üçün ÜDM, MDB ölkələrinə ixrac və həmin ölkələrdən idxal, həmçinin qeyri-MDB ölkələrinə ixrac və həmin ölkələrdən idxal ilə yanaşı Azərbaycanın sənaye istehsal həcmini göstərən dəyişənlər istifadə edilmişdir. Araşdırmadan hasil olan tapıntılara görə əldə edilən nəticələr bu şəkildədir: I) Dəyişənlər arasında "Johansen" kointeqrasiya testi edilmiş və uzunmüddətli əlaqə aşkar edilmişdir. II) Dəyişənlər arasında VECM əsasında edilən "Granger" səbəbiyyət testinə görə qeyri-MDB ölkələrinə ixrac ilə ÜDM arasında ikitərəfli səbəbiyyət aşkar edilmişdir. MDB ölkələrinə ixracdan ÜDM-yə doğru səbəbiyyət aşkar edilməməsinə baxmayaraq, ÜDM-dən MDB ölkələrinə ixraca doğru səbəbiyyət əlaqəsinin olduğu müəyyən edilmişdir. Hər iki testin nəticəsinə görə qeyri-MDB bazarlarına ixrac timsalında "Export-led growth" hipotezi qəbul edilmiş, MDB ölkələri timsalında isə edilməmişdir.

***Açar sözlər:*** *İxraca əsaslanan artım, Koinetqrasiya, ÜDM, MDB, qeyri-MDB bazarları*
***JEL kodu: F10; F13; F17; F40***

## GİRİŞ

İqtisadi artım ilə ixrac arasında səbəbiyyət əlaqəsi uzun zamandır ədəbiyyatlarda müzakirə mövzusudur. İxracın artımı buraxılış və məşğulluğun genişlənməsini, xarici valyuta gəlirlərinin artımını və idxalı maliyyələşdirməklə iqtisadi artımın drayverinə çevrilir (Francisco F. Ribeiro Ramos, 2000). İqtisadi artım ilə ticarət arasında müsbət korrelasiya "export-led growth" hipotezis kimi tərif edilir. Bu hipotezdə əksər tədqiqatlar iqtisadi artım tempi ilə ixracın artımı arasında sadə əlaqəni əks etdirir. (Bernhard, 1986) "Export-led growth" hipotezi əlaqədar ədəbiyyatlarda böyümənin qaynağı olmaqla xarici ticarətin rolunu vurğulayan nəzəri yanaşmalardan biridir. Hipotez idxal əvəzlənməsindən ticarət açıqlığına, o cümlədən ixrac təşviqinə doğru siyasəti nəzərdə tutur (Onose, Aras 2021) Hipotezə əsasən, iqtisadi artım yalnız əmək qüvvəsi və kapital akkumulyasiyasından asılı deyil, həmçinin multiplikativ effekt ilə ixracın artımından asılıdır. "Export-led growth" paradiqması strategiya kimi son otuz il ərzində geniş yayılaraq Almaniya və Yaponiya (1950 və 1960-cı illərdə) tərəfindən irəli sürülüb. Daha sonra "Şərqi Asiya Pələngləri", cənub-şərqi Asiya ölkələri tərəfindən 1980 və 1990-cı illərdə tətbiq edilib. (Thomas Palley 2011). "Export-led growth" termini ilk dəfə Kindlberger (1962) tərəfindən vurğulanıb (UNCTAD,2001).

Bir sıra iqtisadçılar iqtisadi artımın ixracdan qaynaqlandığı üçün "exportled growth" (ELG) hipotez arqumentini irəli sürürlər. Artıma əsaslanan ixrac artımı isə "growth-led exports" kimi ifadə edilir (Titus O. Awokuse, 2005). İxraca dayanan böyümə hipotezi müxtəlif iqtisadi və maliyyə siyasətləri vasitəsilə ixracat sektorunda investisiya və istehsal artımının təmin edilməsi məqsədini özündə ehtiva edir. Hipotezə əsasən, ixracın artması məhsuldarlığın artmasına səbəb olmaqla iqtisadi artıma müsbət təsir göstərir. Müvafiq olaraq ixracın artması ölkə daxilində

istehsal olunan mallara tələbatı və bununla da real istehsalı artırır (Çeştepe, Yıldız, Avcı 2019).

Post-sovet ölkəsi kimi Azərbaycan Cənubi Qafqaz regionunun ən böyük ixracatçısıdır. Habelə Azərbaycan Cənubi Qafqazın ən böyük resurs ixracatçısıdır. Buna baxmayaraq, eyni adlı regionda Azərbaycan ÜTT, regional ticarət sazişlərinə qoşulmayan, o cümlədən daha az azad və preferensial ticarət sazişlərinə malik yeganə ölkədir. Enerji resursları ilə zəngin olan Azərbaycanın əsas ixrac məhsulları xam neft, neft məhsulları və təbii qazdır. Azərbaycan enerji və qeyri-enerji resurslarının mühüm hissəsini müvafiq olaraq qeyri-MDB və MDB ölkələrinə ixrac etməklə cari hesablar balansında profisitə nail olur. Habelə Azərbaycan MDB və qeyri-MDB ölkələrindən enerji (xüsusilə, təbii qaz və neft məhsulları) məhsullarını idxal edir. Qeyri-enerji məhsullarının qeyri-MDB ölkələrindən idxalı digərini üstələyir. Enerji ölkəsi kimi Azərbaycanın ixracının əhəmiyyətli hissəsini xam neft və təbii qaz təşkil etdiyi üçün ixracın diversifikasiya əmsalı aşağı qiymətləndirilir (Bayramov, Abbas, 2017). Qeyri-neft/qaz məhsullarının əhəmiyyətli hissəsi, xüsusilə aqrar məhsullar Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrə ixrac edilir.

"İxraca dayanan iqtisadi artım modeli" Azərbaycan hökuməti tərəfindən təsdiq edilən 2021-2026-cı illər üzrə strategiyada əks edilib. Buna baxmayaraq, Azərbaycanın ixracının enerji asılılığının azalması, ticarətin liberallaşdırılması, regional ticarət sazişlərinə üzvlüklə əlaqədar konkret siyasət qərarları qeyd edilməyib.

Bu tədqiqatda məqsəd Azərbaycanın həm ixraca, həm də böyüməyə əsaslanan artıma coğrafiya üzərindən baxmaqdır. İxracda az paya malik qeyri-enerji məhsullarının əsas hissəsi MDB ölkələrinə, az hissəsi isə qeyri-MDB ölkələrinə ixrac edilir. Habelə, enerji məhsullarının yüksək əksəriyyəti qeyri-MDB ölkələrinə, az hissəsi isə MDB ölkələrinə ixrac edilir. Eyni zamanda, həmin ölkələrdən Azərbaycana idxal edilən məhsullar nəzərə alınmaqla, MDB və qeyri-MDB ölkələrinə xalis ixracın Azərbaycanın iqtisadi böyüməsinə təsirini müəyyən etməkdir.

Məqalədə Azərbaycanın iqtisadi artımı ilə ixrac arasında kointeqrasiya və səbəbiyyət əlaqəsinə nəzər yetirilib. Digər tədqiqatlardan fərqli olaraq, səbəbiyyət əlaqəsi coğrafi məkanlara edilən ixrac ilə iqtisadi artım arasındakı əlaqələrin üzərindən qiymətləndirilmişdir. Bu çalışmada 2001-2023-cü illər üçün rüblük dataları istifadə edərək, Azərbaycanın ixraca əsaslanan artım və böyüməyə əsaslanan ixrac hipotezinin keçərliliyi test edilmişdir. Xarici ticarət məkanları MDB və qeyri-MDB ölkələrinə bölünmüşdür.

## ƏDƏBİYYAT XÜLASƏSİ

Kontstantakopolo (2016) tərəfindən Cənubi Avropa (Yunanıstan, İtaliy, Portuqaliya, İspaniya) ölkələri arasında xarici ticarətin həmin ölkələrin iqtisadi artımına təsirləri araşdırılmışdır. Tədqiqatda Pesaran, Şin and Smit (2001) tərəfindən irəli sürülən ARDL yanaşması tətbiq edilib. Qeyd edilən ölkələrin iqtisadi artım və xarici ticarət göstəriciləri 1960-2014-cü illəri dövrü əhatə edir. Habelə müəllif dəyişənlər arasında VAR modelindən istifadə edərək "Toda-Yamamoto" (1995) testini tətbiq etmişdir. Dəyişənlərə ÜDM, mal və xidmət ixracı, mal və xidmət idxalı daxil olmaqla, natural loqarifması tapılmışdır. Araşdırmadan əldə edilən nəticəyə əsasən, ÜDM asılı dəyişən olduğu halda, Yunanıstan, Portuqaliya və İspaniyanın ÜDM, ixrac və idxal dəyişənləri arasında uzunmüddətli əlaqə müəyyən edilmişdir. Həmçinin ixracın asılı dəyişən olması halında Yunanıstan, İspaniya və İtaliya arasında kointeqrasiya əlaqəsi mövcuddur. "Toda-Yamamoto" testinin nəticəsinə görə, Yunanıstan və İspaniyada ixrac ilə ÜDM arasında ikitərəfli, Portuqaliya nümunəsində isə ixracdan ÜDM-ə doğru birtərəfli səbəbiyyət əldə edilmişdir. İtaliya nümunəsində isə hər hansı asılılıq müşahidə edilməmişdir. Nəticədə empirik analizə görə, İtaliya istisna olmaqla, digər üç Cənubi Avropa ölkəsində ixraca əsaslanan artım hipotezi doğrulanmışdır.

Kuqler (1991) tərəfindən rüblük əsasda 1970-1980-ci illəri əhatə edən ABŞ, Yaponiya, İsveçrə, Qərbi Almaniya, Birləşmiş Krallıq və Fransanın iqtisadi artım və ixrac arasında səbəbiyyət testi yoxlanılmışdır. Dəyişənlərə ÜDM, istehlak, investisiya və ixrac daxildir. Müəllif dəyişənlər arasında korrelasiya əlaqəsinin qısa müddətdə təsiri müəyyənləşdirdiyini qeyd

edərək bu haqda hər hansı əlavə fikir bildirməmişdir. ÜDM ilə ixrac arasında uzunmüddətli əlaqənin test edilməsi məqsədilə "Engle" və "Granger" [1987], "Johansen" [1988] və "Stock and Watson" (1988) tərəfindən hazırlanan kointeqrasiya nəzəriyyəsi tətbiq edilmişdir. Bu sənəddə uzunmüddətli və ya kointeqrasiya əlaqəsində istifadə edilən "Johansen" testinə əsasən, makroiqtisadi dəyişənlər arasında əlaqə müəyyən edilmişdir. Belə ki, dörd ölkə nümunəsində ixrac ilə digər üç makroiqtisadi dəyişənlər arasında əlaqə müəyyən edilməmişdir. Yalnız Qərbi Almaniya ilə Fransa arasında ixrac ilə digər üç makroiqtisadi dəyişən arasında uzunmüddətli əlaqə müəyyən edilmişdir. Nəticə etibarilə, ixraca əsaslanan artım hipotezi üçün zəif sübutlar əldə edilmişdir.

Vong Hok Tsen (2010) zaman sıralarından istifadə edərək illik əsasda 1978-2002-ci illər əhatə edən, Çində iqtisadi artım, ixrac və daxili tələb göstəriciləri arasında "Granger" səbəbiyyət testini yoxlamışdır. Burada daxili tələb dedikdə ev təsərrüfatlarının və hökumətin istehlak xərcləri nəzərdə tutulur. Tədqiqatda ixrac ilə iqtisadi artımın üç arqumentə əsaslanaraq səbəbiyyət testi edilməsi planlaşdırılmışdır. Buraya ixraca əsaslanan iqtisadi artım, iqtisadi artıma əsaslanan ixrac və əks əlaqələr qeyd edilmişdir. Müəllif dəyişənlərin stasionarlığını "Elliot", "Rothenberg" və "Stock" (1996) (ERS) və "Philips" və "Perron" (1988) (PP) vahid kök testləri ilə yoxlanılmışdır. "The Johansen" (1988) kointeqrasiya testinə əsasən, dəyişənlər arasında uzunmüddətli əlaqə mövcuddur. "Granger" səbəbiyyət testinin nəticələrinə əsasən, ixrac ilə iqtisadi artım, istehlak ilə iqtisadi artım, ixrac ilə istehlak arasında müsbət ikitərəfli Granger səbəbiyyət nəticəsi əlaqələri əldə edilmişdir. Nəticə etibarilə, Vong Hok Tsen tərəfindən irəli sürülən «export-led growth», «growth-led export», «domestic demand growth-led» və «growth-led domestic demand» yoxluq ($H_0$) hipotezi 1% əhəmiyyətliliklə rədd edilmişdir.

Doğanay və Değer (2020) rüblük əsasda 1998-2020-ci illəri ərzində "Toda-Yamamoto" səbəbiyyət analizi ilə Türkiyənin regional bazarlara ixracı ilə iqtisadi artım arasında münasibəti öyrənmişdir. Dəyişənlərə Türkiyənin real ÜDM-si ilə birgə Afrika, Avropa, Amerika, Asiya və Orta Şərq ölkələrinə ixracında ümumi ixracda payı daxildir. Qeyd edilən göstəricilərin vahid kök testi ADF-yə əsasən müəyyənləşmişdir. Regional bazarlara aid statistikalar 1% əhəmiyyətlilik dərəcəsində stasionar olduğu halda, ÜDM 10% əhəmiyyətlilik dərəcəsində stasionar olması qeyd edilib. VAR modeli üzərindən "Toda-Yamamoto" testini həyata keçirərkən stasionarlıq dərəcəsi (dmax) 1, gecikmə uzunluğu isə (k) 5 və d(max) + k = 6, model OLS vasitəsilə test edilmişdir. Test nəticələrinə əsasən, Avropa ölkələrinə ixrac ilə iqtisadi artım arasında ikitərəfli səbəbiyyət, Afrika ölkələrinə ixracdan iqtisadi artıma tərəf birtərəfli səbəbiyyət, Asiya və Orta Şərq ölkələrində böyümədən ixraca doğu təktərəfli səbəbiyyət mövcud olması müqabilində, Amerika qitəsinə daxil olan ölkələrə ixrac ilə iqtisadi artım arasında ikitərəfli səbəbiyyət əlaqəsi tapılmamışdır. Nəticədə müəllif Türkiyənin ixrac coğrafiyasının daha çox şaxələnməyə ehtiyacı olmasını vurğulamışdır.

Titus O. Avokuse (2006) Koreyanın rüblük əsasda 1963-2001-ci illərini əhatə edən ixraca əsaslanan böyümə hipotezini test etmişdir. Modeldə real ÜDM, real ixrac, ticarət hədləri, əsas fondlar, sənaye istehsal indeksindən istifadə edilib. Çalışmada vector error correction modeldən istifadə edərək "VECM Granger Casuality" və "Toda Yamamoto" asılılıq testindən istifadə etmişdir. Bütün dəyişənlər səviyyədə qeyri-stasionar, birinci fərqdən statisonar olmuşdur. Nəticədə hər iki səbəbiyyət əlaqəsində ikitərəfli müsbət səbəbiyyət əlaqəsi aşkar edilmişdir.

Belkania və Karimov (2018) tərəfindən aparılan tədqiqatın məqsəd 1990-2016-cı illər ərzində Gürcüstandan edilən ixraca əsaslanan iqtisadi artım hipotezinin test edilməsidir. Müəlliflər ixraca əsaslanan artım hipotezini "Sollow-Swan" artım modelindən əldə edilən "Cobb-Douglas" istehsal funksiyası növündən istifadə etmişdir. Dəyişənlər ÜDM, əmək qüvvəsi, kapitaldan əlavə ixracı ilə genişləndirilmişdir. Dəyişənlərin stasionarlığı ADF testi əsasında yoxlanılmışdır. Nəticə olaraq, dəyişənlər birinci dərəcədən stasionar olmuşdur. Verilən göstəricilər arasında "Engle Granger" kointeqrasiya testinin nəticəsinə əsasən ÜDM ilə ixrac arasında uzunmüddətli əlaqə müəyyən edilmişdir. Granger" səbəbiyyət testi həyata keçirilməsi ilə ÜDM-yə və əksinə iki istiqamətli səbəb əlaqəsinin mövcudluğu aşkar edilmişdir.

Erdil Sahin (2019) tərəfindən aparılan çalışmada 1989-2017-ci illərdə Türkiyənin iqtisadi

artımı ilə texnologiya ixracı arasında "Granger" səbəbiyyət testi edilmişdir. Aparılan tədqiqatda yüksək texnologiya ixracı və ÜDM dəyişənləri əks edilmişdir. Dəyişənlər arasında "Augmented Dickey-Fuller" (ADF) və "Philips and Perron" (PP) vahid kök testi birinci fərqdə stasionarlıq şərtini ödəmişdir. Granger səbəbiyyət testinin nəticəsinə əsasən, texnologiya ixracından ÜDM-yə doğru əlaqə aşkar edilməsinə rəğmən, ÜDM-dən texnologiya ixracına doğru təktərəfli səbəbiyyət müəyyən edilmişdir.

Uysal və SAT (2019) tərəfindən aparılan çalışmada Rusiya Federasiyasının iqtisadi artım və ixrac arasında Engle Granger kointeqrasiya əlaqəsi və Granger səbəbiyyət testi aparılmışdır. Verilən dəyişənlər rüblük əsasda 2003-2018-ci illəri əhatə edir. "Augmented Dickey Fuller" (ADF) vahid kök testinə görə, bütün dəyişənlər səviyyədə qeyri-stasionar, birinci fərqdən statisonar olmuşdur. Engle Granger kointeqrasiya testinin nəticələrinə əsasən uzunmüddətli əlaqə müəyyən edilib. Granger səbəbiyyət testi nəticəsində isə iqtisadi artım ilə ixrac arasında biristiqamətli əlaqə tapılmışdır. Belə ki, ixracdan artıma səbəbiyyət əlaqəsinin müəyyən edilməsi müqabilində artımdan ixraca səbəb əlaqəsi müəyyən edilməyib. Tədqiqatın nəticəsində (sonunda) əldə edilən nəticəyə müvafiq olaraq, ixracın iqtisadi artım dominant olmasının əsas səbəbi kimi xammal asılılığı göstərilib.

Emirhan və Alakbarov (2011) tərəfindən aparılan araşdırmada Azərbaycan üçün iqtisadi artıma əsaslanan ixrac hipotezi test edilmişdir. Tədqiqatda dəyişənlərə ÜDM, ixrac və idxal göstəriciləri daxil olmaqla, rüblük əsasda 1996-2008-ci illər əhatə edilir. Bütün dəyişənlər səviyyədə qeyri-stasionar, birinci fərqdən stasionar olmuşdur. Bu sənəddə ixraca əsaslanan iqtisadi artımı test etmək üçün kointeqrasiya və ECM-dən istifadə etməklə dəyişənlər arasında "short-run" və "long-run" əlaqəsi tapılmışdır. Buna baxmayaraq, "Granger" səbəbiyyət testinə əsasən, ixracdan ÜDM-yə yönəlik asılılıq tapılmamışdır. Əksinə, ÜDM-dən ixraca yönəlik asılılıq tapılmışdır. Nəticədə tədqiqatın əsas məqsədi olan ixraca əsaslanan iqtisadi artım hipotezi Azərbaycan üçün keçərli olmamışdır.

Nigar Huseynli (2022) Azərbaycanın iqtisadi artımı ilə ixrac və enerji ixracı statistikalarından istifadə edərək dəyişənlər arasında korrelasiya əlaqəsini və "Granger" səbəbiyyət əlaqəsini tapmağa çalışmışdır. Çalışmada dəyişənlər illik olaraq 1994-2018-ci illəri əhatə edir. Bütün dəyişənlər səviyyədə qeyri-stasionar, birinci fərqdən statisonar olmuşdur. Tədqiqatın nəticəsinə əsasən, müəllif enerji ixracı ilə real ÜDM arasında müsbət və möhkəm əlaqənin olmasını aşkar etmişdir. Buna baxmayaraq, Granger testinin nəticələrində dəyişənlər arasında asılılıq müəyyən edilməmişdir. Habelə çalışmada ÜDM asılı dəyişən olmaqla reqressiya analizi aparılmışdır. Analizə əsasən, enerji ixracı statistik cəhətdən əhəmiyyətli olmamışdır.

Çapık və Ünlü-Örən (2023) tərəfindən aparılan çalışmada Cənubi Qafqaz regionuna daxil olan Azərbaycan, Gürcüstan və Ermənistanın xidmət ixracının iqtisadi artım arasında "Toda-Yamamoto" səbəbiyyət əlaqəsi araşdırılmışdır. Bütün dəyişənlər səviyyədə qeyri-stasionar, birinci fərqdən statisonar olmuşdur. Çalışmada dəyişənlər adambaşına düşən ÜDM, xidmət ixracı, əsas kapitala investisiya qoyuluşları və əmək qüvvəsini əhatə etməklə, illik əsasda 1991-2020-ci illəri əhatə edir. Çalışmanın Azərbaycan bölməsində xidmət ixracı ilə iqtisadi artım arasında səbəbiyyət əlaqəsi tapılmamışdır.

## MODEL VƏ DƏYİŞƏNLƏR

2001-2023-cü illəri rüblük əsasda əhatə edən modeldə ÜDM, MDB ölkələrinə ixrac və həmin ölkələrdən Azərbaycana idxal, həmçinin qeyri-MDB ölkələrinə ixrac və həmin ölkələrdən idxal və Azərbaycanın sənaye istehsalını əhatə edən dəyişənlər daxil edilmişdir.

$$Log(GDP) = \beta_0 + \beta_1 \log(export_CIS) + \beta_2 \log(import_CIS) + \beta_3 \log(export_nonCIS) + \beta_4 \log(import_nonCIS) + \beta_5 \log(industrial_production) + \varepsilon_t$$

Burada, $\beta_0$ sabit dəyişən, $\beta_1$ MDB ölkələrinə ixrac, $\beta_2$ MDB ölkələrindən idxal, $\beta_3$ qeyri-MDB ölkələrinə ixrac, $\beta_4$ qeyri-MDB ölkələrindən idxal, $\beta_5$ Azərbaycanın sənaye istehsalının əmsallarını, $\varepsilon_t$ xəta dəyişənini ifadə edir. Bütün dəyişənlərin natural loqarifması alınmışdır.

**Cədvəl 1. İstifadə edilən dəyişənlər**

| Simvol | Dəyişənlər | Vahid | Mənbə |
|---|---|---|---|
| **GDP** | Azərbaycanın ümumi daxili məhsulu (kumulativ) | ABŞ dolları | Dövlət Statistika Komitəsi |
| **Export_CIS** | MDB ölkələrinə ixrac | ABŞ dolları | Mərkəzi Bank |
| **Import_CIS** | MDB ölkələrindən idxal | ABŞ dolları | Mərkəzi Bank |
| **Export_nonCIS** | Qeyri-MDB ölkələrinə ixrac | ABŞ dolları | Mərkəzi Bank |
| **Import_nonCIS** | Qeyri-MDB ölkələrindən idxal | ABŞ dolları | Mərkəzi Bank |
| **industrial_production** | Azərbaycanın sənaye istehsalı | Azərbaycan manatından ABŞ dollarına konvertasiya edilib. | Dövlət Statistika Komitəsi |

Qrafik 1-də analizdə istifadə edilən qrafiklərin zaman sıraları qrafiklərini əhatə edir. Qrafiklərin təhlili zamanı bütün göstəricilər üzrə pozitiv (artan) trendi müşahidə edilmişdir. Qrafiklərin ortaq cəhəti 2016-cı ildə baş verən enerji böhranı ilə əlaqədar qırılmalarla nəzərə çarpmışdır. Dəyişənlər arasında vahid kök testlərinin sabit və trendli modellərinin nəticələri diqqətə alınmışdır.

**Qrafik 1. Dəyişənlərin zaman sıraları qrafikləri**




**Data.** İxrac ilə böyümə arasında əlaqəni göstərən araşdırma 2001-ci ilin I rübündən -2023-cü ilin IV rübünə qədər olan müddəti əhatə edir. Aparılan ekonometrik analizdə Azərbaycanın real iqtisadi artımı (lngdp), Azərbaycan ilə MDB ölkələri arasında ixrac (lnexport_CIS) və idxal (lnimport_CIS), həmçinin Azərbaycan ilə qeyri-MDB ölkələri arasında ixrac (lnexport_nonCİS) və idxal (lnimport_nonCİS), o cümlədən yerli istehsal sənayesi (lnindustry_production) nəzərdən

keçirilmişdir. Analizdə Azərbaycan Dovlət Statistika Komitəsinin və Mərkəzi Bankın göstəricilərindən istifadə edilmişdir. Bütün göstəricilərin empirik analiz zamanı loqarifması əldə edilmişdir. Bütün dəyişənlər mövsümilikdən təmizlənmişdir.

**Metodologiya**. Bu analizin məqsədi MDB və qeyri-MDB dövlətlərinə edilən ixrac ilə Azərbaycanın böyüməsi arasında əlaqənin tədqiq edilməsidir. Bu məqsədlə 3 aylıq tezlikdə toplanılan məlumatlar əsasında Johansen kointeqrasiya testi və xəta düzəltmə modeli tapılmış, böyümə ilə ixrac dəyişənindən əlavə, böyümə ilə digər kontrol dəyişənlər arasında VECM Granger vasitəsi ilə səbəbiyyət testi edilmişdir.

**Vahid kök testi.** Dəyişənlərin stasionarlığı koinetqrasiya testində önəmli şərtdir. Verilən göstəricilərin statisonarlıq şərtinin ödənilməsi məqsədilə Genişləndirilmiş Dickey-Fuller (ADF) və Phillips-Perron (PP) vahid kök testi aparılmışdır. Testlər həyata keçirilərkən müvafiq gecikmələr Schrwarz və Akaike kriteriyasına görə müəyyən edilmişdir. Augmented Dickey-Fuller Testi (1981) aşağıdakı kimi reqressiya modelinə əsasən təxmin edilir:

Sabitsiz və trend olmayan model: $\Delta Y_t = \delta Y_{t-1} + \sum_{i=1}^{m} \alpha_i \Delta Y_{t-1} + e_t$

Sabitli və trend olmayan model: $\Delta Y_t = \beta_1 + \delta Y_{t-1} + \sum_{i=1}^{m} \alpha_i \Delta Y_{t-1} + e_t$

Sabit və trendli model: $\Delta Y_t = \beta_1 + \beta_2 t + \delta Y_{t-1} + \sum_{i=1}^{m} \alpha_i \Delta Y_{t-1} + e_t$

Habelə, tədqiqatlarda mütəmadi formada istifadə edilən Phillips və Perron (1988) metodu aşağıdakı kimi reqressiya modelinə əsasən təxmin edilir:

$$Y_t = \mu + \acute{\alpha} y_{t-1} + \acute{\upsilon}_t$$

$$Y_t = \mu + \beta\,(t-(1/2)\,\lambda) + \acute{\alpha} y_{t-1} + \acute{\upsilon}_t$$

Vahid kökə sahib olduğunu ifadə edən hipotez isə $H_0: \delta = 0$ şəklində ifadə edilir. ADF və PP testində statistik dəyər kritik dəyərdən yüksək olduğu zaman $H_0$ hipotezi rədd edilir və bütün göstəricilər birinci dərəcədən stasionar I(1) qəbul edilir.

Tədqiqatda verilən dəyişənlərin stasionarlığı ADF və PP vahid kök testləri əsasında həyata keçirilmişdir. Table 1-də ADF və PP vahid kök testləri təqdim edilir. Nəticələrə əsasən, ADF vahid kök testində bütün dəyişənlər həm sabit, həm də sabit və trendli modeldə birinci dərəcədən stasionardır. Başqa sözlə ifadə etsəz, ADF testinin nəticələrinə görə bütün dəyişənlər I(1)-dir. PP vahid kök testinin nəticələri ADF testi ilə eynilik təşkil edir. Sözügedən vahid kök testinə əsasən bütün dəyişənlər həm sabit, həm də sabit və trendli modeldə birinci dərəcədən stasionardır. Nəticə etibarı ilə, həm ADF, həm də PP testinə əsasən dəyişənlər I(1) olması müşahidə edilmişdir.

**Cədvəl 2. Argumented Dickey-Fuller (ADF) və Philips-Peron (PP) vahid kök testləri**

| | | Level | | First difference | |
|---|---|---|---|---|---|
| | | ADF | PP | ADF | PP |
| **lngdp** | Intercept | -2.362841 | -2.056431 | -7.524099** | -7.765665** |
| | | (0.1552) | (0.2627) | (0.0000) | (0.0000) |
| | Trend and intercept | -1.375.904 | -1.216541 | -7.765665** | -7.977061** |
| | | (0.8615) | (0.9007) | (0.0000) | (0.0000) |
| **lnexport_CIS** | Intercept | -2.308.091 | -2.302301 | -9.553000** | -9.554591** |
| | | (0.1717) | (0.1735) | (0.0000) | (0.0000) |
| | | | | | |
| | Trend and intercept | -2.125.771 | -2.122392 | -9.596852** | -9.608165** |
| | | (0.5244) | (0.5262) | (0.0000) | (0.0000) |
| **lnimport_CIS** | Intercept | -2.428.219 | -2.522420 | -10.33042** | -10.37226** |
| | | (0.1370) | (0.1136) | (0.0000) | (0.0000) |
| | | | | | |
| | Trend and intercept | -3.012.498 | -2.975859 | -10.39679** | -10.43319** |
| | | (0.1347) | (0.1448) | (0.0000) | (0.0000) |
| **lnexport_nonCIS** | Intercept | -2.018.071 | -1.953448 | -7.212381** | -7.212381** |
| | | (0.2787) | (0.3068) | (0.0000) | (0.0000) |
| | Trend and intercept | -1.391.164 | -1.566481 | -7.314899** | -7.314899** |
| | | (0.8572) | (0.7985) | (0.0000) | (0.0000) |
| **lnimport_nonCIS** | Intercept | -2.214.102 | -2.212019 | -9.679286** | -9.681703** |
| | | (0.2028) | (0.2036) | (0.0000) | (0.0000) |
| | Trend and intercept | -2.025.818 | -2.041812 | -9.895526** | -9.881834** |
| | | (0.5792) | (0.5705) | (0.0000) | (0.0000) |
| **industry_production** | Intercept | -2.005.897 | -2.005425 | -9.709120** | -9.721178** |
| | | (0.2839) | (0.2841) | (0.0000) | (0.0000) |
| | Trend and intercept | -1.586.032 | -1.642268 | -9.833985** | -9.828460** |
| | | (0.7910) | (0.7682) | (0.0000) | (0.0000) |

**/*** Indicates rejection of the null hypothesis of unit root at 5%/1% significance level.

**Johansen kointeqrasiya testi.**

Dəyişənlərin stasionarlığı I(1) müəyyən edildikdən sonra Johansen kointeqrasiya testi həyata keçirilmişdir. Bunun üçün dəyişənlərin VAR təxmini həyata keçirilmiş və VAR modeli əsasında uyğun gecikmə uzunluğu müəyyən edilmişdir. VAR modeli əsasında əldə edilən nəticələrə əsasən Akaike (AIC) və Schrwarz (HQ) kriteriyalarına görə optimal gecikmə uzunluğu 1 təklif edilmişdir. Modeldə uyğun gecikmə uzunluğu müəyyənləşməsindən sonra Johansen kointeqrasiya testi sınaq edilmişdir.

**Cədvəl 3. Optimal gecikmə uzunluğu**

| Lag | LogL | LR | FPE | AIC | SC | HQ |
|---|---|---|---|---|---|---|
| 1 | 478.1945 | NA | 9.51e-13* | -10.65529* | -9.606153* | 10.23380* |
| 2 | 498.6245 | 34.95259 | 1.40e-12 | -10.28011 | -8.181838 | -9.437141 |
| 3 | 518.6040 | 31.29322 | 2.12e-12 | -9.894073 | -6.746666 | -8.629621 |
| 4 | 544.0960 | 36.24156 | 2.90e-12 | -9.640867 | -5.444324 | -7.954931 |
| 5 | 588.3903 | 56.56868* | 2.63e-12 | -9.840731 | -4.595052 | -7.733311 |
| 6 | 618.8690 | 34.51798 | 3.54e-12 | -9.707686 | -3.412872 | -7.178782 |
| 7 | 643.3870 | 24.22266 | 5.98e-12 | -9.431013 | -2.087063 | -6.480625 |
| 8 | 688.1670 | 37.76627 | 6.96e-12 | -9.642579 | -1.249493 | -6.270707 |

### VAR qalıq diaqnostikası

| LM test for serial correlation | | | Test for heteroscedasiticty | | |
|---|---|---|---|---|---|
| **Lag** | LM-statistics | P value | Chi-sq | df | P value |
| **1** | 31.76395 | 0.6716 | | | |
| **2** | 27.35160 | 0.8502 | 279.9098 | 252 | 0.1094 |

Cədvəl 1-də dəyişənlərin hər biri səviyyədə vahid kökə sahibdir. ADF və PP vahid kök testinin nəticələrinə əsasən, bütün dəyişənlərin birinci fərqində $H_0$ hipotezi rədd edildiyindən Johansen kointeqrasiya əlaqəsini tədqiq etmək mümkündür. VAR modeli əsasında təxmin edilən Johansen koinetqrasiya testinin nəticələri cədvəl 2-də əks edilmişdir. Trace statistikasına əsasən, "ən çox bir vektor" olan yoxluq ($H_0$) hipotezi 1% əhəmiyyətlilik səviyyəsində, Max-Eigen statistikasına görə 5% əhəmiyyətlilik səviyyəsində qəbul edilmişdir. Kointeqrasiya testi dəyişənlər arasında uzunmüddətli bir tarazlığın mövcudluğunu təsbit etmişdir. Həyata keçirilən empirik hesablamada iki kointeqrasiya əlaqəsi əldə edilməsindən dolayı VECM (Vektor xəta düzəltmə modeli) təxmin edilmişdir.

### Cədvəl 4. Johansen kointeqrasiya testinin nəticələri

| | | Trace Statistic | 0.05 Critical Value | Prob.** | Max-Eigen Statistic | 0.05 Critical Value | Prob.** |
|---|---|---|---|---|---|---|---|
| $H_0: r=0$ | None * | 156.6441 | 117.7082 | **0.0000** | 54.66769 | 44.49720 | **0.0029** |
| $H_0: r\leq1$ | At most 1 * | 101.9764 | 88.80380 | **0.0040** | 42.56113 | 38.33101 | **0.0154** |
| $H_0: r\leq2$ | At most 2 | 59.41524 | 63.87610 | 0.1121 | 24.06507 | 32.11832 | 0.3443 |
| $H_0: r\leq3$ | At most 3 | 35.35016 | 42.91525 | 0.2309 | 17.11995 | 25.82321 | 0.4477 |
| $H_0: r\leq4$ | At most 4 | 18.23021 | 25.87211 | 0.3287 | 12.41197 | 19.38704 | 0.3778 |
| $H_0: r\leq5$ | At most 5 | 5.818243 | 12.51798 | 0.4837 | 5.818243 | 12.51798 | 0.4837 |

**Max-eigenvalue test indicates 2 cointegrating eqn(s) at the 0.01 level**
*** denotes rejection of the hypothesis at the 0.01 level**
****MacKinnon-Haug-Michelis (1999) p-values**

### Xəta düzəltmə modeli

Dəyişənlər arasında uzunmüddətli əlaqə tapıldıqdan sonra qısamüddətli dinamikanı araşdırmaq məqsədilə xəta düzəltmə modeli (Vector error correction model -VECM) təxmin edilmişdir. Xəta düzəltmə modeli dəyişənlər arasında tarazsızlığın düzəldilməsi məqsədilə istifadə edilir. Dəyişənlər arasında mövcud olan uzundönəmli kənarlaşmaları düzəltmək məqsədilə xəta düzəltmə modeli tətbiq olunur.

### Cədvəl 5. Xəta düzəltmə modeli (VECM)

| Error Correction: | lngdp | lnexport_CIS | lnimport_CIS | lnexport_nonCIS | lnimport_nonCIS | industry_pr |
|---|---|---|---|---|---|---|
| | -0.183484 | -0.191489 | -0.013196 | -0.326937 | 0.128061 | -0.024748 |
| **CointEq1** | (0.04106) | (0.11106) | (0.05514) | (0.06501) | (0.04906) | (0.10538) |
| | [-4.46874] | [-1.72417] | [-0.23930] | [-5.02934] | [ 2.61023] | [-0.23485] |
| | -0.238639 | -0.501908 | 0.303703 | -0.305887 | -0.015676 | 0.042249 |
| **CointEq2** | (0.06816) | (0.11439) | (0.08127) | (0.19805) | (0.09836) | (0.18537) |
| | [-3.50129] | [-4.38766] | [ 3.73707] | [-1.54450] | [-0.15937] | [ 0.22791] |

VECM-ə əsaslanan Granger testinin nəticələrinə əsasən, VECM Granger casuality ÜDM ilə qeyri-MDB ölkələrinə ixrac arasında 1% əhəmiyyətlilik dərəcəsində ikitərəfli qısa dönəmli müsbət səbəbiyyət əlaqəsi aşkar edilmişdir. Bu hal Azərbaycanın mühüm enerji məhsullarının əhəmiyyətli hissəsinin qeyri-MDB ölkələrinə ixracını empirik olaraq bir daha sübut edir. Habelə, ÜDM-dən və sənaye istehsalından qeyri-MDB ölkələrindən idxala doğru müvafiq olaraq 10% və 1% əhəmiyyətlilik dərəcəsində təktərəfli qısamüddətli səbəbiyyət əlaqəsi müşahidə edilmişdir. Bundan əlavə, qeyri-MDB ölkələrinə ixracdan sənaye istehsalına doğru səbəbiyyətin olmadığı vurğulayan yoxluq hipotezi rədd edilmişdir.

**Cədvəl 6. VECM Granger səbəbiyyət testi**

| | **Δ lngdp** | **Δ lnexport_CIS** | **Δ lnimport_CIS** | **Δ lnexport_nonCIS** | **Δ lnimport_nonCIS** | **Δ industry_pr** |
|---|---|---|---|---|---|---|
| **Δ lngdp** | - | 7.370737 | 2.747961 | 8.623886 | 0.061096 | 3.000013 |
| | | **(0.0066)*** | **(0.0974)***** | **(0.0033)*** | (0.8048) | **(0.0833)***** |
| **Δ lnexport_CIS** | 0.144524 | - | 1.958323 | 0.313812 | 1.580904 | 0.082712 |
| | (0.7038) | | (0.1617) | (0.5754) | (0.2086) | (0.7737) |
| **Δ lnimport_CIS** | 0.083707 | 0.110558 | - | 0.318272 | 1.288964 | 1.396244 |
| | (0.7723) | (0.7395) | | (0.5726) | (0.2562) | (0.2374) |
| **Δ lnexport_nonCIS** | 8.211675 | 8.714084 | 0.580236 | - | 0.000893 | 3.744587 |
| | **(0.0042)*** | **(0.0032)*** | (0.4462) | | (0.9762) | **(0.0530)***** |
| **Δ lnimport_nonCIS** | 1.321891 | 0.001215 | 0.091877 | 0.009213 | - | 0.253021 |
| | (0.2503) | (0.9722) | (0.7618) | (0.9235) | | (0.6150) |
| **Δ industry_pr** | 0.049331 | 1.278923 | 8.608951 | 0.033546 | 5.265245 | - |
| | (0.8242) | (0.2581) | **(0.0033)** | (0.8547) | **(0.0218)**** | |

*, ** and *** denote rejection of null hypothesis at 1%, 5% and 10% significance level respectively

## NƏTİCƏ

Bu tədqiqatda Azərbaycanın xarici ticarət göstəriciləri və artım arasında uzunmüddətli əlaqə və VECM Granger səbəbiyyət testinin nəticələri təhlil edilərək iqtisadi artım ilə ixrac arasında əlaqəyə coğrafi bazarlar üzərindən nəzər yetirilərək uzunmüddətli əlaqə tapılmışdır. Nəticələrə əsasən, 2001-2023-cü illər ərzində qeyri-MDB bazarlarına ixrac ilə Azərbaycanın iqtisadi artımı arasında iki tərəfli müsbət səbəbiyyət əlaqəsi, o cümlədən iqtisadi artım MDB bazarları arasında tək istiqamətli səbəbiyyət əlaqəsi tapılmışdır.

Neft-qaz sektorunun əhəmiyyətli və qeyri-neft/qaz sektorunun az hissəsini özündə ehtiva edən qeyri-MDB ölkələri Azərbaycanın ixracında yüksək konsentrasiyaya malikdir. Nəticə etibarı ilə hər iki göstərici arasında səbəbiyyət testinin müsbət əlaqəsi gözləniləndir. Qeyri-neft/qaz sektorunun ixrac coğrafiyası kiçik miqyasa malik olması ümumi ixraca neqativ töhfə verir. Digər ifadə ilə qeyri-neft/qaz xarici ticarət kəsrinin yüksək olması iqtisadi böyüməni məhdudlaşdırır. MDB bazarlarının qeyri-neft/qaz ixracını əhatə etdiyini nəzərə aldıqda, sözügedən coğrafi bazarlardan iqtisadi artım istiqamətində səbəbiyyətin olmaması gözləniləndir. VECM Granger səbəbiyyət testinin nəticəsi Azərbaycan qeyri-neft/qaz ixracının positiv və ya neqativ hərəkəti ümumi iqtisadi artımdan asılıdır. Sənaye istehsalı ilə MDB və qeyri-MDB ölkələrindən idxal arasında səbəbiyyət əlaqəsi isə təsadüfi deyil. Hər iki bazarlardan idxal edilən xarici mənşəli aralıq məhsullar sənaye istehsalında istifadə edilir.

Bütövlükdə əldə edilən nəticələr ixracın şaxələndirilməsini şərtləndirir. Şaxələndirmə siyasətini yalnız məhsul qrupları üzərindən deyil, coğrafi əsasında aparılması qarşıda duran əsas çağırışdır. Qeyri-MDB ölkələrindən fərqli olaraq MDB ölkələri adambaşına düşən artım göstəricilərindən geridə qalır. MDB ölkələrinin tərkib hissəsində Rusiya Federasiyasının, qeyri-MDB ölkələri arasında isə Avropa Birliyinə üzv olan ölkələrin payı üstünlük təşkil edir.

Tədqiqatın nəticəsi olaraq Azərbaycanın ixraca əsaslanan böyümə hipotezini qeyri-MDB bazarları konteksində qəbul edilmiş, MDB ölkələri konteksində isə edilməmişdir.

## ƏDƏBİYYAT

1. Francisco F. Ribeiro Ramos (12 July 2000). Exports, imports, and economic growth in Portugal: evidence from causality and cointegration analysis.
2. ONOSE, Okpeku Lilian and Aras, Osman Nuri (2021) Does the Export-Led Growth Hypothesis Hold for Services Exports in Emerging Economies?
3. Emilio J. Medina-Smith (New York and Geneva, 2001) "Is the export-led growth hypothesıs valıd for developıng countrıes? A case study of Costa Rıca.
4. Titus O. Awokuse (01 Sep 2006) Exports, economic growth and causality in Korea
5. Hamza Çeştepe, Hilal Yıldız, Gizem Mukiyen Avcı (28.02.2020) - İhracata Dayalı Büyümede Kurumların Rolü: Gelişmiş ve Gelişmekte Olan Ülkeler Örneği.
6. Ioanna Konstantakopoulou (March 17, 2016) New evidence on the Export-led-growth hypothesis in the Southern Euro-zone countries (1960-2014).
7. Peter Kugler ((1991), pp. 73-82) - Growth, Exports and Cointegration: An Empirical Investigation.
8. Wong Hock Tsen (2010) - Export, domestic demand and economic growth in China^ Granger Casualty analysis.
9. Muharrem Akın Doğanay, Sevgi Değer (12.04.2020) - Relationship between Turkey's Export to Regional Markets and Economic Growth (1998Q1 - 2019Q4).

## THE IMPACT OF FOREIGN TRADE TURNOVER BETWEEN AZERBAIJAN AND CIS AND NON-CIS COUNTRIES ON ECONOMIC GROWTH: COINTEGRATION TEST AND VECM GRANGER CAUSALITY

Nijat HAJIZADEH,
Aytekin KHALILOVA

### SUMMARY

The main goal of this study is to study the export-based growth model in Azerbaijan. For this purpose, the effect of export on growth based on quarterly data covering the years 2001-2023 was tested with vector error correction model and causality test.

A significant part of the energy resources exported by Azerbaijan, which has hydrocarbon reserves, is directed to non-CIS countries, and a significant part of non-resource products is directed to the CIS markets. In this study, the current status of the hypothesis of "Export-driven growth model" is investigated by conducting a Granger causality test based on VECM between the mentioned markets and economic growth.

In order to carry out the analyzes mentioned in the study, variables indicating the volume of industrial production of Azerbaijan, along with GDP, export to CIS countries and import from those countries, as well as export to non-CIS countries and import from those countries, were used. According to the findings of the research, the results obtained are as follows: I) Johansen cointegration test was performed between the variables and a long-term relationship was found. II) According to the Granger causality test based on VECM among the variables, bilateral causality was found between exports to non-CIS countries and GDP. Although no causality was found from exports to CIS countries to GDP, it was determined that there was a causal relationship from GDP to exports to CIS countries. According to the results of both tests, the Export-led growth hypothesis was accepted in the case of exports to non-CIS markets, but rejected in the case of CIS countries.

***Keywords:*** *Export-led growth, Cointegration, GDP, CIS, non-CIS markets*

Məqalə redaksiyaya daxil olub: 03.04.2024
Təkrar işlənməyə göndərilib: 02.05.2024
Çapa qəbul olunub: 21.06.2024

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# STRATEJİ MALLARLA TİCARƏTƏ NƏZARƏT SİSTEMİNİN STRUKTURU VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

№ 1(10)-2024
səh. 27-46

Faiq CAMALOV,
İİTKM-in İqtisadi təhlil şöbəsinin
baş məsləhətçisi

DOI:10.30546/2790-2196.1.10.2024.005.

faig.jamalov@ereforms.gov.az

# Strateji mallarla ticarətə nəzarət sisteminin strukturu və onun təkmilləşdirilməsi yolları

Faiq CAMALOV,
İİTKM-in İqtisadi təhlil şöbəsinin baş məsləhətçisi

**XÜLASƏ**

Məqalədə strateji mallar ilə ticarətə nəzarətin zəruriliyi və aktuallığı, strateji malların mahiyyəti, onların növləri və təsnifatı, müəyyən olunma sxemi, strateji mallara dair nümunələr, Azərbaycan Respublikasında ixrac nəzarəti sisteminin strukturu və onun elementləri, milli ixrac nəzarətinin tənzimləndiyi qanunverici əsaslar və müvafiq sahədə beynəlxalq konvensiyaların tələbləri, ixrac nəzarətinə düşən malların siyahısı və bu mallar üzrə əməliyyatların həyata keçirilməsinə xüsusi icazələrin verilməsi və yoxlama qaydaları, xüsusi icazələrin dayandırılması və ləğvi halları, dövlət orqanları və qurumlarının ixrac nəzarəti üzrə funksiyaları, ixrac nəzarəti qanunvericiliyinin pozulmasına görə inzibati və cinayət məsuliyyəti tədbirləri sistemləşdirilmiş, təhlil və şərh edilmiş, Azərbaycanda strateji mallar ilə ticarət sahəsində ixrac nəzarəti sisteminin təkmilləşdirilməsi üzrə təkliflər verilmişdir.

***Açar sözlər**: strateji mallar, ixrac nəzarətinə düşən mallar, ixrac nəzarəti sistemi, ikili təyinatlı mallar, hərbi təyinatlı mallar.*

***JEL kodu:** F13*

## GİRİŞ

Təqdim olunan mövzu üzrə *aparılmış təhlilin əsas məqsədi* dövlət orqanlarına və qurumlarına, xarici iqtisadi fəaliyyət iştirakçısı olan müəssisə və şirkətlərə, sahibkarlara, eləcə də ictimaiyyətə ölkədə strateji mallar ilə ticarətə kompleks nəzarətin (ixrac nəzarətinin) həyata keçirilməsinə və belə nəzarətin effektivliyinin təmin olunmasına informasiya dəstəyi göstərməkdir.

*Strateji mallar* termini kütləvi qırğın silahı (KQS), adi silah və belə silahların hazırlanması, istehsalı və ya istifadəsi zamanı istifadə olunan əlaqəli malları və onların çatdırılma sistemlərini bildirir. *Strateji mallar ilə ticarət* – strateji malların müəyyən alıcılar və ya son istifadə/son istifadəçilər üçün müəyyən şəraitdə ixracı, idxalı, beynəlxalq tranziti və daşınması ilə bağlı məsələləri əhatə edir.

Qeyd edək ki, Azərbaycan Respublikasında strateji mallar ilə ticarətə nəzarət termini *ixrac nəzarəti* termini ilə müəyyən olunmuşdur. Milli qanunvericilikdə *ixrac nəzarəti* [1] – belə nəzarətə düşən malların (eləcə də işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) Azərbaycan Respublikasının ərazisinə gətirilməsi, bu ərazidən çıxarılması və tranzitinin Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş *qaydalara uyğun həyata keçirilməsini təmin edən tədbirlər kompleksi* olaraq müəyyən edilmişdir.

Strateji mallar ilə ticarətə nəzarətin (SMTN) həyata keçirilməsi KQS-lərin hissələrinin və komponentlərinin qanunsuz yayılmasının və transmilli alışlarının qarşısının alınmasında mühüm rol oynayır. KQS-lər, onların çatdırılma vasitələri və onlarla əlaqəli məhsulların qanunsuz dövriyyəsi və istifadəsinin qarşısının alınması üçün qəbul olunmuş və sərhəd, ixrac, tranzit və daşıma üzrə uyğun və effektiv nəzarətin inkişaf etdirilməsi və dəstəklənməsi zərurəti üzərində fokuslanmış BMT-nin Təhlükəsizlik Şurasının 1540 (2004) saylı Qətnaməsi və onunla əlaqəli digər Qətnamələri bütün üzv-dövlətləri nüvə silahının yayılmasının qarşısının alınması üçün effektiv tədbirlər qəbuluna və tətbiqinə çağırır. BMT-nin müvafiq Qətnaməsi və digər embarqoları və sanksiyaları həm qanuni kommersiya məqsədlərinə, həm də insanlara / dövlətlərə zərər vuran fəaliyyətlərə töhfə verə biləcək ikili təyinatlı malları müəyyən edir. Bu mallara nəzarət etmək üçün balanslaşdırılmış yanaşma çərçivəsində ikili təyinatlı malların, komponentlərin və xammalın *strateji ticarət predmeti olaraq tanınması və onların qeyri-qanuni*

*istifadə məqsədilə sonrakı hərəkətinin qarşısının alınması vacibdir.*

Nüvə silahının yayılmaması üzrə beynəlxalq rejim *(i) müqavilələr, (ii) sanksiyalar və (iii) qeyri-rəsmi çoxtərəfli razılaşmalar* da daxil olmaqla bir neçə səviyyələrdə fəaliyyət göstərir ki, onların hamısında ticarətə nəzarət üzrə müəyyən öhdəliklər nəzərdə tutulur. Bundan əlavə, BMT-nin Təhlükəsizlik Şurasının 1540 (2004) saylı Qətnaməsi BMT-yə üzv olan bütün dövlətlərə hüquqi gücə malik əlavə öhdəliklər müəyyən edir (bax: istinad 8).

Strateji malların qanunsuz ticarəti gömrük orqanları və lisenziya verən qurumlar üçün ciddi problem olaraq qalır. KQS-lər, onların çatdırılma vasitələri və onlarla əlaqəli məhsulların qanunsuz yayılmasını həyata keçirənlərin yayınma strategiyaları da eyni zamanda inkişaf edir və adaptasiya olunur.

Digər tərəfdən, SMTN özəl sektor müəssisələrinin beynəlxalq ticarətdə iştirakını mürəkkəbləşdirməklə və xərclərini artırmaqla beynəlxalq ticarətin səmərəliliyini aşağı sala bilər. Səmərəli normativ-hüquqi bazanın olması yerli idarəetmə sisteminin qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması xərclərinin minimuma endirilməsinə yardım edə bilər. Həmçinin beynəlxalq resurslar (BMT TŞ-nin 1540 saylı Qətnaməsi və Çoxtərəfli ixrac nəzarəti rejimləri) strateji mallarla ticarətə effektiv nəzarət sistemlərinin tətbiqi və dəstəklənməsi xərclərini aşağı sala bilər.

Dünyanın bütün ölkələri *SMTN mexanizmini* qurmalı və onu tətbiq etməlidir və bu sahədə qlobal tendensiyalar daha yüksək uyğunluq səviyyələrinə doğru irəliləyir. Bu çağırış qlobal münaqişələrin yeni səviyyəyə keçdiyi hazırkı şəraitdə daha aktuallıq kəsb etməkdədir.

*SMTN-nin iqtisadi faydalarına* gəldikdə, aşağıdakıları qeyd etmək olar:

- SMTN tədbirləri beynəlxalq ticarətin təhlükəsizliyini yüksəldir və KQS-lərin yayılma riskini aşağı salır;
- SMTN-nin olması ölkənin təhlükəsiz, biznesin aparılması üçün yaxşı tənzimləmənin olduğu ölkə kimi reputasiyasına müsbət təsir edir;
- SMTN-nin olması ölkələrin həmçinin strateji texnologiyalar və mallara daha yaxşı çıxışına imkan yaradır.

SMTN-ə malik ölkələr xarici təchizatçılardan idarə olunan texnologiyalar əldə etmək imkanlarını artıra bilərlər. SMTN sistemi olmayan ölkələrə isə digər ölkələr tərəfindən daha sərt nəzarət tədbirləri tətbiq oluna bilər.

Beynəlxalq qiymətləndirmələrə əsasən, SMTN sisteminə malik olma və Çoxtərəfli ixrac nəzarəti rejimlərinin (xüsusilə Nüvə Təchizatçıları Qrupu və Raket Texnologiyalarına Nəzarət Rejiminin) tərəfi olma ölkələrin beynəlxalq ticarətinə və ixrac axınlarına müsbət təsir edir.

SMTN üzrə təhlükəsizlik və iqtisadi maraqlar arasındakı tarazlığı saxlamaq həmişə çətin olur. Qeyd olunan tarazlıq, məsələn, texnologiyanın inkişaf etdirilməsi ilə asanlıqla pozula bilər. Kiber silahlar və ya süni intellekt kimi yeni inkişaf istiqamətləri də bu sahədə yeni yollar açır.

## STRATEJİ MALLAR VƏ ONLARIN NÖVLƏRİ

Mallar o halda strateji mallar kateqoriyasına aid olunur ki, onlar *milli nəzarət siyahısına* daxil edilsin və ya KQS olaraq son istifadə, yaxud da KQS-nin son istifadəçiləri üçün nəzərdə tutulsun.

Belə silahların və onun tədarükü sistemlərinin hazırlanması və istehsalı müxtəlif istehsal avadanlıqları, elektronika, materiallar və kimyəvi maddələr tələb edir ki, bunların böyük hissəsi qanuni kommersiya məqsədlərinə malik olmaqla *"ikili təyinatlı mallar"* kateqoriyasına aid edilir. Belə malların tədarükü həm qanuni, həm də qeyri-qanuni üsullarla həyata keçirilir və bir çox ölkələrdə strateji mallarla ticarəti tənzimləyən qanun və normativ aktlar qüvvədə olur. Buna baxmayaraq, bir sıra tədarükçülər və ticarət əməliyyatlarının məlumatsız iştirakçıları belə mallara tətbiq olunan ticarət məhdudiyyətləri ilə tanış olmaya, yaxud malın həqiqi təyinatını gizlədən təchizat agentlərinin yalanının qurbanı ola bilərlər.

Bundan əlavə, tədarükçülər, brokerlər və ya ticarət əməliyyatlarının iştirakçıları bəyannamədə düzgün olmayan məlumat göstərməklə, qanunvericilikdəki boşluqlardan və ya qaçaqmalçılıqdan istifadə etməklə bilərəkdən məhdudiyyətlərdən yan keçməyə cəhd edə

bilərlər.

Dinc məqsədlər üçün ticarətə əsassız maneələr törətmədən belə kommersiya mallarının ticarətinə nəzarət üzrə effektiv tədbirlərin həyata keçirilməsi SMTN-nin ən çətin vəzifələrindən biridir. Qeyd etmək lazımdır ki, strateji mallar dünya ticarətinin kiçik hissəsini (5-6%) təşkil edir. Məsələn, kondensatorlar yayılmış elektron komponentlərə aid olunur və bir sıra kondensatorların strateji mallar kateqoriyasına aid olmasına baxmayaraq, ticarət dövriyyəsində olan kondensatorların 99%-indən çoxu KQS kimi hər hansı təhdid yaratmır.

Aşağıdakı cədvəldə strateji mallar üzrə verilmiş nümunələr strateji mallar anlayışını daha aydın başa düşməyə imkan verir.

**Cədvəl 1. Strateji mallara dair nümunələr**

| | |
|---|---|
| **İzostatik presləmə dəzgahı (IPM)** | İkili təyinatlı sənaye avadanlığının mühüm elementidir. Bu dəzgahda qapalı kamerada toz halında olan metal və ya keramikaya təzyiq göstərilməsi hesabına detallar formalaşdırılır. Müvafiq dəzgahların isti (HIP) və soyuq presləmə (CIP) növləri mövcuddur. Onda həmçinin diffuziya qaynağının köməyilə məsamələrin aradan qaldırılması və müxtəlif növ materialların birləşdirilməsilə eyni sıxlıqlı məmulatlar hazırlamaq olar. İzostatik preslər metal və keramika tozlarından alət əlavələri, turbin bıçaqları və izolyatorlar kimi müxtəlif məmulatlar yaratmaq üçün istifadə olunur. *Onlar strateji mallar hesab olunur, çünki nüvə partlayıcı qurğular, ballistik raketlərin döyüş başlıqları və ucluqları üçün detalların hazırlanmasında mühüm rol oynayır.* |
| **Alüminium tozu (AP)** | *Alüminium tozu* – toz halında olan metallar kimi kimyəvi maddə olaraq tədarük olunan metaldır. Bu maddə alüminiumun incə dənəvər vəziyyətinə qədər xırdalanması yolu ilə əldə edilmiş tez alışan tozdur. O, müəyyən elektron cihazların istehsalında istifadə olunur, həmçinin partlayıcı maddələrin və raket yanacağı komponentlərinin hazırlanması üçün istifadə oluna bilər. *Raket sistemlərinin yanacaq qarışığının ən geniş yayılmış komponenti kimi strateji dəyərə malik olmaqla yanaşı, bu toz əldəqayırma partlayıcı qurğuların istehsalı ilə əlaqəli kimyəvi prekursor kimi də müəyyən olunub.* |
| **Hidrogen florid (HF)** | *Hidrogen florid* – florokarbon (məsələn, soyuducu maddələr və raket yanacağı) və floropolimerlərin (məsələn, teflon) istehsalında geniş istifadə olunan kimyəvi maddədir, eləcə də kimyəvi sinir agentlərinin (sinir paraliçi təsiri) hazırlanmasında strateji komponent (və ya prekursor) kimi istifadə oluna bilər. |
| **Təzyiq ötürücüləri (PS)** | *Təzyiq ötürücüləri* – maye və ya qazın təzyiqinin ölçülməsi və bu göstəriciləri qeyd edən qurğulara və ya texnoloji nəzarət avadanlığına ötürülə bilən elektron siqnallara çevirilməsi üçün istifadə olunan cihazlardır. Müəyyən xarakteristikalara malik *təzyiq ötürücüləri uranın zənginləşdirilməsi ilə məşğul olan müəssisələrdə texnoloji prosesin idarə olunmasında mühüm rol oynaya bilər* . |
| **Stafilokok enterotoksin B (SEB)** | *SEB* - qida zəhərənməsinin yayılmış səbəblərindən olan qızılı stafilokok (staphylococcus aureus) bakteriyası tərəfindən hasil olunan toksindir. Tənəffüs zamanı bu toksinin zərərli təsiri kütləvi qırğın silahı (KQS) kimi təhlükə yaradır. O, qızdırma, respirator xəstəlikləri (öskürək, sinədə ağrı) və mədə-bağırsaq pozuntuları yaradır. Əhəmiyyətli dozada təsir ağciyər ödemi, tənəffüs çatışmazlığı, şok və ölümə səbəb ola bilər. Bundan əlavə, bu toksinin gözə təsiri nəticəsində konyuktivit və üz ödemi doğurması da *kütləvi qırğın silahı kimi təhlükə yaradır. Bu toksinin KQS kimi istifadə təhlükəsi "stafilokok aureus" ştammlarının əldə edilməsi, yetişdirilməsi və yayılmasının asanlığı ilə daha da güclənir.* |

Strateji mallar təhlükəsizlik səbəbləri, yaxud beynəlxalq müqavilələr baxımından daha çox hərbi əhəmiyyət kəsb edən məhsullara aid olunur ki, bu səbəbdən də onların ixracı tamamilə qadağan edilir, ya da xüsusi şərtlərə tabe olur. Belə mallar ümumiyyətlə hərbi məqsədlər və ya KQS-lərin istehsalı üçün istifadəyə yararlıdır.

Strateji mallar termini həm *hərbi*, həm də *ikili təyinatlı mallara* aiddir. İkili təyinatlı mallar və onların təcəssüm etdirdiyi texnologiya ilk növbədə mülki məqsədlər üçün nəzərdə tutulub, lakin eyni zamanda hərbi (adi ikili təyinatlı mallar adlanır) və ya KQS-lərin və ya bu silahları öz hədəflərinə daşıya bilən raketlərin hazırlanması və istehsalında tətbiqə malik ola bilər.

**Hərbi təyinatlı və adi ikili təyinatlı mallar.** Hüquqi nöqteyi-nəzərdən ayrı-ayrı ölkələrin müəyyən olunmuş malları "hərbi" təyinatlı olaraq müstəqil təsnifləşdirmək hüququ vardır. "Wassenaar Razılaşması" adi silahlara və ikili təyinatlı mallara (birlikdə "Ümumi hərbi təyinatlı mallar siyahısı" adlanır) *çoxtərəfli ixrac nəzarəti rejimidir.* Praktikada bu siyahı "Wassenaar Razılaşması"nın iştirakçısı olmayan bir sıra ölkələr tərəfindən də tətbiq edilir. "Wassenaar Razılaşması" həmçinin *ikili istifadə üçün nəzərdə tutulan ənənəvi malların* siyahısını da təşkil edir.

**Qeyri-ənənəvi ikili təyinatlı mallar.** *Qeyri-ənənəvi ikili təyinatlı mallar* üçün *xüsusi təyinatlı ixrac nəzarəti rejimləri* mövcuddur. "Nüvə Təchizatçıları Qrupu", "Avstraliya Qrupu" və "Raket Texnologiyasına Nəzarət Rejimi" ("The Nuclear Suppliers Group", "The Australia Group" and "The Missile Technology Control Regime") müvafiq olaraq nüvə, bioloji və kimyəvi silahların və KQS yüklərini daşıya bilən ballistik raketlərin tətbiqləri ilə məşğul olur. Bütün bu rejimlər özlərinin ikili təyinatlı mallarının siyahılarını tərtib edirlər.

**Hərbi təyinatlı mallar.** *Hərbi təyinatlı mallara* ümumi şəkildə misal olaraq silahlar, silah sistemləri, belə sistemlər üçün texnologiya və proqram təminatı və xüsusi olaraq hərbi məqsədlər üçün nəzərdə tutulmuş digər avadanlıqlar göstərilə bilər. Bu malların siyahısı ML1-dən ML22-yə qədər konkret kateqoriyalara (mal mövqelərinə) bölünür (Cədvəl 2). Müvafiq siyahı bir qayda olaraq, aksesuarlar və/və ya komponentlər və onlarla əlaqəli avadanlıq da daxil olmaqla, hərbi təyinatlı malların ətraflı təsvirlərini verir. *Hərbi təyinatlı malların siyahısına* silahlar, sursatlar, bombalar, tanklar, vizual görüntü cihazları və kimyəvi maddələr kimi mallar daxildir. O, əsasən hərbi məqsədlə istifadə üçün xüsusi hazırlanmış və ya modifikasiya olunmuş əşyalar, avadanlıqlar, komponentlər, proqram təminatı və texnologiyalardan ibarətdir.

**Cədvəl 2. Hərbi təyinatlı malların kateqoriyaları**

| Kateqoriya kodu | Təsvir |
|---|---|
| ML1 | Kiçik çaplı silahlar |
| ML2 | İri çaplı silahlar və proyektorlar |
| ML3 | Silah və partlayıcıların quraşdırılması üçün qurğular |
| ML4 | Bombalar, raketlər, digər partlayıcı qurğular və müvafiq avadanlıqlar |
| ML5 | Yanğına nəzarət və müvafiq xəbərdaredici avadanlıqlar |
| ML6 | Yerüstü nəqliyyat vasitələri (texnika) və komponentləri |
| ML7 | Kimyəvi və ya bioloji toksik maddələr və əlaqədar avadanlıqlar |
| ML8 | Partlayıcı maddələr, raket yanacağı, yanacaq və əlaqəli maddələr |
| ML9 | Hərbi dəniz gəmiləri və komponentləri |
| ML10 | Hərbi hava gəmiləri və komponentləri |
| ML11 | Hərbi təyinatlı elektron avadanlıqlar |
| ML12 | Yüksək sürətli kinetik enerjili silahlar |
| ML13 | Zirehli və qoruyucu avadanlıqlar |
| ML14 | İxtisaslaşdırılmış hərbi təlim avadanlığı |
| ML15 | Vizual təsvir və ya əks tədbir avadanlığı |
| ML16 | Hərbi əşyalarda istifadə üçün aralıq məhsullar |
| ML17 | Müxtəlif avadanlıqlar və materiallar |
| ML18 | Hərbi texnika üçün istehsal avadanlığı |
| ML19 | İstiqamətləndirilmiş enerjili silah sistemləri |
| ML20 | Kriogen və yüksək keçiricili avadanlıq |
| ML21 | Hərbi mallar üçün xüsusi proqram təminatı |
| ML22 | Hərbi mallar üçün xüsusi texnologiya |

**İkili təyinatlı malların siyahısı.** *İkili təyinatlı malların siyahısına* kommersiya məqsədləri üçün nəzərdə tutulmuş, lakin hərbi məqsədlər üçün və ya potensial olaraq KQS-lərin prekursorları və ya komponentləri kimi istifadə oluna bilən geniş çeşiddə mallar daxildir. İkili təyinatlı malların siyahısı üzrə sadalanan mallar və texnologiya üçün beşrəqəmli hərf-rəqəm kodu istifadə olunur (Diaqram 1). Bu kod kateqoriyanı (0-dan 9-dək olmaqla, 10 kateqoriyaya bölünür), subkateqoriyanı (5 məhsul qrupuna bölünür: A, B, C, D və E), müvafiq beynəlxalq ixrac nəzarəti rejimlərini (5 rejimə bölünür - 0: WA, 1: MTCR, 2: NSG, 3: AG, 4: CWC) və son nömrə isə malın təsvirini göstərir.

**Diaqram 1. İkili təyinatlı malların kodlaşdırma sisteminin strukturu**




## STRATEJİ MALLARIN MÜƏYYƏN EDİLMƏSİ SXEMİ

Verilmiş malın strateji mal olub-olmadığını müəyyən etmək üçün ilk əvvəl malların texniki xüsusiyyətləri strateji malların siyahılarında verilmiş təsvirlərlə müqayisə edilməlidir. Malın strateji mal olub-olmadığı həmin mal üçün lisenziya (icazə) tələbinin olması ilə müəyyən olunur. Əgər malların adı siyahılarda aşkar olunmursa və bu səbəbdən də ona nəzarət edilmirsə, malların ixrac edilməli olduğu barədə gömrük və digər aidiyyəti orqanlara məlumat verilməsi faydalı ola bilər. Müvafiq mallara lisenziya tələb olunmadığını təsdiq etmək üçün bəyannamə tələb oluna bilər.

*Beynəlxalq praktikada məhsulların strateji məhsullara aid olub-olmamasının müəyyən edilməsi ümumi şəkildə 5 mərhələli prosedur ilə müəyyən olunur.* Qeyd olunan mərhələlər üzrə atılacaq konkret addımların təfərrüatları aşağıdakı sxemdə təsvir olunmuşdur (cədvəl 3).

**Cədvəl 3. Strateji malların müəyyən edilməsi sxemi**

| Prosedurun mərhələləri | Aydınlaşdırılan məsələlər/suallar |
|---|---|
| 1. Məhsulun başa düşülməsi | Verilmiş məhsul nə məhsuldur? |
| | Məhsulun funksiyası və tətbiqi hansılardır? |
| | Bu, bütöv sistem, avadanlıq və ya xammaldır? |
| 2. Xüsusi olaraq hərbi istifadə üçün hazırlanması və ya modifikasiya olunmasının müəyyən edilməsi | Əgər elədirsə, Hərbi mallar siyahısına bax |
| | Əks halda, İkili mallar siyahısına bax |
| 3. Mümkün kateqoriya kodlarının müəyyən olunması | Əgər mal xüsusi olaraq hərbi istifadə üçün nəzərdə tutulubsa və ya dəyişdirilibsə, mümkün kateqoriya kodlarını müəyyən etmək üçün istinad kateqoriya kodlarından istifadə edin |
| | Əgər mal xüsusi olaraq hərbi istifadə üçün nəzərdə tutulmayıbsa və ya dəyişdirilməyibsə, mümkün kateqoriya kodlarını müəyyən etmək üçün istinad kateqoriya nömrələrindən və məhsul qruplarından istifadə edin |
| | Malın xüsusiyyətlərini mümkün kateqoriya kodlarının təsviri ilə müqayisə edin və müvafiq qeydlərə və təriflərə istinad edin |
| | Mümkün kateqoriya kodu yoxdursa, mal strateji mal deyildir |
| 4. Malın bəyan olunmuş xüsusiyyətlərə uyğunluğunun müəyyən edilməsi | Cavab müsbətdirsə, mal strateji maldır (müvafiq istisna qeydi olmadıqda) |
| | Əks halda, mal strateji mal deyildir |
| 5. İstisnalar barədə qəbul olunan qeydlərin olub-olmaması | Cavab müsbətdirsə, mal strateji mal deyildir |
| | Əks halda, mal strateji maldır |

## STRATEJİ MALLARLA TİCARƏTƏ NƏZARƏT SİSTEMLƏRİNİN ƏSAS ELEMENTLƏRİ

SMTN üzərində dövlətlərin beynəlxalq öhdəlikləri müxtəlif dövlət orqanlarının, xüsusilə lisenziya və ya icazə verən bir və ya bir neçə təşkilatın və hüquq mühafizə orqanının iştirakı (əksər halda idarələrarası işçi qrupları və komissiyalar ilə qarşılıqlı əlaqədə) ilə milli qanunvericilik və normativ aktlar əsasında icra olunmalıdır. Milli qanunlar və normativ aktlar (nəzarət siyahıları daxil olmaqla) hər bir ölkənin *(i) strateji mal olaraq nəzərdən keçirdiyi mallar dairəsini* (bir qayda olaraq, nəzarət olunan mallar kateqoriyasına və müəyyən şəraitdə siyahıya daxil edilməmiş mallar üzərində dövlət nəzarətini həyata keçirməyə imkan verən ümumi kateqoriyaya bölünür), *(ii) lisenziyalaşdırma rejimini, (iii) hüquq pozuntularının kateqoriyalarını*

*və (iv) belə pozuntulara görə cəza tədbirlərini* müəyyən edir.

Düzgün fəaliyyət göstərən SMTN sistemində ticarət sövdələşmələrinin iştirakçıları zərurət olduğu halda icazə və ya lisenziyanın alınması üçün ərizə ilə müraciət edir və bununla da ticarətə nəzarət üzrə öhdəliklərini aktiv icra etməklə kommersiya əməliyyatlarını davam etdirir. Lakin qanuna heç də həmişə riayət olunmur və hüquq mühafizə orqanları müvafiq hüquq pozuntularını aşkar etməli, aradan qaldırmalı və ideal halda qarşısını almalıdır. SMTN sahəsində hüquq pozuntuları ilə effektiv mübarizə aparılması məqsədilə inzibati, eləcə də cinayət məsuliyyətinə cəlb olunma tədbirləri tələb olunur.

**SMTN-də gömrük nəzarəti orqanlarının xüsusi rolu.** SMTN "ümumdövlət" yanaşmasını tələb edir ki, burada *gömrük nəzarəti orqanları* mühüm rol oynayır. SMTN-nin əsasında gömrük orqanlarının risk qiymətləndirməsi, hədəfli obyektlərin aşkar olunması, yoxlama və auditin aparılması kimi əsas funksiyaları yerləşir. Bu funksiyaları yerinə yetirməklə gömrük orqanı malların transsərhəd hərəkəti zamanı milli qanunlara və normativ aktlara riayət olunmasını təmin edir.

Gömrük nəzarəti orqanları qanunvericiliyin xüsusiyyətlərindən asılı olaraq, icra vəzifələrinə və səlahiyyətlərinə malik ola və ya olmaya bilər, lakin onlar yüklərin aşkar edilməsi, yoxlanılması və saxlanılması üzrə fundamental hüquqi səlahiyyətləri əsasında SMTN-nin həyata keçirilməsində əsas rol oynayırlar. Müvafiq səlahiyyətləri ilə gömrük orqanları digər orqanların tələbi əsasında yükü saxlaya bilər. Bu, bir qayda olaraq, strateji malların beynəlxalq daşımalarının lisenziya və ya icazə verən təşkilatın icazəsini tələb etdiyi hallarda SMTN məsələsinə aid olunur. Bu isə SMTN-nin həyata keçirilməsində gömrük orqanlarının işindən mühüm asılılığı təsdiq edir, eyni zamanda lisenziya və ya icazə verən təşkilat pozuntunun olub-olmadığına dair təsdiqini gömrük əməkdaşlarına bildirməlidir. Buna baxmayaraq, gömrük qaydalarının pozulması, məsələn, bəyannamədə səhv məlumatın verilməsi malların saxlanılması və müsadirəsi üçün kifayət qədər əsas və şübhəli yüklərin aşkar edilməsinin effektiv üsulu hesab oluna bilər. Gömrük əməkdaşlarının digər orqanın adından malı müsadirə etməsindən sonra müvafiq iş sonrakı baxış və qərar qəbulu üçün ötürülə bilər. Bu səbəbdən, SMTN-nin effektivliyini təmin etməkdən ötrü gömrük orqanı ilə digər tənzimləyici, istintaq və hüquq mühafizə orqanları arasında sıx əməkdaşlıq münasibətləri qurmaq lazımdır.

Beynəlxalq öhdəliklərin icrasının təmin olunmasından əlavə, etibarlı ticarət əməkdaşlığının dəstəklənməsi və strateji malların tədarükçülərinə etibarın təmin olunmasında *ticarət nəzarəti tədbirləri* də əhəmiyyətlidir. Bu baxımdan, ticarət nəzarəti tədbirləri normativ hüquqi uyğunluğun təmin olunması və iş proseslərinin optimallaşdırılması üçün zəruridir. Hansı malların strateji mal hesab olunmasından asılı olmayaraq, dövlət səviyyəsində öhdəliklərin qəbulundan və müəyyən mallara nəzarət siyasətinin tətbiq olunmasından sonra gömrük orqanları belə nəzarəti təmin etməli olacaqlar.

SMTN-nin həyata keçirilməsində gömrük orqanının rolu əsas hüquqi səlahiyyətlərinin (audit, yoxlamalar, saxlama, malların müsadirəsi, cəza tədbirləri və s.) reallaşdırılması qabiliyyətindən asılıdır.

## STRATEJİ MALLARLA TİCARƏTƏ MİLLİ NƏZARƏT MEXANİZMİ

**Azərbaycan Respublikasında ixrac nəzarəti sisteminin strukturu.** KQS-lərin və onların çatdırılma vasitələrinin yayılmaması üzrə dövlət maraqlarının qorunması və beynəlxalq öhdəliklərin yerinə yetirilməsi məqsədilə ölkədə milli ixrac nəzarəti sistemi yaradılmış və fəaliyyət göstərir. Çoxfaktorlu və spesifik olması səbəbindən ixrac nəzarəti ölkədə bir çox nazirlik və idarələrin məsuliyyət sahəsinə daxil edilmiş və siyasətin işlənib hazırlanmasından tutmuş gömrük nəzarətinin həyata keçirilməsi və hüquqpozmaların araşdırılmasına qədər müxtəlif xarakterli funksiyaların icrasını tələb edir.

Milli qanunvericiliyə əsasən, Azərbaycan Respublikasının hərbi sahədə milli təhlükəsizliyinə əsas təhdidlər sırasında (i) ölkəyə qarşı kütləvi qırğın silahlarının tətbiqi və ya tətbiqinin mümkünlüyü və (ii) kütləvi qırğın silahlarının komponentlərinin və texnologiyalarının, onları hədəfə çatdırma vasitələrinin, yeni hərbi istehsalat texnologiyalarının yayılmasında ölkə

ərazisinin tranzit kimi istifadə edilməsi cəhdləri müəyyən edilmiş və belə təhdidlərin qarşısının alınması müvafiq sahədə milli təhlükəsizliyin təmin olunması üçün görülən əsas tədbirlər sırasına daxil edilmişdir. [6]

*Gömrük orqanları* üçün müəyyən olunmuş *vəzifələrdən biri* də qanunvericilikdə nəzərdə tutulmuş qaydada *ixrac nəzarətini həyata keçirmək*, o cümlədən belə nəzarəti həyata keçirmək məqsədilə malların gömrük sərhədindən keçirilməsi barədə *məlumatları toplamaq və təhlil etməkdir.* [4]

Gömrük orqanları *ixrac nəzarətinə düşən malların* gömrük sərhədindən qeyri-qanuni keçirilməsinin, o cümlədən bu malların ixracına qadağa və məhdudiyyət qoyulmuş dövlətlərə və son istifadəçilərə ixracının qarşısını alırlar. [4] Həmçinin malların gömrük nəzarəti və rəsmiləşdirilməsi, eləcə də təsnifatı məqsədilə xüsusi biliklərin tələb olunduğu hallarda tətbiqi nəzərdə tutulan gömrük ekspertizasının müvafiq məqsədləri ixrac nəzarəti tələblərini əsas etibarilə əhatə edir. Belə ki, ölkədə gömrük ekspertizasının məqsədləri [4] (i) malların tərkibinin və texniki göstəricilərinin müəyyən edilməsi, (ii) malların xarici iqtisadi fəaliyyətin mal nomenklaturasına uyğun olaraq aidiyyətinin, təsnifat kodunun müəyyən edilməsi və eyniləşdirilməsi, (iii) malların mənşə ölkəsinin, emal prosesində hasilat normalarının, istehsal tarixinin və keyfiyyətinin müəyyən edilməsi, (iv) ixrac nəzarətinə düşən malların ikili təyinatlı olmasının yoxlanılması, (v) malların kimyəvi və mineraloji tərkibinin müəyyən edilməsi, (vi) ekoloji baxımdan təhlükəli, tərkibində ozondağıdıcı maddələr olan malların və tullantıların müəyyən edilməsi, (vii) radiasiya təhlükəsi olan malların müəyyən edilməsi, (viii) malların gömrük dəyərinin təyin olunması və (ix) malların tarixi və sənətşünaslıq baxımından dəyərliliyinin müəyyən edilməsindən ibarətdir.

Həmçinin *sərhəd mühafizə orqanlarının vəzifələrindən biri* də narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsirli, zəhərli, zəhərləyici, radioaktiv, partlayıcı maddələrin və qurğuların, hərbi texnikanın, odlu silah və döyüş sursatının, *nüvə, kimyəvi, bioloji və digər kütləvi qırğın silahlarının, kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materialların və avadanlıqların*, eləcə də mülki dövriyyəsi qadağan olunmuş və ya məhdudlaşdırılmış digər əşyaların Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən qanunsuz keçirilməsinin və kənardan Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsinin qarşısını almaq üçün tədbirlər görməkdir. [7]

Ölkədə *ixrac nəzarətinin* həyata keçirilməsinin bəyan olunmuş *məqsədləri* aşağıdakılardır:

1. müvafiq sahədə *dövlətin milli təhlükəsizliyinin* təmin edilməsi;
2. müvafiq sahədə dövlətin *siyasi, hərbi və iqtisadi maraqlarının* təmin edilməsi;
3. dövlətin tərəfdar çıxdığı kütləvi qırğın və başqa növ silahların yayılmaması barədə dövlətlərarası *beynəlxalq müqavilələr üzrə öhdəliklərə* riayət edilməsi;
4. kütləvi qırğın silahlarının yayılmaması rejimi çərçivəsində nəzarətə düşən malın (eləcə də işin, xidmətin, əqli fəaliyyətin nəticələrinin) *son istifadəçisinin, aralıq tərəflərin və texnologiya səviyyəsinin* yoxlanılması;
5. ixrac nəzarəti haqqında qanunvericiliyə, habelə ixrac nəzarəti siyasətinin aparılmasına dair *məlumatların açıqlığının* təmin olunması.

İxrac nəzarəti üzrə milli qanunvericilik (i) ixrac nəzarətinə düşən malların - (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) (İNDM) *ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti* və xarici iqtisadi fəaliyyətin *digər əməliyyatlarına tətbiq edilir*. İxrac nəzarəti həmçinin hüquqi və fiziki şəxslər tərəfindən aparılan əməliyyatlar və ya bağlanmış müqavilələrin hərbi baxımdan həssas olan malların yayılmasına imkan yaratdığı və dövlətin milli təhlükəsizliyinə və maraqlarına zərər gətirdiyi hallarda tətbiq edilir.

*Ölkəmizin ixrac nəzarəti sistemi* - ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti əməliyyatlarının aparılması qaydalarını müəyyən edir.

Azərbaycan Respublikasının *ixrac nəzarəti sistemini* aşağıdakı elementlər ilə xarakterizə etmək olar:

1. İxrac nəzarəti üzrə *qanunvericilik* aktları;
2. Nəzarət olunan *malların əhatə dairəsinin (İNDM siyahısının)* müəyyən edilməsi;
3. İNDM-in ayrı-ayrı dövlətlərə *ixrac rejimlərinin (ixrac gömrük prosedurlarının) müəyyən edilməsi və belə rejimlərə (gömrük prosedurlarına) riayət edilməsinə nəzarət*;
4. İNDM-in ixracının, idxalının, təkrar ixracının, təkrar idxalının, tranzitinin *xüsusi icazə* əsasında həyata keçirilməsi;
5. *Xüsusi icazə verilməsindən əvvəl və sonra İNDM üzrə xarici iqtisadi əməliyyatların aparılmasına nəzarət, o cümlədən ikili təyinatlı malların sifariş (bəyan) edilmiş məqsədlər üçün istifadəsinə nəzarət*;
6. *İstehsalçı hüquqi şəxslərin daxili ixrac nəzarəti;*
7. *Sərhəd və gömrük nəzarəti*;
8. *Daxili əməkdaşlığın təmin olunması və fəaliyyətlərin əlaqələndirilməsi* (ixrac nəzarəti üzrə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi);
9. *Beynəlxalq əməkdaşlığın yaradılması* (beynəlxalq təşkilatlarla və xarici dövlətlərin ixrac nəzarəti orqanları ilə məlumat mübadiləsinin və digər qarşılıqlı əlaqələrin yaradılması);
10. *İctimai məlumatlılığın təmin olunması* (ixrac nəzarəti sisteminin fəaliyyətinə dair ictimaiyyətə ümumi və spesifik məlumatın verilməsi);
11. İxrac nəzarəti sisteminin fəaliyyəti barədə *ictimai rəyin öyrənilməsi*.

Ölkədə SMTN-nin təmin olunmasının birinci addımı müvafiq sahə üzrə fəaliyyəti tənzimləyən əsas qanunvericilik aktlarının 2004-cü ildən formalaşdırılması ilə başlamışdır. Hazırda *milli ixrac nəzarəti aşağıdakı əsas qanunvericilik aktları ilə tənzimlənir*:

- İxrac nəzarəti haqqında Azərbaycan Respublikasının Qanunu (№772-IIQ, 26.10.2004);
- "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (№167, 29.12.2004);
- "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli, 167 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarları əsasında təsdiq edilmiş aşağıdakı normativ xarakterli aktlar:
    - İxrac nəzarətinin aparılması Qaydaları (№230, 15.12.2005);
    - "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin qanunvericiliklə müəyyən edilmiş siyahısındakı malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) kateqoriyaları və bölmələri üzrə xüsusi icazə verən, ixrac nəzarətini, xüsusi icazə verilməsindən əvvəl və sonra yoxlamaları, ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarəti həyata keçirən icra hakimiyyəti orqanlarının Siyahısı" (№230, 15.12.2005);
    - İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ayrı-ayrı dövlətlərə ixrac gömrük prosedurları (№230, 15.12.2005);
    - "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazənin verilməsi Qaydaları" (№230, 15.12.2005);
    - "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazənin verilməsindən əvvəl və sonra yoxlamaların aparılması Qaydası" (№230, 15.12.2005);
    - "İkili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin həyata keçirilməsi Qaydası" (№230, 15.12.2005);
    - "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı (№42, 09.02.2006).
- İxrac Nəzarəti üzrə Komissiyanın və idarələrarası ekspertlər qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (№1839, 19.12.2006);
- Gömrük Məcəlləsi (24.06.2011);
- "Lisenziyalar və icazələr haqqında" Qanun (№176-VQ, 15.03.2016).

İNDM-lərin ayrı-ayrı dövlətlərə ixrac gömrük prosedurlarına uyğun olaraq, ayrı-ayrı ölkələrlə ixrac nəzarətinə düşən mallar üzrə xarici iqtisadi əməliyyatlar dövlətin milli təhlükəsizliyinin, siyasi, hərbi və iqtisadi maraqlarının təmin edilməsi, Azərbaycan Respublikasının tərəfdar çıxdığı kütləvi qırğın və başqa növ silahların yayılmaması barədə dövlətlərarası beynəlxalq müqavilələr üzrə öhdəliklərə riayət edilməsi şərtilə həyata keçirilə bilər.

İxrac nəzarəti rejimini pozan hər hansı bir ölkə ilə ixrac nəzarətinə düşən mallar üzrə bağlanmış müqavilə üzrə xarici iqtisadi əməliyyatların həyata keçirilməsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun müvəqqəti və ya tam dayandırıla bilər.

*İNDM-lərin qadağa və məhdudiyyət qoyulmuş dövlətlərə, son istifadəçilərə ixracına, eləcə də bu məqsədlə Azərbaycan Respublikasının ərazisindən tranzit ərazi kimi istifadə edilməsinə yol verilmir*. Ölkə ərazisindən tranzit ərazisi kimi istifadə etməklə, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə toxunan ölkələrin ərazilərinə, habelə əks istiqamətdə malların keçirilməsinə *yol verilmir*.

Həmçinin İNDM-lərin ayrı-ayrı dövlətlərə ixrac gömrük prosedurlarına əsasən, hər hansı bir dövlətlə KQS-lərin yaradılmasında, daşınmasında istifadə edilə bilən mallar üzrə xarici iqtisadi əməliyyatların aparılmasına yol verilmir[v]. Atom enerjisindən yalnız dinc məqsədlər üçün istifadə edilməsi nəzərdə tutulan ixrac nəzarətinə düşən mallar üzrə xarici iqtisadi əməliyyatlar Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilə bilər[vi]. Kimyəvi maddələrin tərkibində olan qarışıqların xüsusi çəkisindən asılı olaraq, həmin maddələrlə bağlı xarici iqtisadi əməliyyatların aparılmasına nəzarət edilir.[vii] Bioloji və toksin silahların hazırlanmasında, istehsalında istifadə edilməsi ehtimalı ola bilən ikili təyinatlı mallar üzrə xarici iqtisadi əməliyyatların aparılması həmin malların təyinatına zəmanət və nəzarət olduğu təqdirdə həyata keçirilə bilər[viii].

Milli qanunvericiliyə əsasən, İNDM-lərin ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, tranziti müvafiq dövlət orqanları tərəfindən mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, hüquqi şəxslər və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə *(bundan sonra - sifarişçilər)* xüsusi icazənin verilməsi əsasında onlar tərəfindən icazədə göstərilən əməliyyatlar həyata keçirilə bilər [2].

*Xüsusi icazənin sahibi* verilən xüsusi icazədən (xüsusi icazənin surətindən) yalnız özü istifadə edə bilər, onu başqa şəxslərə verə bilməz və bu xüsusi icazənin qüvvəsi xüsusi icazə sahibinin təsisçisi olduğu hüquqi şəxslərə, xüsusi icazənin sahibi ilə birgə fəaliyyət, o cümlədən onunla əməkdaşlıq barədə bağlanmış müqavilə əsasında fəaliyyət göstərən başqa şəxslərə şamil edilmir.

Xüsusi icazə almaq üçün sifarişçilər İNDM-lərin kateqoriyaları və bölmələri üzrə xarici iqtisadi əməliyyatların növlərindən asılı olaraq, müvafiq dövlət orqanlarına (i) xüsusi icazə almaq üçün ərizə (sifariş), (ii) malların kateqoriyalarından asılı olaraq, ərizəyə (sifarişə) əlavə olunması nəzərdə tutulan sənədlər və (iii) sifarişçilərin (ərizəçilərin) vergi orqanları tərəfindən uçota alınması haqqında şəhadətnamənin surətini təqdim etməlidirlər.

*Xüsusi icazə verilməsindən imtina aşağıdakı hallarda ola bilər:*

- dövlətin milli təhlükəsizliyinə, siyasi, hərbi və iqtisadi maraqlarına zərər gətirə bildiyi halda;
- riskli ölkələr, şəxslər və mallarla əlaqənin (və ya belə ehtimalın) olması hallarında:
  - ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələr üzrə öhdəliklərə riayət olunmaması ehtimalı olduqda;
  - İNDM-in ixracına qadağa və ya məhdudiyyət qoyulmuş dövlətlər və son istifadəçilər olduqda;
  - təyinat ölkəsi Azərbaycan Respublikasının qarşısında öz öhdəliklərini yerinə yetirmədikdə;
  - ölkə ərazisindən tranzit ərazisi kimi istifadə etməklə dövlətin milli təhlükəsizliyinə toxunan ölkələrin ərazilərinə, habelə əks istiqamətdə malların keçirilməsi ehtimalı olduqda;
  - ixrac olunan malların KQS-lərin yaradılmasında istifadə edilməsi ehtimalı və yaxud

təyinat ölkəsinin həmin silahların yaradılmasında və istehsalında marağı olduğu halda;

- sövdələşmələrdə iştirak edən vasitəçilər tərəfindən ixrac nəzarəti haqqında qanunvericiliyin tələblərinə riayət edilməməsi ehtimalı olduqda və yaxud onların hüquq pozuntuları etmiş şəxslərlə və ya terrorçu təşkilatlarla əlaqə ehtimalı olduqda;
- ərizəçi (sifarişçi) tərəfindən doğru olmayan məlumatlar təqdim edildiyi aşkar olunduqda;
- sövdələşmələrdə digər faktlar aşkar edildikdə.

Xüsusi icazə müvafiq dövlət orqanları tərəfindən rəsmiləşdirilir. Nazirlər Kabineti tərəfindən verilən xüsusi icazə aidiyyəti dövlət orqanlarının rəyləri və vəsatəti əsasında Nazirlər Kabinetinin reqlamentinə uyğun olaraq rəsmiləşdirilir. Ölkə ərazisindən müvafiq malların tranziti üzrə xüsusi icazə xarici ölkələrin diplomatik missiyalarının rəsmi müraciəti ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin vəsatəti və aidiyyəti dövlət orqanlarının rəyləri əsasında verilir. Rəsmiləşdirilmiş xüsusi icazənin surəti ixrac nəzarəti haqqında qanunvericiliyə uyğun olaraq nəzarətin aparılması üçün müvafiq dövlət orqanlarına göndərilir.

Xüsusi icazənin müddəti müvafiq xarici iqtisadi əməliyyatın həyata keçirilmə müddəti ilə müəyyən edilir (1 ildən artıq olmamaq şərtilə). Müqabil tərəflə bağlanmış müqavilələrin mərhələlərlə yerinə yetirilməsi nəzərdə tutulduqda xüsusi icazədə həmin mərhələlərin yerinə yetirilməsi müddətləri göstərilir. Xüsusi icazənin qüvvədə olma müddətinin uzadılması onun verilməsi üçün müəyyən edilmiş qaydada həyata keçirilir.

*Xüsusi icazə verən dövlət orqanları xüsusi icazənin fəaliyyətini aşağıdakı 4 halda dayandırma səlahiyyətinə malikdir:*

- sifarişçi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- müvafiq dövlət orqanları tərəfindən xüsusi icazə sahibinin fəaliyyəti dayandırıldıqda;
- xüsusi icazə sahibinin müflisləşməsi faktı təsdiq olunduqda;
- xarici iqtisadi əməliyyat növünün həyata keçirilməsi üçün tələb olunan şərtlərin pozulduğu aşkar edildikdə.

Xüsusi icazənin fəaliyyəti dayandırıldıqda, xüsusi icazəni verən dövlət orqanı bu barədə bir gün müddətində xüsusi icazə sahibinə yazılı surətdə bildiriş göndərir və ixrac nəzarətini aparan müvafiq dövlət orqanlarını məlumatlandırır. Xüsusi icazənin dayandırılmasına səbəb olan hallar dəyişildikdə, xüsusi icazə sahibinin müraciətinə əsasən xüsusi icazə həmin icazəni verən dövlət orqanı tərəfindən bərpa edilə bilər və müvafiq dövlət orqanlarına xüsusi icazənin fəaliyyətinin bərpası barədə məlumat verilir.

*Xüsusi icazəni verən dövlət orqanları tərəfindən xüsusi icazə aşağıdakı hallarda ləğv edilir:*

- sifarişçi tərəfindən müvafiq ərizə təqdim edildikdə;
- xüsusi icazənin verilməsi üçün təqdim edilən sənədlərdə düzgün olmayan məlumatlar və xüsusi icazənin verilməsinə imtina üçün əsas olan yeni faktlar aşkar edildikdə;
- sifarişçi ixrac nəzarəti haqqında milli qanunvericiliyi pozduqda;
- məhkəmənin qərarı olduqda;
- verilmiş xüsusi icazə itirildikdə;
- hüquqi şəxs ləğv edildikdə və fərdi sahibkara verilən şəhadətnamə qüvvədən düşdükdə.

Xüsusi icazəni verən dövlət orqanı xüsusi icazənin ləğv edilməsi haqqında qərar qəbul etdiyi andan bir gün müddətində yazılı şəkildə xüsusi icazənin sahibinə məlumat göndərməklə xüsusi icazəni geri alır. Müvafiq dövlət orqanı verdiyi, qeydə aldığı, fəaliyyətini dayandırdığı, bərpa etdiyi və ləğv etdiyi xüsusi icazələrin reyestrini aparır.

İNDM üzrə xarici iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazə verilməzdən əvvəl və sonra müvafiq dövlət orqanları tərəfindən yoxlamalar aparılır.

İxrac nəzarəti qanunvericiliyinə uyğun olaraq, müvafiq yoxlama prosesi ümumiləşmiş şəkildə (i) xüsusi icazənin alınması üçün təqdim olunmuş sənədlərin və həmin sənədlərdə göstərilən məlumatların düzgünlüyünün, (ii) ərizəçinin (sifarişçinin) həqiqiliyinin, (iii) onun fəaliyyət növünün uyğunluğunun, (iv) xüsusi icazədə göstərilən şərtlərə riayət edilməsinin və (v) xarici iqtisadi əməliyyatların təyinatı üzrə həyata keçirilməsinin yoxlanmasından ibarətdir.

*Xüsusi icazənin verilməsindən əvvəl yoxlamaların aparılması qaydası* aşağıdakı kimidir. Xüsusi

icazə verən dövlət orqanı ona təqdim olunmuş sənədlərdə (i) məlumatların və texniki göstəricilərin düzgünlüyünü yoxlayır, (ii) xarici iqtisadi əlaqələrin həyata keçirilməsi üçün nəzərdə tutulmuş malların ixrac nəzarətinə düşən malların siyahısı ilə uyğunluğunu müəyyən edir. [xi]

Müqabil tərəflə bağlanmış müqavilədə göstərilən malların ixrac nəzarətinə düşən malların siyahısına uyğunluğu müəyyən edildikdən sonra *xüsusi icazəni verən dövlət orqanı aşağıdakıları yoxlayır:*

- müqavilənin ərizədə (sifarişdə) göstərilən malların son istifadəsinə uyğunluğunu;
- müqavilənin ərizədə (sifarişdə) göstərilən malların son istifadəçisinə uyğunluğunu;
- əvvəl verilmiş xüsusi icazələrin və yaxud imtinaların olub-olmamasını;
- ərizəçinin (sifarişçinin) və müqabil tərəfin ixrac nəzarəti qanunvericiliyini pozduqlarına görə məsuliyyətə cəlb olunanların siyahısında və yaxud ixrac nəzarəti qanunvericiliyini pozan şəxslərin siyahısında olub-olmamasını;
- müqabil tərəf ölkəsinin KQS-lərin yayılmaması, nüvə sınaqlarının hərtərəfli qadağan edilməsi, kimyəvi və bioloji silahlar barədə konvensiyalara, beynəlxalq müqavilələrə qoşulub-qoşulmamasını, ixrac nəzarətinə düşən mallar üzrə hər hansı bir beynəlxalq ixrac gömrük prosedurunun iştirakçısı olub-olmamasını;

müqabil tərəf ölkəsinə BMT-nin Təhlükəsizlik Şurasının qərarı ilə embarqonun və yaxud müəyyən məhdudiyyətlərin qoyulub-qoyulmamasını;

müqabil tərəf ölkəsində Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin nəzarəti altında nüvə, radioaktiv mənbələri və materialları istehsal edən müəssisələrin olub-olmamasını (göstərilən müəssisələr barədə məlumat tələb olunduqda);

ölkə ərazisindən tranzit ərazi kimi istifadə etməklə, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə toxunan ölkələrin ərazilərinə, habelə əks istiqamətdə malların keçirilməsi ehtimalının olub-olmamasını.

Xüsusi icazənin verilməsindən əvvəl müvafiq məlumatların yoxlanılması nəticəsində xüsusi icazə verilə və ya belə icazənin verilməsindən imtina oluna bilər.

Yoxlamanın aparılması üçün xüsusi icazə sahibi müvafiq dövlət orqanlarının nümayəndələrini obyektlərə buraxmağa, zəruri normal şərait yaratmağa və tələb olunan sənədləri onlara təqdim etməyə borcludur. Yoxlama zamanı ortaya çıxan suallara dair xüsusi icazə sahibindən əlavə məlumatlar, arayışlar alına bilər. Yoxlamanın nəticələrinə dair pozuntuları və onların aradan qaldırılması müddəti göstərilməklə akt tərtib edilir, bir nüsxəsi xüsusi icazə sahibinə verilir və ona xəbərdarlıq edilir.

Yoxlamaların aparılması zamanı müvafiq dövlət orqanları tərəfindən aşkar edilmiş pozuntulara görə qanunvericiliyə uyğun olaraq xüsusi icazənin qüvvədə olması dayandırıla və ya ləğv edilə bilər, ixrac nəzarəti haqqında qanunvericiliyi pozan məsul şəxslərin məsuliyyətə cəlb olunması barədə vəsatət qaldırıla bilər.

Həmçinin ixrac nəzarəti haqqında qanunvericiliyə uyğun olaraq *ikili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarətin aparılması* (i) həmin malların kütləvi qırğın silahları və onların çatdırılma vasitələrinin, digər silah növlərinin, hərbi texnikanın yaradılmasında və hazırlanmasında istifadə edilməsinin qarşısının alınmasından, (ii) mülki məqsədlər üçün istifadəsinin təmin edilməsinə nəzarətdən və (iii) bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsindən ibarətdir.

*İkili təyinatlı malların sifariş edilmiş məqsədlər üçün istifadə olunmasına nəzarət aşağıdakı qaydada həyata keçirilir:*

- ixrac nəzarətinə düşən ikili təyinatlı mallar üzrə xüsusi icazə vermiş müvafiq dövlət orqanı tərəfindən (i) son istifadə, (ii) son istifadəçi, (iii) tətbiq edilən texnologiyanın sifariş edilmiş məqsədlərə uyğunluğu yoxlanılır, (iv) istehsalat bazası barədə texniki məlumat alınır;
- kimyəvi maddələrin istehsalı, nüvə texnologiyası, radioaktiv maddələrin istifadəsi ilə bağlı aparılan elmi tədqiqat işlərinin sifariş edilmiş məqsədlərə uyğunluğu yoxlanılır;
- mikroorqanizmlər, insan həyatı və heyvanlar aləmi üçün təhlükəli olan patogenlər və toksinlər, prekursorlar və digər bioloji maddələrlə bağlı fəaliyyət, o cümlədən elmi tədqiqat

işlərinin aparılması üçün istifadə olunacaq avadanlıq, texnologiyanın bioloji materiallarla işlər üçün yararlılığı və bioloji mühafizənin təmin edilməsi yoxlanılır.

Azərbaycanın 16 dövlət orqanı və qurumu (i) ixrac nəzarətini və yoxlamalarını həyata keçirmə, (ii) xüsusi icazə vermə və (iii) rəy vermə səlahiyyətlərinə malikdir [2].

**Cədvəl 4. Dövlət orqanları və qurumlarının ixrac nəzarəti üzrə səlahiyyətləri**

| # | Dövlət orqanları və qurumları | İxrac nəzarəti üzrə səlahiyyətlər | | |
|---|---|---|---|---|
| | | Nəzarət və yoxlama | Xüsusi icazə vermə | Rəy vermə |
| 1 | Nazirlər Kabineti | | ● | |
| 2 | Energetika Nazirliyi | ● | ● | ● |
| 3 | Fövqəladə Hallar Nazirliyi | ● | ● | ● |
| 4 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | ● | ● | ● |
| 5 | Müdafiə Sənayesi Nazirliyi | ● | ● | ● |
| 6 | Səhiyyə Nazirliyi | ● | ● | ● |
| 7 | Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti | ● | ● | ● |
| 8 | Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi | ● | ● | |
| 9 | Prezidentin Təhlükəsizlik Xidməti | ● | ● | |
| 10 | Əqli Mülkiyyət Agentliyi | ● | ● | |
| 11 | Kənd Təsərrüfatı Nazirliyi | ● | ● | |
| 12 | Dövlət Təhlükəsizliyi Xidməti | ● | | ● |
| 13 | Müdafiə Nazirliyi | ● | | ● |
| 14 | Dövlət Sərhəd Xidməti | ● | | |
| 15 | Daxili İşlər Nazirliyi | ● | | |
| 16 | Milli Elmlər Akademiyası | | | ● |

Ölkədə ixrac nəzarətinin təmin olunması məqsədilə dövlət siyasətini həyata keçirən, müvafiq dövlət orqanlarının fəaliyyətini əlaqələndirən (müvafiq Komissiyaya sədrlik və katiblik funksiyalarını həyata keçirir) və aidiyyəti üzrə xüsusi icazələr verən əsas səlahiyyətli orqan Nazirlər Kabinetidir. İxrac nəzarəti üzrə Komissiyanın tərkibinə daxil olan orqanlar və qurumlar (Xarici İşlər Nazirliyi istisna olmaqla) eyni zamanda müvafiq sahə üzrə nəzarət və yoxlama, xüsusi icazə və rəy vermə funksiyalarına malikdir.

*İxrac nəzarəti sahəsində dövlət siyasətinin həyata keçirilməsini və müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsini* təmin etmək məqsədilə 2006-cı ildə yaradılmış *İxrac nəzarəti üzrə Komissiyanın* [5] tərkibi ona rəhbərlik edən Sədrdən, 14 dövlət orqanı və qurumunu təmsil edən 14 yüksək vəzifəli şəxs olan üzvdən və katiblikdən ibarətdir. Komissiyaya Azərbaycan Respublikası Baş nazirinin birinci müavini sədrlik edir. Komissiyanın katiblik funksiyasını Komissiyanın üzvü olan Azərbaycan Respublikasının Nazirlər Kabineti Aparatının xarici iqtisadi əlaqələr şöbəsinin müdiri icra edir.

**İxrac nəzarəti qanunvericiliyinin pozulmasına görə məsuliyyət tədbirləri.** İxrac nəzarəti tələblərinə riayət olunmasını təmin etmək məqsədilə müvafiq qanunvericiliyi pozan Azərbaycan Respublikasının, habelə xarici ölkələrin hüquqi və fiziki şəxsləri milli qanunvericiliyə uyğun olaraq *inzibati və cinayət məsuliyyətinə* cəlb olunurlar [1].

*İnzibati məsuliyyət tədbirləri* ixrac nəzarətini həyata keçirən orqanların fəaliyyətinə mane olma hallarına münasibətdə tətbiq olunur:

- ixrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xarici

iqtisadi əlaqələrin həyata keçirilməsinə xüsusi icazə verilməsindən əvvəl və ya sonra yoxlamaların keçirilməsinə maneçilik törədilməsinə, yaxud yoxlayıcıların yoxlama yerinə buraxılmamasına (İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla) görə - fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə cərimə edilir (İnzibati Xətalar Məcəlləsinin 551.1-ci maddəsi);

■ ixrac nəzarəti məsələlərinə aid sənəd və məlumatların ixrac nəzarətini həyata keçirmək səlahiyyətinə malik olan orqanlara verilməməsinə (İnzibati Xətalar Məcəlləsinin 602.4-cü maddəsində nəzərdə tutulmuş hallar istisna olunmaqla) görə - fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz əlli manatdan beş yüz manatadək məbləğdə cərimə edilir (İnzibati Xətalar Məcəlləsinin 551.2-ci maddəsi).

*Cinayət məsuliyyəti tədbirləri* ixrac nəzarətinə aid sənəd və məlumatları yayma, ikili təyinatlı mallardan istifadə qaydalarını pozma, ixrac rejimini pozma halları üçün nəzərdə tutulmuşdur:

■ hüquqi və fiziki şəxslərdən alınmış ixrac nəzarətinə aid sənəd və məlumatların və ya onların məzmununun açıqlanması və ya üçüncü şəxslərə verilməsi - min beş yüz manatdan iki min beş yüz manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması ilə cəzalandırılır (Cinayət Məcəlləsinin 202-1.1-ci maddəsi);

■ eyni əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə - cinayət nəticəsində vurulmuş ziyanın iki misli miqdarında cərimə və ya iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır (Cinayət Məcəlləsinin 202-1.2-ci maddəsi);

■ KQS-lərin, silahların, hərbi texnikanın və sursatların yaradılmasında və hazırlanmasında istifadə oluna bilən ikili təyinatlı mallardan (işlərdən, xidmətlərdən, əqli fəaliyyətin nəticələrindən) sifariş edilmiş məqsədlər üçün istifadə olunmaması dövlətin milli təhlükəsizliyi və maraqlarına zərər vurduqda - üç ildən altı ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır (Cinayət Məcəlləsinin 224-1-ci maddəsi);

■ ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin), bu malların ixracına qadağan və ya məhdudiyyət qoyulmuş dövlətlərə və son istifadəçilərə ixrac olunması - bir ildən iki ilədək müddətə islah işləri və ya iki ildən beş ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır (Cinayət Məcəlləsinin 224-2-ci maddəsi).

*Azərbaycanın ixrac nəzarəti sistemini şərti olaraq aşağıdakı 5 blokda təsnifləşdirmək olar.*

*Birinci blok* – ali qanunverici və onun icrasına nəzarət orqanları, eləcə də milli ixrac nəzarəti siyasətini həyata keçirən və əlaqələndirən orqanlarından ibarətdir. Onların sırasına Milli Məclis, Nazirlər Kabineti, İxrac nəzarəti üzrə Komissiya, nazirliklər və idarələr daxildir. Bu blok KQS-lərin yayılmaması və ixrac nəzarəti sahəsində ölkənin daxili və xarici siyasətini müəyyən edir, ixrac nəzarəti sahəsində qanunverici və normativ bazanı hazırlayır və onların icrasına nəzarət edir, eləcə də nəzarət olunan mal və texnologiyaların xarici şəxslərə ötürülməsi qaydalarını müəyyən edir.

*İkinci blok* – nazirliklər və idarələr, dövlət şirkətlərindən ibarətdir. Onlar nəzarət olunan məhsullarla xarici iqtisadi əməliyyatları həyata keçirən sənayenin müəyyən sahələrinin, dövlət müəssisə və təşkilatlarının maraqlarını təmsil edir və ixrac nəzarəti sistemində fəal rol oynayırlar. Nəzarət olunan müxtəlif təyinatlı mal və texnologiyaları hazırlayan və istehsal edən sənaye sahələrinin mütəxəssisləri qismində onların rəyi müvafiq mal və texnologiyaların xarici şəxslərə ötürülməsinin mümkün nəticələrinin qiymətləndirilməsi baxımından əhəmiyyətlidir. Bu səbəbdən də nazirliklər və idarələr nəzarət siyahılarının formalaşdırılmasında, xüsusilə də milli təhlükəsizlik əhəmiyyətli məsələlərdə nəzarətə fəal cəlb olunurlar.

*Üçüncü blok* – hüquq mühafizə orqanları və milli təhlükəsizliyi təmin edən orqanlardan ibarətdir. İxrac nəzarəti sistemində onların funksiyaları effektiv ixrac nəzarətinin həyata keçirilməsi üçün zəruri olan informasiyanın əldə olunması, ixrac nəzarəti sahəsində qanunvericiliyin və müəyyən olunmuş norma və qaydaların icrasına nəzarət edilməsi, cinayətlərin və hüquq pozuntularının qarşısının alınması və araşdırılmasının təmin

olunmasından ibarətdir.

*Dördüncü blok* – xarici iqtisadi fəaliyyət iştirakçılarından ibarətdir. Buraya nəzarət olunan məhsullarla xarici iqtisadi fəaliyyəti həyata keçirən müxtəlif mülkiyyət formalı müəssisələr, şirkətlər və firmalar, eləcə də fiziki şəxslər daxildir. Onlar eyniləşdirmə ekspertizasının həyata keçirilməsini təşkil edir, son istifadəçi haqqında informasiyanı toplayır və emal edir, diqqətin yayındırılması və keçid risklərini təhlil edir, "hərtərəfli nəzarət" çərçivəsində ixrac icazəsinin əldə edilməsinə müraciət olunmasının zəruriliyi barədə qərar qəbul edir, firmadaxili ixrac nəzarəti proqramlarını reallaşdırır və ixrac nəzarəti sferasında fəaliyyət göstərən əməkdaşlarına təlimlər təşkil edir.

*Beşinci blok* – ekspert, konsaltinq və təlim təşkilatlarından ibarətdir. Bu təşkilatların əsas vəzifəsi – mütəxəssislərə təlim keçməkdən eyniləşdirmə ekspertizasının aparılmasınadək ixrac nəzarəti sisteminin işinin gündəlik təmin olunmasıdır.

*Azərbaycan Respublikasının ixrac nəzarəti sisteminin strukturu aşağıdakı diaqramda əyani təsvir olunmuşdur.*

**Diaqram 2. Azərbaycan Respublikasında ixrac nəzarəti sisteminin strukturu**




*Qeyd: İN – ixrac nəzarəti; İNDM – ixrac nəzarətinə düşən mallar, XİF – xarici iqtisadi fəaliyyət.*

## AZƏRBAYCANDA İXRAC NƏZARƏTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

İxrac nəzarəti üzrə milli qanunvericiliyin beynəlxalq standartlar və təcrübə ilə müqayisəli təhlili əsasında müvafiq sahədə potensial olaraq təkmilləşdirilə bilən aşağıdakı məsələlər müəyyən olunmuşdur:

- İxrac nəzarəti üzrə mövcud qanunverici çərçivə mövcud olsa da, ikili təyinatlı malların KQS-lərin yayılması və yayılmasının maliyyələşdirilməsi aspektindən yoxlanılmasına dair aidiyyəti qurumlar arasında institutlaşmış qaydada əməkdaşlıq və məlumat mübadiləsi mexanizmi qənaətbəxş deyildir;
- 2006-cı ildə yaradılmış İxrac nəzarəti üzrə Komissiyanın tərkibinin yenilənməsinə, eləcə də ixrac nəzarəti sahəsində müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədilə idarələrarası ekspertlər qrupu və onun fəaliyyətini tənzimləyən normativ hüquqi əsaslar formalaşdırılmasına zərurətin olması;

■ Milli qanunvericilikdə ixrac nəzarəti sistemində istehsalçı hüquqi şəxslərə münasibətdə daxili ixrac nəzarəti üzrə tələblər müəyyən olunsa da, onun praktikada tətbiqi üzrə nümunəvi metodiki forması müəyyən olunmamışdır;

■ İxrac nəzarəti üzrə qanunvericilikdə istifadə olunan anlayışların (məsələn ixrac rejimi anlayışı, ixrac, təkrar ixrac, idxal, təkrar idxal və tranzitə bölgü və s.) digər sahəvi qanunvericilik aktlarında öz əksini ya tapmaması, yaxud da fərqli qaydada və ya ardıcıllıqda əks olunması;

■ İxrac nəzarətinin təmin olunması üzrə effektiv daxili və xarici əməkdaşlıq imkanlarından kifayət qədər istifadə olunmaması;

■ Azərbaycanın ixrac nəzarəti üzrə müəyyən olunmuş malların siyahısının Avropa Komissiyası tərəfindən müəyyən olunmuş strateji malların siyahısı ilə uyğunsuz olması;

■ Qüvvədə olan milli qanunvericilikdə ixracının qadağan olunması barədə qərar qəbul olunduğu halda ikili təyinatlı mal tədarükçüləri üçün hər hansı kompensasiya ödənişləri mexanizminin nəzərdə tutulmaması.

Sözügedən məsələlər üzrə təkmilləşdirmələrin təmin olunması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

■ İxrac nəzarətini həyata keçirən dövlət orqanlarının sahəvi qanunvericilik aktlarının müvafiq sahəyə uyğunlaşdırılaraq təkmilləşdirilməsi;

■ İxrac nəzarətini həyata keçirən aidiyyəti qurumlar arasında institutlaşmış əməkdaşlıq mexanizminin, o cümlədən mərkəzləşmiş operativ məlumat sisteminin qurulması və məlumat mübadiləsinin genişləndirilməsi;

■ İxrac nəzarəti sahəsində müvafiq dövlət orqanlarının fəaliyyətinin effektiv əlaqələndirilməsini təmin etmək məqsədilə İxrac nəzarəti üzrə Komissiyanın tərkibinin və fəaliyyətinin yenilənməsi, idarələrarası ekspertlər qrupunun və onun fəaliyyətini tənzimləyən normativ hüquqi əsasların yaradılması;

■ Sanksiyalarla yanaşı, milli təhlükəsizlik maraqlarına zidd olan ixrac sövdələşmələrini aşkar etmək və qarşısını almaq məqsədilə dövlət orqanları və qurumları tərəfindən preventiv xarakterli tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur. Bu məqsədlə kəşfiyyat xidmətləri və gömrük orqanları, eləcə də çoxtərəfli ixrac nəzarəti rejimləri üzrə Azərbaycanın partnyoru olan ölkələrlə informasiyanın qarşılıqlı mübadiləsi mexanizmindən istifadə oluna bilər;

■ İxrac nəzarəti sahəsində ən yaxşı beynəlxalq təcrübələrin öyrənilməsi əsasında ölkədə ixrac nəzarəti sisteminin təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi;

■ Azərbaycanın ixrac nəzarəti üzrə müəyyən olunmuş malların siyahısının beynəlxalq standartlara uyğunlaşdırılması;

■ Strateji malların ölkədaxili istehsal məlumatlarını onların ticarətinə dair məlumatlarla tutuşdurmaqla ölkəmizin strateji malların, o cümlədən ikili təyinatlı malların beynəlxalq tədarükündə tranzit ölkə olaraq çıxış etməsi riskinin qarşısının alınması üzrə tədbirlərin həyata keçirilməsi;

■ Azərbaycanın təkrar ixrac və tranzit üzrə ixrac nəzarəti risklərinin effektiv idarə olunması sisteminin yaradılması;

■ İxrac nəzarəti sistemində istehsalçı hüquqi şəxslər üçün müəyyən olunmuş daxili ixrac nəzarətinin təmin olunması məqsədilə nümunəvi metodoloji rəhbərlik formasının hazırlanması;

■ Milli qanunvericilikdə ikili təyinatlı mal tədarükçüləri üçün müəyyən olunmuş hallarda hər hansı kompensasiya ödənişi mexanizminin nəzərdən keçirilməsi (və ya xarici ticarət müqavilələrinə hüquqi fors-major müddəasının əlavə olunması).

## NƏTİCƏ

Qlobal münaqişələrin yeni səviyyəyə keçdiyi hazırkı şəraitdə müvafiq sahədə beynəlxalq standartlar dünyanın bütün ölkələrində strateji mallarla ticarətə effektiv nəzarət mexanizminin qurulmasını və tətbiqini, eləcə də bu standartlara daha yüksək uyğunluq səviyyələrini tələb edir. Beynəlxalq qiymətləndirmələrə əsasən, strateji mallarla ticarətə nəzarət sisteminə malik olma və çoxtərəfli ixrac nəzarəti rejimlərinin tərəfi olma ölkələrin beynəlxalq ticarətinə (ixrac axınına) müsbət təsir edir. Qeyd olunan tələbləri və ölkəmizdə ixrac nəzarəti üzrə mümkün zəifliklərin aradan qaldırılması çağırışlarını nəzərə alaraq preventiv tədbirlərin həyata keçirilməsi ilə ölkəmizdə strateji mallarla ticarətə effektiv nəzarət mexanizminin qurulması məqsədəuyğundur.

## ƏDƏBİYYAT

1. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanunu (№772-IIQ, 26.10.2004), https://e-qanun.az/framework/5519
2. "İxrac nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ aktların təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı (№230, 15.12.2005), https://e-qanun.az/framework/12490
3. "İxrac nəzarətinə düşən malların nomenklaturuna uyğun kodlar üzrə, habelə işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı (№42, 09.02.2006), https://e-qanun.az/framework/12161
4. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi (24.06.2011), https://www.e-qanun.az/framework/46957
5. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (№1839, 19.12.2006)
6. Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikasının Qanunu (№712-IIQ, 29.06.2004)
7. Sərhəd mühafizə orqanları haqqında Azərbaycan Respublikasının Qanunu (№772, 06.01.1994)
8. BMT-nin Təhlükəsizlik Şurasının 1540 saylı Qətnaməsi (2004), https://disarmament.unoda.org/wmd/sc1540/
9. Quentin Michel, Veronica Vella, Lia Caponetti "Introduction to International Strategic Trade Control Regimes" (2021), https://www.esu.ulg.ac.be/wp-content/uploads/2021/03/ISTCR-2021.pdf
10. World Customs Organization, Strategic Trade Control Enforcement (STCE) programme, https://www.wcoomd.org/en/topics/enforcement-and-compliance/activities-and-programmes/security-programme/stce-project.aspx
11. World Customs Organization, Strategic Trade Control Enforcement (STCE) Implementation Guide (2023), https://www.wcoomd.org/-/media/wco/public/global/pdf/topics/enforcement-and-compliance/tools-and-instruments/stce-implementation-guide/stce-implementation-guide-2023-en.pdf?db=web
12. Guidebook on the Determination of Strategic Goods (2019), https://www.customs.gov.sg/files/businesses/guidebook-on-the-determination-of-strategic-goods-3-oct-2019.pdf
13. Centre for Science & Security Studies, Department of War Studies "Strategic trade controls", https://www.kcl.ac.uk/csss/research/strategic-trade/controls

14. Quentin Michel "EU strategic trade controls and sanctions: are we talking about the same thing?", Journal of Strategic Trade Control, Vol. 1, May 2023, https://popups.uliege.be/2952-7597/index.php?id=68&file=1

**STRUCTURE OF THE STRATEGIC TRADE CONTROL SYSTEM AND WAYS FOR ITS IMPROVEMENT**

Faig JAMALOV

**SUMMARY**

The article systematizes, analyzes and interprets the need and relevance of strategic trade control for goods, the essence, types and classification of strategic goods, determination scheme of strategic goods, the structure of the export control system in the Republic of Azerbaijan, the main legislative acts regulating national export control and the requirements of international conventions in relevant area, the procedure and rules for verifying the issuance of special permits for transactions with these goods, cases of suspension and cancellation of special permits, export control functions of government bodies and institutions, measures of administrative and criminal liability for violation of the law on export control, identifies weaknesses in the relevant field and made proposals to improve the export control system.

***Keywords**: : strategic goods, control of trade in strategic goods, export control system, dual use goods, military goods.*

Məqalə redaksiyaya daxil olub: 17.03.2024
Təkrar işlənməyə göndərilib: 05.04.2024
Çapa qəbul olunub: 03.05.2024

[i] *Avropa İttifaqının Ümumi hərbi təyinatlı mallarının ətraflı siyahısı Avropa İttifaqının rəsmi jurnalında verilmişdir: http://eur-lex.europa.eu/LexUriServ/LexUriServ.do?uri=OJ:C:2013:090:0001:0037:EN:PDF*

[ii] *2019-cu il üzrə məlumata əsasən, Azərbaycan Respublikası kütləvi qırğın silahlarının yayılmaması və ticarətinə nəzarət üzrə aşağıdakı öhdəlikləri öz üzərinə götürmüşdür: (i) BMT-nin Təhlükəsizlik Şurasının 1540 nömrəli Qətnaməsi, (ii) Nüvə silahının yayılmaması üzrə müqavilə (NPT), (iii) Kimyəvi silah üzrə Konvensiya (CWC), (iv) Bioloji silahlar Konvensiyası (BWC), (v) Ballistik Raketlərin Yayılmasına Qarşı Haaqa Davranış Kodeksi (HCoC) və (vı) Kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizənin təhlükəsizliyi üzrə təşəbbüslər (PSI).*

[iii] *Bundan sonra sənəddə müvafiq termin qısa olaraq İNDM (ixrac nəzarətinə düşən mallar) kimi qeyd olunur*

[iv] *Partlayıcı və radioaktiv maddələr, materiallar, cihazlar, kütləvi qırğın silahları və digər silahlar nəzərdə tutulur*

[v] *Azərbaycan Respublikasının müvafiq qanunları ilə qoşulduğu "Nüvə silahlarının yayılmaması haqqında", "Nüvə sınaqlarının hərtərəfli qadağan edilməsi haqqında" müqavilələrin müddəalarına uyğun olaraq*

[vi] *Azərbaycan Respublikasının müvafiq qanunları ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ilə Atom Enerjisi üzrə Beynəlxalq Agentlik arasında Nüvə Silahının Yayılmaması haqqında Müqavilə ilə əlaqədar olaraq təminatların tətbiq edilməsi barədə Sazişin və ona əlavə olunmuş Protokol"un və qoşulduğu Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Nizamnaməsinin müddəalarına uyğun olaraq*

[vii] *Azərbaycan Respublikasının müvafiq qanunu ilə qoşulduğu "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında Konvensiya"nın müddəalarına uyğun olaraq, bu Konvensiyanın iştirakçısı olan dövlətlər və iştirakçısı olmayan dövlətlər üzrə*

[viii] *Azərbaycan Respublikasının müvafiq qanunu ilə qoşulduğu "Bakterioloji (bioloji) və toksin silahlarının hazırlanmasının, istehsalının və ehtiyata yığılmasının qadağan olunması və onların məhv edilməsi haqqında Konvensiya"nın müddəalarına uyğun olaraq, bu Konvensiyanın iştirakçısı olan dövlətlər və iştirakçısı olmayan dövlətlərlə Konvensiyanın tələblərinə uyğun olaraq zəmanət və nəzarət olduğu təqdirdə*

[ix] *Təqdim olunmuş ərizələr aidiyyəti dövlət orqanları tərəfindən qeydiyyata alınmaqla qəbul edilir, baxılır, çatışmazlıqlar və ya imtina üçün əsas olmadıqda, 15 gündən gec olmayaraq xüsusi icazə verilir. Təqdim olunmuş sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, bu barədə sifarişçiyə 5 gündən gec olmayaraq məlumat verilir, həmin çatışmazlıqlar aradan qaldırıldıqdan və sənədlər təkrar təqdim edildikdən sonra sənədlərə 5 gün müddətində yenidən baxılır və müvafiq qərar qəbul edilir. Zəruri hallarda təqdim olunmuş sənədlər ekspert rəyi alınması üçün müvafiq təşkilatlara göndərilir və bu halda ekspert rəyinin alınma müddəti xüsusi icazənin verilmə müddətinə daxil deyildir.*

[x] *Sifarişçilərə xüsusi icazə verilməsindən imtina edildikdə, bu barədə onlara imtinanın səbəbləri göstərilməklə, 10 gün müddətində yazılı məlumat verilir.*

[xi] *Bu uyğunluğu müəyyən etmək üçün təqdim olunmuş texniki göstəricilər və digər məlumatlar kifayət dərəcədə olmadığı hallarda xüsusi icazə verən dövlət orqanı ərizəçidən (sifarişçidən) əlavə məlumatları tələb edə bilər*

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# AZƏRBAYCAN RESPUBLİKASINDA KİÇİK VƏ ORTA BİZNESİN İNKİŞAFINDA İSLAM MALİYYƏ ALƏTLƏRİNDƏN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

№ 1(10)-2024
səh. 47-65

Maşallah SƏFƏROV,
doktorant Bakı Dövlət Universiteti

DOI:10.30546/2790-2196.1.10.2024.007.

masallah.safarov.roman@bsu.edu.az

# Azərbaycan Respublikasında kiçik və orta biznesin inkişafında islam maliyyə alətlərindən istifadənin əhəmiyyəti

Maşallah SƏFƏROV,
doktorant, Bakı Dövlət Universiteti

**XÜLASƏ**

Son illərdə islam maliyyə alətlərindən istifadə Azərbaycanda, xüsusən də kiçik və orta sahibkarlığın (KOS) inkişafının təşviqi kontekstində artan diqqəti cəlb edir. İqtisadiyyatın müxtəlif sahələrinin inklüziv (çoxşaxəli) inkişafında ölkəmizin ixtisaslaşmış qurumlarının öhdəsinə böyük yük düşür. Həmin qurumların səmərəli fəaliyyətinin təşkil edilməsi isə son nəticədə əhalinin rifahına müsbət təsir göstərir. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə KOS-ların sayına və onların iqtisadi inkişafda payına nəzər yetirsək, ölkə təsərrüfatında onların nə dərəcədə önəmli rola malik olduğunu söyləyə bilərik. Bu məqalə Azərbaycanda islam maliyyəsinin tarixi keçmişini, ölkədə KOS-ların təkamülünü və onların inkişafını dəstəkləmək üçün islam maliyyə alətlərindən istifadə perspektivlərini araşdırır.

***Açar sözlər**: Kiçik və orta sahibkarlıq, islam maliyyə alətləri, alternativ, mikromaliyyə, perspektivlər*

***JEL kodu: G00; G20; G29; G59***

## GİRİŞ

Azərbaycanın qeyri-neft sektorunun inkişafı üçün kiçik və orta sahibkarlığın (KOS) dəstəklənməsi böyük əhəmiyyət daşıyır. Bu çərçivədə ənənəvi maliyyə alətlərinin yanında islam maliyyə alətlərinin də tətbiqi mümkündür və bu, həm də islam ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi üçün vacibdir. Qeyd etmək lazımdır ki, KOS-ların maliyyə səlahiyyətləndirilməsində islam bankçılığının fəaliyyəti, əsas etibarilə borc əsaslı (debt-based/equity based) murabaha və icarə alətləri istiqamətində inkişaf etməkdədir.[16 s. 3] İslam maliyyə alətləri barədə tədqiqatımız boyu ətraflı şəkildə danışılacaqdır.

İslam maliyyə alətlərinin KOS-ların inkişafında tətbiqi yeni və aktuallığını qoruyan bir mövzudur. Bu sahədə aparılan tədqiqatlar islam maliyyə alətlərinin digər maliyyə alətləri ilə müqayisədə KOS-lar üçün daha çox faydalı olduğunu göstərir. Məqalədə islam maliyyə alətlərinin Azərbaycanda KOS-ların maliyyələşdirilməsində tətbiq sahələri araşdırılır. Bu sahələrə müxtəlif maliyyə məhsulları və xidmətləri, kreditlər, investisiyalar və digər maliyyə vasitələri daxildir.

Milli iqtisadiyyatların inkişaf strategiyasına nəzərə salsaq, görərik ki, ölkənin makroiqtisadi göstəricilərinə təsir edən ən mühüm ünsürlərdən biri də kiçik və orta sahibkarlıq subyektləridir. Kiçik və orta sahibkarlıq (KOB) iqtisadi inkişafın təşviqində mühüm əhəmiyyət kəsb etməklə biznesin 90%-ni, məşğulluğun 60-70%-ni və dünya ÜDM-nin 50%-ni təşkil edir. [10] İnkişaf etmiş ölkələrdə KOS-ların fəaliyyətinin stimullaşdırılması istiqamətində bir sıra dövlət layihələri icra olunur. O cümlədən vergi güzəştlərinin, azadolmaların, alternativ maliyyələşmənin, mələk maliyyələşməsinin, güzəştli kreditlərin və s. tətbiq edilməsi də KOS-ların səmərəli fəaliyyətinə öz təsirini göstərməklə ölkədə məşğulluğun və istehsalın artırılmasına öz töhfəsini verir. İslam maliyyə resurslarından istifadə ilə bağlı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzdində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə 2022-ci ildə 1000 nəfər sahibkar arasında sorğu keçirilmişdir. Sorğunun yekun hesabatına əsasən, kiçik sahibkarlıq subyektlərindən (rəsmi illik gəlir meyarı əsasında) 207-si, orta sahibkarlıq subyektlərindən isə 42-si sorğuda iştirak emişdir [1 s. 22]. Ölkəmizdə KOS-ların maliyyələşməsində alternativ maliyyə mənbəyi kimi islam maliyyə resurslarından istifadə imkanlarının qiymətləndirilməsi sorğusunun keçirilməsi mövzumuzun aktuallığını, tətbiq dairəsinin genişliyini gözlər önünə sərir.

O cümlədən son zamanlar müxtəlif yerli nəşrlərdə, elmi ədəbiyyatlarda qeyd edilən

sorğunun nəticələrinə yer verilməsi, islam iqtisadi resurslarından istifadə ilə bağlı dərs vəsaitlərinin elmi-kütləviliyinin artması tədqiqat işinin elmi yeniliyindən xəbər verir.

Tədqiqat işimizin metodologiyası kimi statistik məlumatların analizi və müvafiq nümunələrin tədqiqi istifadə olunmuşdur.

## ÖLKƏMİZDƏ İSTİFADƏ OLUNMUŞ BİR NEÇƏ İSLAM MALİYYƏ ALƏTİNƏ QISA BAXIŞ

***Mudarəbə (sərmayə-əmək ortaqlığı)*** - bir tərəfdən kapitalın (sərmayə, maliyyə vəsaiti), digər tərəfdən isə xüsusi əməyin (innovativ fəaliyyət, kəşflər, layihə idarəetməsi, işgüzarlıq fəaliyyəti və s.) iştirakını ehtiva edən maliyyələşmə alətidir. Bu zaman sərmayə sahibi (bank, kredit təşkilatı və s.) müdaribə (kredit vəsaitini alana) müəyyən işlərin yerinə yetirilməsində, layihənin icra edilməsində maliyyə vəsaiti verərək onun biznesinə ortaq olur. [14 s.261] Bu ortaqlığın qarşılığı olaraq isə bank ümumi gəlirin müəyyən hissəsini əldə etmək hüququ qazanır. Başqa sözlə, mudarəbə aləti mənfəət və zərər ortaqlığını əks etdirir. Məsələn, sərmayəçi mənfəətin 40%-ni, mudarib isə 60%-ni əldə edərək pay bölgüsü yerinə yetirilə bilir. Bu faiz nisbətləri işin həcmindən, çətinlik dərəcəsindən, müddətindən, ümumilikdə isə müqavilənin formatından asılı olaraq dəyişə bilər [9 s.188-200]. Mudarəbə müqavilələrinin etibarlı olmasının əsas şərtlərini aşağıdakı kimi göstərə bilərik:

- Sərmayənin (pulun) nağd və ya nağdsız şəkildə mütləq mövcud olması, spekulyasiyalardan qaçınma;
- Müqavilə bağlandığı zaman sərmayə məbləğinin razılaşdırılmış olması və bağlandıqdan dəhal sonra mudaribə təqdim edilməsi;
- Gələcəkdə əldə ediləcək məbləğin hər iki tərəf üçün bölgüsünü müəyyən edən açıq-aydın bir meyarın müqavilədə göstərilməsi (məsələn, 50-50 %, 40-60 % və s.);
- Hər iki tərəfin (sərmayəçi və mudarib) əldə edəcəyi gəlirin son həddinin əvvəlcədən müəyyənləşdirilməsi;
- Mudaribə veriləcək pay nisbətinin xalis mənfəətdən təmin ediləcəyinin göstərilməsi [18 s.133].

Onu da qeyd edək ki, mudarəbənin *özəl mudarəbə* və *müştərək (ortaqlı) mudarəbə* formaları da mövcuddur. Ölkəmizdə daha çox beynəlxalq praktikada olduğu kimi, müştərək mudarəbədən istifadə edilmişdir. Qısaca olaraq, özəl mudarəbə müqaviləsində bank mudaribə müəyyən layihənin həyata keçirilməsində müdaxilə edə bilir və burada daha çox bir fəaliyyət istiqaməti seçilir. Müştərək mudarəbədə isə banka əmanət qoyan şəxs sərmayəçi qismində çıxış edir, bank və bankdan kredit alan şəxs isə müvafiq olaraq birinci və ikinci mudarib adlanır.

Yəni sərmayə sahibi birinci mudaribə olan banka əmanət yatırır, həmin əmanətin bütün hissəsi ikinci mudaribə bank tərəfindən verilir və krediti alan şəxs pulu öz layihəsində idarə edir [5 s.36-39].

***Muşarəkə (sərmayə-sərmayə ortaqlığı)*** - mudarəbə sövdələşməsində tərəflərdən biri sərmayədar, digəri sahibkar kimi çıxış edirsə, muşarəkə alətində hər iki tərəf biznesin qurulmasında, layihənin icrasında kapital qoyuluşu edir. Bu sövdələşmənin özü də mənfəət və zərər ortaqlığı əsasında fəaliyyətin təşkilinə əsaslanır. Bank ilə muşarəkə müqaviləsi bağlamağa gələn sahibkar bu zaman layihə təklifini banka təqdim etməklə barəbər, maliyyə imkanları barədə də banka müvafiq sənədləri təqdim edir. Sərmayə ortaqlığının bu formasında görülən işlərin nəticəsi olaraq əldə olunmuş xalis mənfəətin bölüşdürülməsi yatırılan payın faiz nisbəti əsasında proporsional şəkildə həyata keçirilir.

Muşarəkənin bir forması olan *azalan şəriklik* ("diminishing musharaka", yaxud "muşarəkəyi-mutenasika") də tətbiq edilir. Belə ki, ilbəil bank özünə aid olan hissənin verilməsini sahibkardan tələb edir və hər ay ödənilməli olan faiz ortaqlığına uyğun məbləğ də qısa müddətə ödənilir. Beləliklə, layihə, biznes, sahibkarlıq subyekti və s. sonda sahibkarın özünə qalır [5 s.46].

***Murabaha (əsas vəsait üzərindən ticarət)*** - bu maliyyə mexanizmi ənənəvi bankçılıq sektorunda ipotekaya çox bənzəyir. Əsas fərq isə təbii olaraq bankın əmlakı, avadanlığı və s.

faizsiz olaraq hissəli şəkildə satmasından ibarətdir. Burada 3 əsas tərəf olur: əmtəəni (malı) alan şəxs, İslam bankı, xarici və ya yerli istehsalçı (satıcı). Qeyd edək ki, murabaha əməliyyatları üzrə alıcı aylıq gecikdirilmiş məbləğə görə cərimə məbləği ödəyir və bu məbləğ bankın ümumi mənfəətinə daxil edilmir. Şəriət əsaslı fəaliyyətə müvafiq olaraq bankın həmin məbləği mənfəət olaraq götürməsi qadağan edildiyi üçün həmin məbləğ müqavilədə əks etdirilmiş xeyriyyə fondlarına yönləndirilir. Cərimənin tətbiqinin əsas məqsədi isə alıcıda ödəniş məsuliyyətinin yaradılması və şəffaflığın təmin edilməsidir. [5 s.54]

İslam İnkişaf Bankı gecikdirilmiş ödəniş haqqının hesablanması üçün aşağıdakı düsturu təsbit edir:

$$\frac{A \times B \times C}{360}$$

Burada: A - ödənilməmiş məbləğ, B 'azılaşdırılmış faiz, C - faktiki ödənilməmiş gün də daxil olmaqla ödəniş olunmalı gündən keçən günlərin sayı. [20]

Hazırda ölkəmizdə kommersiya banklarının topdansatış, pərakəndə satış, nəqliyyat, kənd təsərrüfatı kimi sahələrdə fəaliyyət göstərməsi qanunla qadağan olduğu üçün yuxarıda qeyd edilmiş alətlərin KOS-ların fəaliyyətinə tətbiq dairəsi də geniş deyildir. Banklar haqqında Qanunun 33.1-ci bəndində qeyd edilir ki, heç bir bank topdansatış və ya pərakəndə ticarət, istehsal, nəqliyyat, kənd təsərrüfatı, yataqların işlənilməsi, tikinti və sığorta fəaliyyəti ilə məşğul ola və ya sığorta təşkilatları istisna olmaqla tərəfdaş, şərik və ya payçı kimi bunlarda iştirak edə bilməz. [19] Həmin Qanunun 33.2-ci bəndində isə qeyd edilir ki, Mərkəzi Bankın icazəsi əsasında və yalnız icazədə göstərilmiş müddət ərzində kommersiya banklarının yuxarıda sadalanan sahələr üzrə fəaliyyət göstərməsi mümkündür [19].

Ölkəmizdə vaxtilə alternativ maliyyə məhsulları kimi sukuk (islami bondlar), icarə (lizinq), təkafül (sığorta) alətlərindən də istifadə edilmişdir.

## AZƏRBAYCANDA İSLAM MALİYYƏLƏŞMƏSİNİN FORMALAŞMASI

İslam maliyyəsi prinsipləri Azərbaycanda əsrlər boyu davam edən köklü tarixi əhəmiyyətə malikdir. Ölkənin zəngin islam irsi islam maliyyəsi təcrübələrinin onun müasir iqtisadi mənzərəsinə tədricən inteqrasiyasının əsasını qoyub.

İllər keçdikcə və iqtisadi formasiyalar bir-birini əvəzlədikcə ölkəmizdə də təsərrüfat həyatında müxtəlif fərqlər yaranmağa başlanmışdır. Lakin faizsiz bankçılığın yaranması ölkəmizin müstəqilliyini bərpa etdikdən sonrakı illərə təsadüf edir. Qeyd etməliyik ki, milli bank sistemimizin formalaşması Bazel standartlarına əsaslanır, lakin bu standartlar özləri də ənənəvi bank sistemini ehtiva etdiyi üçün ilk illərdə ölkəmizdə islam maliyyələşməsi istiqamətində ciddi işlər görülməmişdir.

90-cı illərdən bu yana Azərbaycan şəriətə uyğun maliyyə xidmətlərinə artan tələbatı əks etdirən müxtəlif islam maliyyə institutlarının və məhsullarının meydana çıxmasının şahidi olmuşdur. Məsələn, "Kövsər Bank" kredit təşkilatı ölkəmizdə faizsiz bankçılıq sistemi çərçivəsində fəaliyyət göstərən ilk, MDB məkanında isə ikinci bank olmuşdur. Belə ki, 1989-cu ildə "Universal Bank" kimi fəaliyyətə başlayan bu kredit təşkilatı 2001-2015-ci illər ərzində şəriət əsaslı və qeyri-ənənəvi üsullarla bankçılıq fəaliyyəti göstərmişdir. Fəaliyyət müddəti ərzində İslam maliyyə alətlərindən sayılan sukuk (qiymətli kağız), icarə, murabaha, mudarəbə (sərmayə-əmək ortaqlığı) "Kövsər Bank" ASC tərəfindən təklif edilmişdir . [1 s.56]

Onu da qeyd etmək yerinə düşər ki, "Kövsər Bank" fəaliyyət göstərdiyi müddətdə islam maliyyə məhsullarını ənənəvi bank məhsullarındakı ekvivalent adları kimi rəsmiləşdirmiş və müştərilərə təqdim etmişdir. Məsələn, icarə məhsulunu lizinq kimi, sukuk alətini qiymətli kağız kimi, murabaha alətini ipoteka kimi təqdim etmişdir [1 s.57].

"Kövsər Bank"dan sonra islam maliyyə məhsullarını təklif edən bankların sırasına Nikoilbank, ABB, Turanbank, Amrahbank kimi kredit təşkilatları da qoşulmuşdur. Azərbaycan Beynəlxalq Bankı 2013-cü ilin aprel ayından etibarən "İslam bankçılığının tətbiqi" layihəsi çərçivəsində fərdi və korporativ müştərilərə İslam maliyyə məhsullarını təqdim etməyə

başlamışdır. Belə ki, bank bu istiqamətdə işlərini İslam bankı pəncərəsi kimi departament şəklində fəaliyyət göstərməklə icra etmişdir [21]. Çünki Banklar haqqında Qanunun 6-cı maddəsinə əsasən bankların filial, şöbə və nümayəndəlik açmaları və onların fəaliyyəti üçün Mərkəzi Bankın xüsusi icazəsi - lisenziyası olmalıdır. İslam bankçılığı ilə bağlı qanunvericilik bazasının zəif olması ilə bağlı olaraq ölkəmizdəki bank pəncərələri də departament şəklində öz işlərini icra etmişdirlər [20]. ABB 2014-cü ildən Al-Hilal Bank, Barwa Bank, Citigroup, Dubai Islamic Bank kimi kommersiya bankları ilə əməkdaşlığa başlamış, şəriət əsaslı və AAOIFI-nin (Auditor and Accounting Organization for Islamic Financing Institutions) standartlarına müvafiq olaraq sindikatlaşdırılmış kredit vəsaitləri cəlb etmişdir. Cəlb edilmiş 252 milyon ABŞ dolları həcmindəki borc qısa müddət ərzində bankın maliyyə aktivlərini 526 milyon ABŞ dollarına qədər artırmışdır. Bank ənənəvi lizinq məhsulunun analoqu olan icarə, ənənəvi depozitin analoqu olan vəkalə, İslami bank kartları, qərzı-həsən hesablarının açılması əməliyyatlarını icra etmişdir. 2015-ci ildə həmin departament ləğv edilmişdir. [21]

## AZƏRBAYCANDA KOS-LARIN İNKİŞAFINDA İXTİSASLAŞMIŞ QURUMLARIN ROLU

KOS-ların yaranması və təkamülü Azərbaycanın iqtisadi inkişafında həlledici rol oynamışdır. 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycan iqtisadiyyatın şaxələndirilməsi yoluna qədəm qoyub, sahibkarlığın təşviqinə və KOS-un inkişafına xüsusi diqqət yetirilib. Hökumət KOS-ların innovasiya, iş yerlərinin yaradılması və iqtisadi rifahın mühərrikləri kimi əhəmiyyətini dərk edərək onları dəstəkləmək üçün müxtəlif təşəbbüslər və siyasətlər həyata keçirmişdir.

Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsində ölkəmizdə yeni yaradılmış agentliklərin, dövlət qurumlarının, bu sahəyə dəstək verən təşkilatların sayının get-gedə çoxalması da təkanverici amillərdən sayılmışdır. Dünya təcrübəsindən əldə edilmiş yeniliklər bizə imkan yaradır ki, kiçik və orta biznesə dəstək verən qurumlar, onların maliyyə və texniki-təchizat baxımından dəstəklərinin nəzəri və praktiki tətbiqi əlçatan olsun. Bu tip təşkilatlara Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Sahibkarlığın İnkişafı Fondu, Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi və s. aid edə bilərik.

Kiçik və orta biznesin inkişaf etdirilməsində başlıca olaraq KOBİA-nın adını çəkməliyik. Belə ki, artıq ölkəmizin müxtəlif regionlarında hazırda Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı durmadan artır. Son statistik məlumatlara əsasən, 2021-ci illə müqayisədə 2022-ci ildə qeydiyyatdan keçən KOS-ların sayı 1,4 dəfə artmışdır. 2022-ci ildə ümumi fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı isə 6 % artmışdır.

**Cədvəl 1. Hazırda fəaliyyət göstərən mikro və KOS-ların sayı**

| Göstəricilər | 2021-ci ildə | | | 2022-ci ildə | | |
|---|---|---|---|---|---|---|
| | Cəmi | O cümlədən: | | Cəmi | O cümlədən: | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| **Sahibkarlıq subyektlərinin ümumi sayı** | 355 906 | 37 585 | 318 321 | 377 842 | 42 536 | 335 306 |
| Mikro s. s. | 346 171 | 27 850 | 318 321 | 366 944 | 31 638 | 335 306 |
| Kiçik s. s. | 6 856 | 6 856 | - | 7 760 | 7 760 | - |
| Orta s. s. | 2 879 | 2 879 | - | 3 138 | 3 138 | - |

**Mənbə:** Statistika komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

**Cədvəl 2. Yeni qeydiyyata alınmış kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| Sahibkarlıq subyektinin tipi | 2021-ci ildə | 2022-ci ildə |
|---|---|---|
| Kiçik s. s. | 138 | 363 |
| Orta s. s. | 44 | 66 |

**Mənbə:** Statistika komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu müstəqilliyimizin ilk illərindən etibarən kiçik və orta sahibkarlığın inkişafı istiqamətində fəaliyyətə başlamışdır. 1992-ci ildə təsis edilən qurum Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin imzaladığı 27 avqust 2002-ci il tarixli 779 saylı Fərman ilə fəaliyyətə başlamışdır. Əsas məqsədləri sahibkarlığa maddi dəstəyin gücləndirilməsi və maliyyələşdirdiyi iqtisadi fəaliyyət növlərinin milli iqtisadiyyatın mənafeləri ilə uzlaşdırılmasından ibarət olmuşdur. 2018-ci ildə isə qurum ləğv edilmiş, onun hüquqi bazası əsasında İqtisadiyyat Nazirliyi tabeliyində Sahibkarlığın İnkişafı Fondu (SİF) yaradılmışdır. SİF-in kiçik və orta sahibkarlıq subyektlərinə verdiyi kreditin faiz dərəcəsi əvvəllər 6 % olmuşdursa, 2018-ci ildən sonra 5 %-ə endirilmişdir. Eyni zamanda orta maliyyələşmə 500 001 manatdan 1 mln. manatadək çatdırılmışdır. Hər növ sahibkarlıq subyektinin güzəştli kreditləşdirilməsi müddəti 10 illik müəyyən edilsə də, yalnız kənd təsərrüfatı fəaliyyətinin kiçik və orta maliyyələşməsi 2 ilədək uzadıla bilər. [7 s.6] Sahibkarlığın İnkişafı Fondu tərəfindən faizsiz və ya güzəştli kreditlə maliyyələşdirilmiş əsas sahibkarlıq sahələrinin 2022-2023-cü illər arasındakı fərqi aşağıdakı kimi olmuşdur:

**Qrafik 1. 2022-2023-cü illərdə SİF tərəfindən maliyyələşdirilmiş istiqamətlər**




**Mənbə:** SİF-in illik hesabatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Onu da qeyd edək ki, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2022-ci ildə KOS-lara 143,4 mln. manat, 2023-cü ildə isə 176,6 mln. manat vəsait kredit xətti açılmışdır. Bundan başqa, 2021-ci ildən etibarən SİF zəmanət və faiz subsidiyası mexanizmi ilə işğaldan azad edilmiş regionlarda KOS-ların inkişaf etdirilməsi məqsədilə illik 15% və 7 ilədək güzəştli kreditlərin verilməsinə də başlamışdır [8 s.4].

Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsində ixtisaslaşmış qurumlardan biri də **Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir (KOBİA)**. Ölkə Prezidentinin 28 dekabr 2017-ci il tarixində imzaladığı Fərman ilə təsis edilmiş qurum 2018-ci ildən etibarən İqtisadiyyat

Nazirliyinin tabeliyində fəaliyyətə başlamışdır. KOBİA ölkə ərazisindəki KOS-ların fəaliyyətlərini stimullaşdıran, məşğulluğun təmin edilməsində əvəzsiz rolu olan, sahibkarlarla dövlət qurumlarının fəaliyyətlərini əlaqələndirən, yeni biznesə başlamaq istəyən şəxslərə ödənişsiz məsləhət xidmətləri göstərən, sahibkarlıq fəaliyyəti üzrə kadr hazırlığını reallaşdıran publik hüquqi şəxsdir.

Kiçik və orta biznesin inklüziv inkişafı və elm tutumlu sahələrin formalaşdırılması üçün KOBİA-nın tərkibində bir sıra alt struktur bölmələr fəaliyyətə başlamışdır. Bunlardan KOB evləri, KOB Dostu, KOB İnkişaf Mərkəzləri (KOBİM), KOB İnkişaf Fondu (KOBİF) və s. KOBİA-nın fəaliyyətinin şaxələndirilməsində xüsusi əhəmiyyətə malikdirlər.

KOB evləri hazırda Bakı, Yevlax və Xaçmaz şəhərlərində mövcuddur və onlar, əsas etibarilə operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyətlilik və rahatlıq prinsipləri əsasında KOS-ların vahid məkanda öz biznes layihələrinin qurulması və icrası üzrə müəyyən xidmətlərdən faydalanmalarını təmin edirlər. Sahibkarlar KOB evlərinin təqdim etdiyi xidmətlər əsasında aşağıdakıları icra edə bilərlər:

- Biznesin qeydiyyata alınması;
- Lisenziya və icazələrin alınması;
- Biznes-planın qurulması;
- Güzəştli maliyyə vəsaitlərinə çıxışın əldə olunması;
- Sığorta xidmətlərindən istifadə. [22]

KOB dostu ölkə ərazisində mövcud olan sahibkarlıq subyektlərinin hüquqi baxımdan mənafelərinin qorunmasını təmin etməklə, həm də potensial biznes subyektlərinin aşkara çıxarılmasında yeni bir mexanizm olaraq çıxış edir. Bu alt qurumun fəaliyyəti əsasında sahibkarlarla dövlət arasında DÖST (dövlət-özəl sektor tərəfdaşlığı) qurulmaqla potensial problemlərin əvvəlcədən araşdırılması və ya cari məsələlərin operativ şəkildə həlli əlçatan olur. KOS subyektlərində yaranmış çətinliklərin, onları gözləyən təhdid və ya əldə edə biləcəkləri imkanların öyrənilməsi KOB Dostu tərəfindən keçirilmiş sorğu anketi əsasında müəyyən edilir və sahibkarlara geridönüş edilir.

KOBİA-nın alt struktur bölmələrindən biri də KOBİM-dir. KOB İnkişaf Mərkəzləri hazırda ölkəmizin 20-dən çox şəhərində fəaliyyət göstərir. KOBİM-in əsas fəaliyyət istiqamətləri başlıca olaraq 2 sferada müəyyənləşdirilmişdir. Bunlar *təlim* və *məsləhət xidmətləri* sferalarıdır. Təlim xidmətləri sahəsində potensial və cari sahibkarlara aşağıdakı xidmətlər tam ödənişsiz şəkildə təqdim edilir:

- Yumşaq bacarıqlar (Soft skills);
- Biznesə başla;
- Layihə menecmenti;
- Maliyyə menecmenti;
- Korporativ hüquq;
- Satış və marketinq;
- Rəqəmsal və sərt bacarıqlar.

Məsləhət xidmətləri sahəsində isə:

- Marketinq fəaliyyəti üzrə məsləhətlər;
- Satış kanallarına çıxışa dəstək;
- Sahibkarlıq fəaliyyətinin planlaşdırılması və modelləşdirilməsi;
- Mühasibatlıq və hüquq xidmətləri. [23]

Ümumiyyətlə, kiçik və orta biznesin inkişafında ixtisaslaşmış qurumların rolu ölkədə makroiqtisadi göstəricilərin artım tempinə, məşğulluğun artmasına, rifahın yaxşılaşmasına, istehsal sahələrinin diversifikasiyasına ciddi müsbət təsirini göstərir. Yuxarıdakı təşkilatların və alt struktur bölmələrin icraatlarından başqa KOB İnkişaf Fondunun, İnnovasia və Rəqəmsal İnkişaf Agentliyinin, Dövlət Aqrar İnkişaf Mərkəzlərinin (DAİM), Aqrar Kredit İnkişaf Agentliyinin (AKİA) də kiçik və orta biznesin inkişafındakı rolunu qeyd etmək lazımdır.

KOS-ların maliyyələşməsində ənənəvi maliyyə məhsulları, güzəştli, faizsiz və ya subsidiyalaşmış kreditlərdən başqa alternativ və innovativ maliyyə məhsulları da son zamanlar

aktuallıq qazanmışdır. Məsələn, yeni biznes subyektlərinin maliyyələşməsində tətbiq edilən "mələk investisiyası" hazırda bir çox ölkələrdə istifadə edilir. Rumıniyalı iqtisadçı Nitesku biznes mələklərini belə ifadə edir: "Bu, bank kreditləşdirmə kanalına alternativ maliyyələşdirmə yolu kimi vacibdir. Çünki banklar ya yeni başlayan biznesləri maliyyələşdirmirlər, bu da biznes imkanlarını azaldır" [12 s.6]. Qeyd edək ki, bu tip maliyyələşmə daha çox qeyri-rəsmi müstəvidə və məxfi şəkildə icra edildiyi üçün risk dərəcəsi da çox olur. Bu baxımdan, investorlar mələk investisiyasını icra etdikdə, əsas etibarilə işgüzar münasibətləri üst səviyyədə olan şəxslərlə əməkdaşlıq edirlər. Mələk sərmayəsi əməliyyatlarının qeyri-rəsmi və məxfiliyinə görə "demək olar ki, görünməz bir bazar" təşkil etsə də, bir sıra tədqiqatlar bu sektoru daha konkret bir profildən analiz etməyi mümkün etmişdir. 2012-ci ildə demoqrafik bir sorğuda iqtisadçı Ramadani biznes mələklərini "sərmayə qoyduqları biznesdə öz bacarıqlarına, təcrübələrinə, biliklərinə və əlaqələrinə töhfə verən sərmayədarlar" kimi təsvir edir. [12 s.16] Yəni biznes mələkləri biznesin inkişaf etdirilməsi ilə bərabər həm də öz bacarıq, bilik, təcrübə və əlaqələrinə qatqı təmin edirlər. KOS-ların inkişafında qeyri-ənənəvi və alternativ maliyyələşmə mexanizmlərindən olan faktorinq, forfeytinq, maliyyə derivativlərindən (törəmə maliyyə alətləri) fyuçers, forvard, opsion, svap və s. ilə yanaşı, islam maliyyələşməsi də geniş şəkildə istifadə edilir.

## KOS-LARIN İNKİŞAFINDA İSLAM MALİYYƏ ALƏTLƏRİNDƏN İSTİFADƏ PERSPEKTİVLƏRİ

Dünya Bankının 2015-ci ildə yayımladığı hesabata əsasən, inkişaf etməkdə olan ölkələrin KOS subyektlərinin 70%-ə qədəri maliyyələşmədə çətinliklərlə üzləşir [10]. Tədqiqat işimizin əvvəlində KOS-ların müxtəlif mənbələrdən maliyyələşdiyi barədə danışmışıq. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 06 dekabr 2016-cı il tarixli 1138 nömrəli Fərmanı ilə təsdiqini tapmış "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə də göstərildiyi kimi, KOS-ların inkişafında alternativ maliyyə mənbəyi kimi islam maliyyə alətlərindən istifadə prioritet sayıla bilər. Belə ki, bu zaman maliyyə aktivlərinin əsasən Körfəz ölkələrindən cəlb edilməsi nəzərdə tutulmuşdur. İslam maliyyə alətləri real sektora yatırımların edilməsində əhəmiyyətli ola bilər. [3] Xarici ölkələrin praktikasına nəzər saldıqda görürük ki, KOS-ların milli iqtisadiyyatın şəkilləndirilməsində, ÜDM-də, məşğulluğun artmasında xüsusi əhəmiyyəti vardır. Bu baxımdan, KOS-ların alternativ maliyyə resurslarına çıxışı təmin edilməlidir. Cənubi Asiya və ASEAN ölkələrində KOS-ların sayı, ÜDM-dəki payı, məşğulluğa verdiyi töhfə inkişaf etməkdə olan ölkə kimi Azərbaycanın da bu sektroda pay sahibi ola biləcəyinə rəvac verir.

**Qrafik 2. Cənubi Asiya və ASEAN regionunda KOS-ların makroiqtisadi göstəricilərdə payı**




**Mənbə:** NESDC (2021) əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Qeyd olunan regionlarda KOS-ların maliyyə əlçatanlığının təmin edilməsində bank kreditləşməsinə tələb çox olsa da, bu sahədə müəyyən mikromaliyyə boşluqları vardır. Maliyyəyə əlçatanlığın çətinlikləri yüksək faiz dərəcələri, mövcud mənbələrin kredit şərtləri, kredit müddəti və adekvatlılığın az olması ilə izah olunur. Dünya Bankının proqnozuna əsasən, hazırda KOS-lar ümumi iş yerlərinin 70%-dən çoxunu özündə birləşdirsə də, 2030-cu ildə 600 milyondan çox iş yerinə tələb yaranacaqdır [11 s.12]. Bu da mikromaliyyələşmənin və alternativ maliyyə resurslarına çıxışın vacibliyinə zəmin yaradır. Eyni zamanda inkişaf etməkdə olan ölkələrdə mikromaliyyələşmə kənd qadınlarının rifah və dolanışıq səviyyəsinə də müsbət təsir göstərəcəkdir. Təəssüf ki, hazırda istər islam maliyyəsinin tətbiq edildiyi regionlar, istərsə də ənənəvi məhsullar təklif edən inkişaf etməkdə olan ölkələrdə mikromaliyyələşmədə hələ də müəyyən boşluqlar vardır.

**Qrafik 3. KOS-ların maliyyələşməsində yaranmış boşluqların regionlar üzrə bölgüsü**




Mənbə: Dünya Bankının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [24].

Bununla belə, KOS-ların maliyyə resursları ilə təminatı istiqamətində müxtəlif ölkələrdə işlər görülməkdədir. Məsələn, Cənub Şərqi Asiya regionundan söhbət gedirsə, burada Malayziyanın KOS-ları üçün mikromaliyyələşmə mənbələrindən də danışmaq yerinə düşər. Belə ki, "Bank Negara Malaysia"nın 2019-cu ildə dərc etdiyi hesabata əsasən, Malayziyada KOS-lara verilmiş maliyyə aktivlərinin ümumi dəyəri 1,29 mld. ABŞ dolları (6,08 mld. Malayziya rinqqiti) təşkil etmişdir.

**Qrafik 4. Malayziyada KOS-ların ənənəvi maliyyə mexanizmi ilə təmin edilməsi dərəcəsi**




**Mənbə:** "Bank Negara Malaysia" məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir [25].

Qrafikdən də göründüyü kimi, islam maliyyəsinin inkişaf etdiyi başlıca regionlardan sayılan Malayziyada KOS-ların maliyyələşməsində dövlət qurumları və investisiya təşkilatlarının rolu böyükdür.

Mudarəbə, murabaha və sukuk kimi islam maliyyə alətləri Azərbaycanda KOS-ların islam prinsiplərinə uyğun olaraq maliyyələşməyə çıxışı üçün unikal imkanlar təklif edir. Maliyyələşdirmə məhsulları həm aktiv *(asset-based)*, həm də kapital əsaslı *(equity-based)* mexanizmləri əhatə edir ki, bu da KOS-lar üçün əhəmiyyətli maliyyə boşluğunun idarə olunmasını təmin edir. Məsələn, kapital əsaslı mudarəbə sahibkarlar və investorlar arasında mənfəətin bölüşdürülməsi razılaşmasını təmsil edir və KOS-lara faizə əsaslanan borc götürmədən kapitala çıxış imkanı verir. İnkişaf etməkdə olan ölkələrdən İndoneziyanın kiçik və orta biznes subyektlərinin maliyyələşməsində bu üç maliyyələşmədən qabaqcıl yeri murabaha aləti tutur. Belə ki, 2017-ci ildə ümumi faizsiz maliyyələşmənin (13 933 mld. ABŞ dolları) 61,1%-i murabaha, 28,6%-i isə muşərəkənin (sərmayə-sərmayə ortaqlığı) payına düşmüşdür. Mudarəbə aləti isə (sərmayə-əmək ortaqlığı) 4,2%-lik payla ən az istifadə olunmuş maliyyələşmə mexanizmi olmuşdur. [11 s.17]

Türkiyədə faizsiz bankçılıq sistemi iştirakda məfəət zərər ortaqlığı nəzərə alınmaqla "katılım bankacılığı" adlanır və Türkiyə İştirak Bankları Birliyi (Türkiye Katılım Bankaları Birliği) nəzarəti və lisenziyası əsasında fəaliyyət göstərirlər. Bir çox ölkədə İslam bankçılığı və faizsiz maliyyələşmə adlanan sistemə daxil olan qurumlar Türkiyədə 2005-ci ilədək "Özel Finan Kurumu" başlığı ilə fəaliyyət göstərmişdir [13 s.18]. Hazırda Türkiyədə 6 iştirak bankı (katılım bankası) 1213 şöbəsi ilə fəaliyyət göstərir və daha çox KOS-lara xidmət təklif edir. [15 s.201] 2022-ci ildə aparılmış tədqiqatın nəticələrinə əsasən, Türkiyədə KOS-ların islam maliyyə məhsulları barədə məlumatı və bu məhsullardan istifadə üzrə ən yüksək göstəricilər Ərzincan regionunda müşahidə olunmuşdur. Belə ki, istehsal sahəsində çalışan KOS-ların islam maliyyə məhsullarından istifadəyə yönəlməsi topdan və pərakəndə satışda çalışanlardan yüksəkdir. [15 s.223]

Sukuk və ya islam istiqrazları, KOS-lara şəriət prinsiplərinə uyğun aktivlə təmin edilmiş qiymətli kağızlar vasitəsilə vəsait toplamaq üçün başqa bir yol təklif edir. Dünya Bankı tərəfindən

yayımlanmış hesabda inkişaf etməkdə olan ölkələrdə fəaliyyət göstərən təxminən 65 milyon KOS subyektinin illik 5,2 trln. ABŞ dolları həcmində əlavə kapitala ehtiyacının olduğu qeyd olunmuşdur. [24] Bununla əlaqədar olaraq İslam İnkişaf Bankı İnstitutunun (IsDBI) tədqiqatçıları tərəfindən Sukuk Artırma Fondu (SEF) təklifi KOS-ların davamlı böyümə və maliyyə dayanıqlığı üçün kapital bazarlarına çıxışına kömək etmək məqsədi daşıyır.

KOS-un inkişafında islam maliyyə alətlərindən istifadə Azərbaycanın maliyyə inklüzivliyini təşviq etmək, sahibkarlığı təşviq etmək və davamlı inkişafı təmin etmək kimi daha geniş iqtisadi məqsədlərinə uyğundur. İslam maliyyəsinin potensialından istifadə etməklə Azərbaycan KOS-lar üçün yeni maliyyə mənbələri aça bilər və bununla da *innovasiyaları*, *iş yerlərinin yaradılmasını* və *iqtisadi dayanıqlığı* gücləndirə bilər.

## TƏDQİQAT METODU

Ölkəmizdə İqtisadi Resursların Öyrənilməsi İB tərəfindən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə 2022-ci ildə 1000 nəfər sahibkar arasında "Azərbaycanda alternativ maliyyə və islam bankçılığı üzrə ehtiyacların qiymətləndirilməsi" layihəsi çərçivəsində sorğu keçirilmiş, sahibkarların alternativ maliyyə kimi islam maliyyə alətlərindən istifadəsinin mümkün olub-olmaması, bununla bağlı perspektiv addımlar qiymətləndirilmişdir.

İctimai Birliyin tərkibində iştirakçı olduğumuz tədqiqat 11 iqtisadi rayon üzrə 23 inzibati rayonda fəaliyyət göstərən sahibkarı əhatə etmişdir. Ən çox respondent sahibkar Bakı şəhərində qeydə alınmışdır (487 nəfər). Əlavə olaraq, sorğuda iştirak edən şəxslərin 10,6%-i Mingəçevirin, 10,2%-i Lənkəranın, 7,8%-i Gəncənin və s. payına düşmüşdür. İştirakçıların 861 nəfəri kişi, 136 nəfəri isə qadın olmuşdur. 3 nəfər iştirakçı öz cinsini anketdə qeyd etməmişdir [1 s.20].

**Qrafik 5. Respondentlərin gender fərqi**




**Mənbə:** KOBİA-nın maliyyə dəstəyi əsasında icra olunmuş layihə əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

**Qrafik 6. Sorğu iştirakçılarının yaş fərqləri**




**Mənbə:** KOBİA-nın maliyyə dəstəyi əsasında icra olunmuş layihə əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Sorğuda iştirak edənlərin 46,1%-i ticarət sektorunda, 26%-i isə kənd təsərrüfatı sektorunda fəaliyyət göstəməkdədirlər. Tədqiqat sorğusunda əsas etibarilə MMC-lər iştirak etmişdir. AR Nazirlər Kabinetinin təsdiq etdiyi normativ hüquqi akta əsasən illik dövriyyəsinin həcmi meyarı nəzərə alınmaqla sahibkarlıq subyektlərinin bölgüsünə əsasən mikro sahibkarlıq subyektlərindən 692 nəfər (69,2%), kiçik və orta sahibkarlıq subyektlərindən isə 249 nəfər (24,9%) anketi cavablamışdır. Sahibkarlıq subyektinin işçi sayı kriteriyası nəzərə alınmaqla isə 771 (77,1%) mikro, 201 (20,1%) kiçik və orta biznes subyekti sorğuda iştirak etmişdir. [1 s.23] İştirakçılardan hansı maliyyə mənbələrindən vəsaitlərin cəlb edilməsi, maliyyə mənbələrinə müraciətin səbəbləri, islam maliyyələşməsi barədə məlumatlılıq, informasiyanın necə əldə olunması məsələlərinə dair müxtəlif suallar soruşulmuşdur. Eyni zamanda islam bankçılığı barədə ətraflı məlumatın alınması, mexanizmin necə çalışdığı haqda informativ təlimlərə cəlb edilə bilmələri üzrə də rəyləri alınmışdır.

Sorğu nəticəsi bizə göstərir ki, KOS-lar maliyyə vəsaiti ilə təmin olunmada daha çox banklara və BOKT-lərə müraciət edirlər. (45 %) Eyni zamanda 34,1%-lik qrup heç kimdən maliyyə vəsaitini almadığını, yalnız dövri gəlirlər vasitəsilə müəssisənin maliyyə imkanlarını artırdıqlarını qeyd etmişlər.

**Qrafik 7. Vəsaitlərin cəlb edilməsi resursları**




**Mənbə:** KOBİA-nın maliyyə dəstəyi əsasında icra olunmuş layihə əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Qeyd edək ki, digər mənbələrdən vençur maliyyələşməsi üzrə vəsait cəlb edən 3 şəxs də anketi cavablamışdır. Sorğu iştirakçılarının bu mənbələrdən nə üçün istifadə etmələri də maraq doğuran məsələlərdən olmuşdur. Belə ki, bank və BOKT-lərə üz tutan şəxslər daha çox bunu ənənəvi maliyyələşmənin əlçatan olması və böyük məbləğ əldə etmək imkanı ilə əlaqələndirmişlər. O cümlədən 5,9% iştirakçı dini inancına görə ənənəvi (faizli) məhsullardan istifadə etmədiyini bildirmişdir.

Aparılan sorğuda məlum olmuşdur ki, 614 nəfər sahibkarın islam bankçılığı barədə məlumatı olmasa da, 345 nəfər qismən məlumatlı olduğunu bildirmişdir.

Sorğunun əsas hissəsi sayılan İslam bankına maliyyə yatırımı (əmanət) etmək imkanlarının qiymətləndirilməsi hissəsində isə maraqlı nəticələr əldə edilmişdir. İştirak edən qadınların 57%-i, kişilərin isə 53,1%-i gələcəkdə ölkəmizdə İslam bankçılıq sistemi yaranarsa, oraya əmanət qoymaq istəklərinin olduğunu bəyan etmişlər. Bundan əlavə olaraq, kiçik müəssisələrin 53,2%-i bu suala müsbət yanaşmış, 28,8 %-i isə bu barədə düşünmədiyini qeyd etmişdir. Eyni zamanda bu suala orta müəssisələrdə müvafiq olaraq 35,7% müsbət, 45,2% isə neytral yanaşmışdır.

**Qrafik 8. Həcminə görə sahibkarlıq subyektlərinin islam bankına pul yatırmaq potensialı**




**Mənbə:** KOBİA-nın maliyyə dəstəyi əsasında icra olunmuş layihə əsasında müəllif tərəfindən hazırlanmışdır [1].

Ölkəmizdə dini inancına görə sahibkarların 35,3%-i ənənəvi məhsullardan istifadədən imtina edirlər və İslam bankçılığına yönəlmənin əsas səbəbi olaraq bunu göstərirlər. İslam bankçılığı barədə məlumatı olan şəxslərin 38,1%-i inanclarından asılı olmayaraq, burada kredit şərtlərinin sərfəli olduğu üçün bu mənbələrə üz tuta biləcəklərini qeyd etmişdirlər.

## NƏTİCƏ

Son zamanlar ölkəmizdə KOS-ların maliyyə əlçatanlığının təmin edilməsi, sahibkarlığın diversifikasiyası, məşğulluğun artırılması baxımından alternativ maliyyə məhsulu kimi islam maliyyə alətlərinin bazara daxil olmasına zərurət yaranmışdır. Tədqiqatımızda da qeyd olunduğu kimi, hər il ortalama 5-6%-lik dinamika ilə sayları artan KOS-ların ölkəmizdə mövcud bank ekosisteminin bir parçası olması onların maliyyələşməsindəki problemlərin həll olunmasını vacib edir. Milli iqtisadiyyatımızın qlobal trendlərdən yan keçməməsi, o cümlədən işsizliyin səviyyəsinin yüksəlməsinin əsas səbəblərindən biri də illik bank faiz dərəcələrinin çox olmasıdır. Sahibkarlar, xüsusilə KOS subyektləri maliyyə təminatında müəyyən çətinliklərlə üzləşirlər. Bunlara aşağıdakıları aid edə bilərik:

- Faiz dərəcələrinin yüksək olması;
- Banklara inamın azlığı;
- Milli psixoloji amil (kapitalın investisiyadan çox yığıma və istehlaka yönləndirilməsi);
- İnvestisiya şirkətlərinin azlığı;
- Dini inanca əsasən ənənəvi bankçılıqdan imtina.

Bu baxımdan, Azərbaycan Respublikasında alternativ maliyyə mənbəyi kimi islam maliyyələşməsinə böyük marağın olduğunu sorğu nəticələrinə əsasən qeyd edə bilərik. Lakin bir çox ölkədə olduğu kimi Azərbaycanda da islam bankçılığının, maliyyə ekosisteminin yaradılmasında başlıca çətinliklər mövcuddur.

1. İlk növbədə qeyd edək ki, ölkəmizdə islam maliyyə sisteminin mövcudluğunu şərtləndirən əsas amillərdən biri **hüquqi bazanın, normativ-hüquqi aktların olmasıdır**. Belə ki, beynəlxalq təcrübəyə əsasən İslam banklarının və digər maliyyə institutlarının yaradılması varsayımında bu bazarı tənzimləyən qurum kimi ya Mərkəzi Bankın nəzdində Şəriət Şurası

(Shariah Council), ya müstəqil tənzimləyici orqan (məs., Türkiyədə TKBB), ya da AAOIFI standartları əsasında fəaliyyət göstərən və İqtisadiyyat Nazirliyinə tabe olan qurum təsis olunmalıdır. Tədqiqat işimizdə də qeyd olunduğu kimi, "Banklar haqqında" Qanunun 33.1 və 33.2-ci bəndlərinə əsasən, kredit təşkilatlarının ticarət, topdan və pərakəndə satış fəaliyyəti ilə məşğul olmaları qadağan olunduğu üçün hazırda qanunvericilik islam maliyyə sisteminin yaradılmasını dəstəkləmir;

2. Ölkəmizdə gələcəkdə islam maliyyə sistemi yaradılarsa belə, beynəlxalq təcrübəyə əsasən qeyd etməliyik ki, **KOS-lar üçün təklif olunan mudarəbə və muşarəkə maliyyələşmə mexanizminin həcmi daha azdır.** Belə olduqda da pul vəsaitləri ilə təminatda KOS-lar ənənəvi banka, murabaha əsaslı alışlar üçün isə islam bankına yönəlirlər.

3. Bu sahədə **ixtisaslı kadrların olmaması və ya azlığı** islam maliyyə sisteminin ölkəmizdə tətbiqini ləngidən əsas amillərdən biridir. Eyni zamanda sahibkarların islam maliyyə məhsullarından, demək olar ki, məlumatsızlıqları bu sahəyə yönəlmədə müəyyən çətinliklər yaradır.

4. Ölkəmizdə islam bankçılığının qurulmasında hansı modelin (Qazaxıstan, İngiltərə, Bəhreyn, İndoneziya, Türkiyə və s.) tətbiq edilməsinə dair ekspertlər arasında yekdil fikrin olmaması.

5. Bu tip maliyyələşmə mexanizminin tətbiqində bankların kapital cəlb etməsində də çətinliklər yarana bilər. Belə ki, nizamnamə kapitalının fondverimliliyinin yüksək olması üçün xarici maraqlı investorların, o cümlədən beynəlxalq islam maliyyə institutlarının cəlb edilməsi böyük əhəmiyyət kəsb edir. Son zamanlar ölkəmizdə fəaliyyət göstərən bəzi kommersiya bankları (Paşabank, ABB, Rabitəbank və s.) Körfəz ölkələrindən və beynəlxalq islam maliyyə təşkilatlarından vəsait cəlb etsələr də, KOS-ların pul vəsaitləri ilə təminatında bu, yetərsiz olur. Həmin banklar, əsasən sukuk maliyyə aktivinin (qiymətli kağız) emissiyasını həyata keçirirlər.

Qeyd edilən çətinliklərin aradan qaldırılmasında islam bankçılığı ekosisteminin (hökumət, banklar, beynəlxalq maliyyə institutları, investisiya şirkətləri, müstəqil ekspertlər və sahibkarlar) birgə fəaliyyəti labüddür. Bu problemlərin həll edilməsi üçün bu sistemin iştirakçıları tərəfindən aşağıdakı addımlar atıla bilər:

- Mövcud qanunvericilikdə dəyişikliklər edilə, yaxud islam maliyyə sistemi barədə hüquqi çərçivə yaradıla və təkmilləşdirilə bilər. Məsələn, "Banklar haqqında" Qanuna əlavə və dəyişikliklərin edilməsi, Mərkəzi Bank tərəfindən kommersiya banklarına bu istiqamətdə müəyyən lisenziyaların verilməsi. Qeyd edək ki, innovativ məhsulların tətbiq edilməsi ilə bağlı Mərkəzi Bankın İdarə Heyətinin qərarına əsasən, kommersiya bankları xüsusi rejimə cəlb edilmişlər. Xüsusi rejimin tətbiqində islam maliyyə alətlərindən sayılan sukuk mexanizmi də yer alır;
- Ölkəmizdə mövcud olan maliyyə bazarı iştirakçılarının, müxtəlif institutların beynəlxalq islam maliyyə mərkəzləri və təşkilatları ilə əməkdaşlığının gücləndirilməsi bu sektorun formalaşmasına müsbət təsir edə bilər. Bu beynəlxalq institutlara İslam İnkişaf Bankını (IsDC), Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyasını (ICD), Bəhreyn mərkəzli Beynəlxalq İnvestisiya Bankını (IIB) misal göstərə bilərik. Çünki vaxtilə bu təşkilatlar Amrahbank, Azərbaycan Lizinq Şirkəti (ANSAR Leasing), "Vision Fund AzerCredit" BOKT ilə əməkdaşlıq çərçivəsində mühüm layihələrə imza atmışdılar;
- İslam maliyyələşməsi üzrə təlimlərin, təcrübə mübadilələrinin, konfransların təşkil edilməsi, nəşrlərdə bu istiqamətdə maarifləndirmə işlərinin həyata keçirilməsi, o cümlədən ali və orta ixtisas təhsil proqramlarında islam maliyyəsi üzrə fənlərin tədris olunmasına da böyük ehtiyac vardır;

Ölkəmizdə islam maliyyə sistemi formalaşarsa, KOS-ların inkişafında yeni bir mərhələnin başlanması heç şübhəsiz gözləniləndir. Belə olduqda KOS-ların maliyyə imkanları artacaq, işsizliyin səviyyəsi aşağı düşəcəkdir. Ümumi götürdükdə islam maliyyə alətlərindən istifadənin KOS-lar üçün, o cümlədən makroiqtisadi baxımdan aşağıdakı üstünlükləri yaranacaqdır:

1. İşsizliyin səviyyəsində azalma müşahidə olunacaqdır;
2. Ənənəvi kommersiya bankları və islam bankları (pəncərələri) arasında rəqabət mühiti

meydana gələcəkdir ki, bu da son nəticədə bank faiz dərəcələrinin aşağı düşməsinə səbəb olacaqdır;

3. Sorğu nəticələrindən də əldə etdiyimiz məlumata əsasən, kişilərlə müqayisədə qadın sahibkarların islam bankçılığına marağı nisbətən yüksəkdir (57 %). Bu bizə onu söyləməyə əsas verir ki, qadın sahibkarlığı mühitinin formalaşmasında alternativ maliyyə məhsullarının da önəmli rolu olacaqdır;

4. Startapların və innovativ məhsulların istehsal edilməsində vençur sahibkarlığı kimi islam maliyyə məhsulları da (mudarəbə, muşarəkə, sukuk) xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan, elmi-texniki inkişafın stimullaşdırılmasında bu maliyyə mexanizmlərinə ehtiyac vardır.

5. İstehsalın real sektorunda inkişaf baş verəcəkdir. İslam hüququnda spekulyativ, riskli və şübhəli əməliyyatlar qadağan olunduğu üçün iqtisadiyyatın real sektoruna yatırım təşviq edilir. Bu baxımdan da ölkəmizdə daxili istehsalın həcmində artım müşahidə oluna bilər.

Sonda qeyd edək ki, islam maliyyə alətlərinin inteqrasiyası Azərbaycanda KOS-ların inkişafına dəstək üçün gələcək vəd edir. İrəliləmək, maarifləndirmə, tənzimləyici bazaları təkmilləşdirmək və islam maliyyə məhsullarının çeşidini genişləndirmək üçün davamlı səylər Azərbaycanda KOS-un inkişafına təkan vermək üçün islam maliyyəsinin tam potensialını reallaşdırmaq üçün vacib olacaqdır.

## ƏDƏBİYYAT

1. "Azərbaycanda alternativ maliyyə və islam bankçılığı üzrə ehtiyacların qiymətləndirilməsi" layihəsi çərçivəsində aparılmış sorğunun hesabatı, KOBİA, İqtisadi Resursların Öyrənilməsi İB, Bakı, 2022, s. 100
2. Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq, Azərbaycan Repsublikası Dövlət Statistika Komitəsi, statistik məcmuə, Bakı, 2023
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi, Bakı, 2016
4. Azərbaycan Respublikasının İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, İslam maliyyə sistemi və onun Azərbaycandakı perspektivləri, dərslik, Bakı, 2023, s. 209
5. Atakişiyev R. B., İslam maliyyə sistemi və alətləri, Bakı, 2021, s. 130
6. Əbdülsəlim-zadə Q. Y., Abbasov İ. M., Mikroiqtisadiyyat, dərslik, Bakı Biznes Universiteti nəşriyyatı, 2012, s. 279
7. İllik hesabat 2022, Sahibkarlığın İnkişafı Fondu, Bakı, 2023, https://edf.gov.az/az/content/22
8. İllik hesabat 2023, Sahibkarlığın İnkişafı Fondu, Bakı, 2024, https://edf.gov.az/az/content/22
9. Meybullayev M. X., İslam iqtisadiyyatı, monoqrafiya, Ünsiyyət nəşriyyatı, Bakı, 2011, s. 312
10. Investigating the Financial Capabilities of SMEs, Lessons from a 24-Country Survey, World Bank Group, June, 2018, https://www.worldbank.org/en/topic/smefinance
11. Md. Siddique Azam, Moha Asri Abdullah, SMEs, Employment Generation, and Islamic Finance, International Journal of Islamic Economics and Finance (IJIEF), January, 2024 vol. 7(1), page 433-454
12. Michaela Meneghini, Angel Impact Investing for Missing Middle SME Development, Lookout Mountain, 2019
13. KOBİ'ler için adım adım katılım bankacılığı, TKBB yayınları, yayın №7, 2018

14. Prof. Dr. Abdulaziz B., Ticaret ve Faiz, Süleymaniye Vakfı Yayınları, 2016, yayın № 08, s. 340
15. Salim S. S., Katılım bankacılığı özelinde KOBİ'lerin finansal sisteme yönelik tutum ve algılarının incelenmesi, Akademik Hassasiyetler, 2022, vol. 9, s. 199-230
16. Uğur Ç., Yavuz T., Katılım Bankacılığında Ortaklık (Müşâraka) Modellerinin Uygulanabilirliğine Dair KOBİ Algısı: TRB1 Bölgesinde Bir Araştırma, Journal of Islamic Research, 2022; 33(1): s. 231-49
17. Yaşayan ve Gelişen Katılım Bankacılığı, TKBB yayınları, yayın №12, 2019
18. Yrd. Doç. Dr. İsmail Ö., Özel Finans Kurumları, İstanbul, 1997, s. 239
19. https://e-qanun.az/framework/5825 Banklar haqqında Qanun
20. https://islamicbankers.me/wp-content/uploads/2013/12/guidelines-on-late-payment-charges-for-islamic-banking-institutions.pdf Guidelines on Late Payment Charges for Islamic Banking Institutions
21. https://interfax.az/view/571020/az "ABB-nin islam bank məhsulları beynəlxalq sertifikatlaşdırmadan keçib"
22. https://smb.gov.az/az/nav/kob-evleri KOB evləri barədə məlumatlar
23. https://kobim.az/az/xidmetler Kiçik və Orta Biznesin İnkişafı Mərkəzləri
24. https://www.worldbank.org/en/topic/smefinance Improving SMEs' access to finance and finding innovative solutions to unlock sources of capital.
25. https://www.bnm.gov.my/documents/20124/12142010/ar2023_en_ch4.pdf Statement of financial position as at 31 December 2023

## THE IMPORTANCE OF USING ISLAMIC FINANCIAL INSTRUMENTS IN THE DEVELOPMENT OF SMALL AND MEDIUM ENTERPRİSES IN THE REPUBLIC OF AZERBAIJAN

Mashallah SAFAROV

### SUMMARY

Nowadays, the use of Islamic financial instruments has attracted increasing attention in Azerbaijan, especially in promoting the development of small and medium enterprises (SMEs). In the inclusive (multifaceted) development of various sectors of the economy, the specialized institutions of our country bear a great burden. The organization of the efficient activities of those institutions ultimately has a positive effect on the population's well-being. If we look at the number of SMEs in developed and developing countries and their share in economic development, we can say how important they are in the country's economy. This article examines the historical background of Islamic finance in Azerbaijan, the evolution of SMEs in the country, and the prospects for using Islamic financial instruments to support their development.

***Keywords***: *Small and medium entrepreneurship, Islamic financial instruments, alternative, microfinance, prospects*

# ЗНАЧИМОСТЬ ИСПОЛЬЗОВАНИЯ ИСЛАМСКИХ ФИНАНСОВЫХ ИНСТРУМЕНТОВ В РАЗВИТИИ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

Машаллах САФАРОВ

## РЕЗЮМЕ

В настоящее время использование исламских финансовых инструментов привлекает все большее внимание в Азербайджане, особенно в контексте содействия развитию малого и среднего предпринимательства (МСП). В инклюзивном (многогранном) развитии различных отраслей экономики на профильные учреждения нашей страны ложится большая нагрузка. Организация эффективной деятельности этих учреждений в конечном итоге положительно влияет на благосостояние населения. Если мы посмотрим на количество МСП в развитых и развивающихся странах и их долю в экономическом развитии, то можно сказать, насколько они важны в экономике страны. В данной статье рассматриваются исторические предпосылки исламских финансов в Азербайджане, эволюция малого и среднего бизнеса в стране, а также перспективы использования исламских финансовых инструментов для поддержки их развития.

***Ключевые слова:*** *Малое и среднее предпринимательство, исламские финансовые инструменты, альтернатива, микрофинансирование, перспективы*

Məqalə redaksiyaya daxil olub: 14.05.2024
Təkrar işlənməyə göndərilib: 29.05.2024
Çapa qəbul olunub: 21.06.2024

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# KONSESSİYA DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ ƏN GENİŞ YAYILMIŞ MEXANİZMİ KİMİ

№ 1(10)-2024
səh. 66-75

Fuad MİRZƏYEV
İqtisad üzrə fəlsəfə doktoru,
Milli Aviasiya Akademiyası,
"Menecment" kafedrasının dosenti

DOI:10.30546/2790-2196.1.10.2024.009.

fmirzayev@naa.edu.az

# Konsessiya dövlət-özəl tərəfdaşlığının ən geniş yayılmış mexanizmi kimi

Fuad MİRZƏYEV
İqtisad üzrə fəlsəfə doktoru,
Milli Aviasiya Akademiyası, "Menecment" kafedrasının dosenti

**XÜLASƏ**

Bazar iqtisadiyyatına keçidi tamamlamış postsovet ölkələrin qarşısında duran aktual çağırışlardan biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi hesabına özəl sektorun inkişafına nail olunması, özəlləşdirmə proseslərinin aparılmadığı sahələrdə isə bu prosesə alternativ mexanizm-lərin tətbiq edilməsidir. Dünya təcrübəsinin təhlili göstərir ki, müvafiq mexanizmlərdən ən əhəmiyyətlisi dövlət-özəl tərəfdaşlığı modelinin tətbiqidir.

İqtisadi ədəbiyyatların və beynəlxalq təcrübənin təhlili göstərir ki, bu gün dövlət-özəl tərəfdaşlığına dair vahid yanaşma, norma və standartlar mövcud deyil. Eyni zamanda, hazırda risklərin qarşılıqlı bölüşdürülməsi, kapitalın və cari xərclərin özəl tərəfdaş (investor) tərəfindən maliyyələşdirilməsi təcrübəsi geniş tətbiq edilir. Araşdırmalardan aydın olur ki, dövlət-özəl tərəfdaşlığının, dinamik dəyişən bazar tələblərinə çevik uyğunlaşaraq istehlakçılara xidmətin keyfiyyətinin artırılmasını təmin edən, ən geniş yayılmış forması konsessiya razılaşmalarıdır.

Məqalə konsessiya razılaşmalarının iqtisadi mahiyyəti və əhəmiyyəti, xüsusiyyətləri, əlamətləri və onun digər dövlət-özəl tərəfdaşlığı mexanizmlərindən üstünlükləri və çatışmazlıqlarından bəhs edilir.

***Açar sözlər**: dövlət-özəl tərəfdaşlığı, konsessiya, konsessioner, biznes-proses, blok-sxem.*

***JEL kodu: L33; L39***

## GİRİŞ

Konsessiya (latın dilində "concession" sözündən götürülüb) sözünün hərfi mənası mükafatlandırmaq, bəxşiş etmək, güzəştə getmək deməkdir. Dövlət-özəl sektor əməkdaşlığı nöqteyi-nəzərində konsessiya – dövlət mülkiyyətində olan obyektlərin tikintisi, modernləşdiril-məsi, rekonstruksiyası, istismarı və idarə edilməsi, eyni zamanda onlara texniki xidmətin göstərilməsi və ya müvafiq obyektlərdən istifadə hüquqlarının müəyyən hissəsinin öncədən müəyyənləşdiril-miş dövr üçün, bəlli maliyyə şərtlərinin təmin olması qarşılığında özəl tərəfdaşa ötürülməsini nəzərdə tutan təsərrüfat münasibətləri sistemidir.

Konsessiya dövlətlə özəl sektorun qarşılıqlı əməkdaşlıq mexanizmi olmaqla müxtəlif dövrlərdə tətbiq edilmiş və bu cür əməkdaşlığın ilkin formalarından biri hesab edilir. Konsessiya razılaşmalarının ilk nümunələrinə hələ kredit münasibətlərinin formalaşmadığı, dövlət maliyyələşdirməsinin tam təmin edilmədiyi, kommunikasiya proseslərinin yenicə meydana gəldiyi natural iqtisadiyyat dövründə dövlətin müəyyən ödəniş və şərtlər qarşılığında vergi və digər icbari dövlət yığımlarının toplanması hüququnun müxtəlif qeyri-dövlət vergi toplayıcılarına ötürülməsini nəzərdə tutan saziş kimi rast gəlinirdi.

Konsessiya iqtisadi idarəetmə aləti kimi kifayət qədər qədim tarixə malikdir. Konsessiya mexanizmindən təsərrüfat münasibətlərində istifadə edilməsi nümunəsi hələ qədim Roma imperiyası dövrünə təsadüf edir. Həmin dövrdə bu mexanizmdən istifadə edilərək dəniz limanları, hamamlar, poçt şöbələri özəl sektorun istifadəsinə verilirdi. Avropada konsessiya münasibətləri orta əsrlərdə meydana gəlməyə başlamışdır [2].

Konsessiya, öncəliklə ictimai infrastruktur obyektlərinin tikilməsi, dövlət və bələdiyyə mülkiyyətində olan əmlakın səmərəli idarə olunması və göstərilən sosial xidmətlərin keyfiyyətinin artırılması məqsədilə özəl investisiyaların müvafiq sektorlara cəlb edilməsi mexanizmidir.

Konsessiya münasibətlərinə dair əhəmiyyətli elmi araşdırmalar aparmışdır. Qərb alimləri A.Fayard və F.Buske öz elmi məqalələrində müvafiq kateqoriyanı əqd və ya müqavilə olaraq

xarakterizə edirlər. Bu müqavilə dövlət obyektinin tikilməsi, modernləşdirilməsi və istismarı hüquqlarını müəyyən dövr üçün özəl təsərrüfat subyektinə ötürülməsini nəzərdə tutur. Əvəzində özəl tərəfdaş müvafiq obyektin tikintisi və ya modernləşdirilməsi ilə yanaşı, həm də ona uzunmüddətli xidmətin göstərilməsi öhdəliyini öz üzərinə götürür və beləliklə bütün xərc və riskləri özü idarə edir [8].

## KONSESSİYANIN ÖZÜNƏMƏXSUS XÜSUSİYYƏTLƏRİ VƏ DİGƏR DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞI MEXANİZMLƏRİNDƏN ÜSTÜN CƏHƏTLƏRİ

Hüquqi baxımdan konsessiya məfhumu müqavilə anlayışına bərabər tutulur ki, bu müqavilə dövlət (bələdiyyə) və ya onun xüsusi səlahiyyətli orqanına (konsedent) - özəl tərəfdaşa (konsessionerə) həmin müqavilədə nəzərdə tutulmuş sərtlər çərçivəsində investisiya yatırmaq və müqavilə obyektinin (adətən ictimai infrastruktur obyekti) fəaliyyətini təmin etmək məqsədilə riskləri öz üzərinə götürmək səlahiyyəti verir. Eyni zamanda, konsessiya müqaviləsi özəl tərəfdaşın daşıdığı öhdəlikləri müəyyən edir. Bu zaman konsessioner infrastruktur obyektinin istismarından və ya dövlət (bələdiyyə) tərəfindən həyata keçirilən ödənişlər hesabına gəlir əldə edir. Eyni zamanda, konsessiya münasibətləri çərçivəsində konsessioner mülkiyyət hüququna sahib olmasa belə, müqavilənin qüvvədə olduğu dövr üçün konsessiya obyektini istismar etmək hüququ əldə edir.

Xüsusi mülki müqavilə növü kimi konsessiya aşağıdakı xüsusiyyətləri özündə cəmləşdirir [3]:

- Konsessiya obyektinə sahiblənmək və onu dövrü istismar etmək hüquqlarının dövlət tərəfindən özəl tərəfdaşa ötürülməsini nəzərdə tutur;
- konsessiya konkret müddətli müqavilə növü olmaqla, həmin müddət bitdikdən sonra müqavilə obyektinin təkrar ictimai sektorun (dövlətin və ya bələdiyyənin) mülkiyyətinə qayıtmasını nəzərdə tutur (digər sözlə, konsessiya müqaviləsi qüvvədə olduğu dövrdə mülkiyyət hüququ ictimai sektorda saxlanılır);
- ictimai (dövlət və ya bələdiyyə) obyektin konsessiyaya verilməsi, bir qayda olaraq, həmin obyektin tikintisi və ya modernləşdirilməsi (rekonstruksiyası) məqsədi daşıyır;
- konsessiya müqaviləsinin obyektinin konsessioner tərəfindən tikintisi, modernləşdirilməsi (rekonstruksiyası) və istismarı konsessionerin xüsusi maliyyə resursları və ya cəlb olunmuş investisiyalar hesabına həyata keçirilir.

Yuxarıda qeyd olunanlarla yanaşı konsessiyanın digər xüsusiyyətləri də mövcuddur [4]:

- konsessiya çoxməqsədli və uzunmüddətli tərəfdaşlıq mexanizmidir;
- konsessiya münasibətləri çərçivəsində konsessor istənilən an konsessionerə kompensasiya ödəmək şərti ilə konsessiya müqaviləsini birtərəfli pozmaq hüququna sahibdir;
- konsessiya münasibətləri çərçivəsində konsessioner konsessiya obyektinə dair inzibati, təsərrüfat və idarəetmə qərarlarının qəbul edilməsində əhəmiyyətli (bəzi hallarda isə tam olaraq) sərbəstliyə sahibdir;
- konsessiya müqaviləsi çərçivəsində icra edilən dövlət-özəl tərəfdaşlığı layihələrində risklər bütün layihə iştirakçılar arasında bərabər bölüşdürülür ki, bu da öz növbəsində layihənin uğurlu olma ehtimalını artırır.

Artıq daha öncə qeyd edildiyi kimi, konsessiyanın digər dövlət-özəl tərəfdaşlığı formalardan əhəmiyyətli fərqi konsessiya obyekti üzərində mülkiyyət hüququnun ictimai sektorda (dövlətdə və ya bələdiyyədə) saxlanılmasıdır.

İctimai infrastruktur layihələrinə investisiyaların yönəldilməsi mexanizmlərindən biri olan konsessiyanın digər bu tip mexanizmlərdən aşağıdakı fərqli əlamətləri vardır [5]:

- konsessiya münasibətləri qanunvericiliklə tənzimlənir;
- konsessiya müqaviləsinin obyektləri kimi adətən, dövlət və ya bələdiyyə əmlakı çıxış edir;
- konsessiya müqaviləsi çərçivəsində investisiyalar özəl sektor (konsessioner) tərəfindən həyata keçirilir;
- konsessiya obyektini istismarı qarşılığında konsessionerin konsessora ödəniş (konsessiya ödənişləri) etmək imkanının olması və ya konsessiya razılaşmalarının konsedentin ödənişləri hesabına strukturlaşdırılması;

- konsessiya müqaviləsi mülkiyyət hüququnun ictimai tərəfdaşda (dövlət və ya bələdiyyədə) saxlanılması, özəl tərəfdaşın isə konsessiya obyektinə müvəqqəti sahiblənmək və onu istismar etmək hüququnun təsbit edilməsini nəzərdə tutur;
- konsessioner hüquqları qanunvericiliklə qorunur.

Konsessiyanın digər dövlət-özəl tərəfdaşlığı mexanizmlərindən bir sıra üstün cəhətləri mövcuddur [6,7]:

1. Konsessiya müqavilələri digər mülki müqavilə növlərinə nisbətən daha uzunmüddətli xarakter daşıyırlar. Bu isə öz növbəsində müqavilə tərəflərinə strateji planlaşdırma həyata keçirmək imkanı yaradır;
2. Digər əməkdaşlıq formalarından (məsələn, birgə müəssisələrin yaradılması) fərqli olaraq konsessiya özəl tərəfdaşa idarəetmə qərarlarının qəbulu nöqteyi-nəzərindən daha çox müstəqillik (sərbəstlik) verir;
3. Konsedent konsessiya müqaviləsi çərçivəsində konsessionerin fəaliyyətini tənzimləmək üçün çoxsaylı, "təsir alətlər"inə sahib olur. Nəticədə konsedent konsessioner tərəfindən konsessiya müqaviləsinin şərtləri pozulduğu halda və ya ictimai mənafeyin qorunmasına ehtiyac yarandıqda həmin alətlər hesabına vəziyyəti tam nəzarətdə saxlamaq və prosesləri tənzimləmək imkanı əldə edir;
4. Konsedent müəyyən ödənişlər qarşılığında konsessionerə öz mülkiyyətində olan obyektin yalnız istismar (istifadə) hüquqlarını ötürür ki, bu zaman mülkiyyət hüququ tamamilə konsedentdə saxlanılır.

Göründüyü kimi, dövlət-özəl tərəfdaşlığı nöqteyi-nəzərindən konsessiya mexanizminin həm dövlət, həm də özəl tərəfdaş üçün çoxsaylı üstünlükləri mövcuddur. Bununla belə, bu mexanizmin ən əhəmiyyətli çatışmazlığı onun digər dövlət-özəl tərəfdaşlığı mexanizmləri ilə müqayisədə çoxsaylı risklər ilə müşayiət olunmasındadır. Cədvəl 1-də konsessiya mexanizminin tətbiqi zamanı yaranan biləcək risklərin təsnifatı və həmin risklərin azaldılması üsulları göstərilmişdir [9].

**Cədvəl 1. Konsessiya mexanizminin tətbiqi zamanı yaranan risklər və onların azaldılması üsulları**

| Risklərin növü | Risklərin mahiyyəti | Risklərin azaldılması üsulları |
|---|---|---|
| Siyasi risklər | Layihə obyektinin milliləşdirilməsi və ya müsadirə edilməsi; | Dövlət və ya bələdiyyələrin layihədə investor olaraq birbaşa iştirak etməsi. |
| | Valyuta konvertasiyasına olan məhdudiyyətlər və ya əldə edilmiş gəlirlərin xarici valyutaya konvertasiya edilərək ölkədən çıxarılmasına qoyulmuş qadağalar; | Layihədə beynəlxalq maliyyə institutlarının iştirak etməsi; |
| | Hərbi münaqişələr, əmək tətilləri və s.; | |
| | Korrupsiya. | |
| Maliyyə riskləri | Cəlb edilmiş maliyyə vəsaitlərinə görə faiz dərəcələrinin artması; | Kreditlərin sabit faiz dərəcəsi ilə alınması; |
| | Valyuta kursunun qeyri-sabitliyi. | Valyuta kursu ilə bağlı risklərin xedjləşdirilməsi. |
| Layihənin tamamlanmaması ilə bağlı risklər | Lisenziyalaşma ilə əlaqədar risklər; | Təchizat müqaviləsində layihənin tamamlanması meyarlarının ətraflı əks olunması; |
| | Tikintinin və ya onun mərhələlərinin müəyyən edilmiş tarixdə bitməməsi riskləri. | "açarın təslim edilməsi" şərli ilə tikinti müqaviləsinin imzalanması. |
| Bazar riskləri | Yekun məhsulun istehlakçıya çatdırılmaması riski; | Sabit tariflər əsasında podratçılarla uzunmüddətli müqavilələrin imzalanması; |
| | Yekun məhsul və xammalın qiymətlərin formalaşması ilə bağlı risklər. | Müstəqil ekspertlər tərəfindən layihənin maliyyə modelinin təhlil edilməsi. |

***Mənbə:*** *Cədvəl araşdırmalar əsasında müəlliflər tərəfindən tərtib edilib*

Nəzərə almaq lazımdır ki, yuxarıda təsnif edilən risk növlərinin əksəriyyəti təkcə konsessiyaya deyil, həm də digər dövlət-özəl tərəfdaşlığı mexanizmləri üçün də xarakterikdir. Belə ki, heç bir biznes hərbi münaqişələr, əmək tətilləri və yaxud məhsul və ya xidmətlərin reallaşdırılması ilə bağlı problemlərdən sığortalanmayıb. Bununla belə qeyd etmək lazımdır ki, tikintinin tamamlanmaması, cəlb edilmiş vəsaitlər üzrə faizlərin artması riskləri yalnız konsessiya mexanizminə xas risklərdir. Bütün bu risklərin mövcudluğuna baxmayaraq, təhlillər göstərir ki, konsessiya dövlət-özəl tərəfdaşlığı formaları sırasında ən çox tətbiq edilən mexanizmdir. Məsələn, Dünya Bankının təqdim etdiyi hesabatlardan görmək olar ki, inkişaf etməkdə olan və keçid dövrü yaşayan ölkələrdə nəqliyyat infrastruktur obyektlərinə dövlət-özəl tərəfdaşlığı əsasında qoyulmuş investisiyaların 66%-i konsessiya müqavilələri əsasında mümkün olmuşdur [10].

## KONSESSİYA MEXANİZMİNİN OBYEKTİ, REALLAŞDIRILMASI ARDICILLIĞI VƏ ÇATIŞMAZLIQLARI

Konsessiya mexanizminin mahiyyəti və əhəmiyyətini dərindən anlamaq üçün onun obyektini ətraflı təhlil etmək olduqca əhəmiyyətlidir. Bu məqsədlə ilk olaraq konsessiya razılaşmalarının potensial obyektlərinin təsnifatını bilmək lazımdır. Müasir konsessiya razılaşmalarının obyekti kimi aşağıda sadalananlar çıxış edə bilər [11]:

1. Təbii ehtiyat və resurslar;
2. Dövlət mülkiyyətində olan müəssisə (həm iqtisadi, həm də sosial infrastruktur müəssisələri);

3. Dövlət inhisarında olan təsərrüfat sahələri (energetika, nəqliyyat sistemi, silah istehsalı və satışı və s.)

4. Sair ictimai mülkiyyət obyektləri və xidmət növləri.

Dövlət-özəl tərəfdaşlığına dair beynəlxalq təcrübənin təhlili göstərir ki, konsessiya razılaşmalarının əsas obyektləri kimi kommunal sektor: istilik, elektrik, qaz və su təchizatı; kanalizasiya xidmətləri; məişət tullantılarının utilizasiyası; yaşıllaşdırma və abadlıq işləri; yaşayış sahələrinin saxlanılması və əsaslı təmiri və s. çıxış edir.

Eyni zamanda, həmin təhlillər konsessiya razılaşmalarının ikinci ən çox tətbiq edildiyi sektorun nəqliyyat sektoru olduğunu deməyə əsas verir. Buraya avtomobil yolları infrastrukturunun qurulması və əsaslı təmiri, dəmiryol nəqliyyatı və boru kəməri layihələri, dəniz və hava limanları, körpü kompleksləri, kommunikasiya və sairə ictimai infrastruktur obyektlərinin tikintisi və istismarı daxildir.

Konsessiya mexanizminin tətbiq edildiyi digər əhəmiyyətli dövlət-özəl tərəfdaşlığı sahəsi ictimai-sosial infrastruktur (təhsil, səhiyyə, turizm, iaşə və s.) layihələrinin reallaşdırılması sahəsidir.

Əməliyyat aktivi nöqteyi-nəzərindən konsessiya razılaşmalarının aşağıdakı növləri mövcuddur [12]:

1. Artıq mövcud aktivin istismarını nəzərdə tutan konsessiya razılaşmaları (məsələn, artıq mövcud olan satış şəbəkəsi (kanalları) ilə məhsul və ya xidmətlərin satışı);

2. Dövlət mülkiyyətində olan aktivin istismar edilməsi hesabına icra edilən konsessiya razılaşmaları;

3. Dövlət-özəl tərəfdaşlığı layihəsi tamamlandıqdan sonra konsessioner tərəfindən istismarı davam etdiriləcək xüsusi mülkiyyət obyektinin (aktivin) yaradılmasını nəzərdə tutan konsessiya razılaşmaları.

Sonuncu növ konsessiya razılaşmasına iqtisadi ədəbiyyatlarda investisiya konsessiyası adı altında da rast gəlmək mümkündür. Belə ki, bu növ konsessiya mexanizmi əsasında icra edilən dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılması zamanı konsessiya obyektin tikintisinə investisiya qoyuluşlarının konsessioner tərəfindən həyata keçirilməsi və daha sonra konsessioner tərəfindən həmin obyektin istismar edilməsi nəzərdə tutulur.

Təhlillər göstərir ki, adətən hər üç növə xas olan xüsusiyyətləri özündə cəmləşdirmiş qarışıq konsessiya formalarından daha çox istifadə edilir. Məsələn, dövlət konsessionerin investisiya qoyuluşları hesabına konsessiya aktivinin yaradılması və ya mövcud aktivin modernləşdirilməsi (rekonstruksiyası) şərtilə öz mülkiyyətində olan obyektləri özəl tərəfdaşın istismarına verə bilər.

Konsessiya razılaşmalarının digər dövlət-özəl tərəfdaşlığı formaları (xidməti müqavilələr, icarə müqavilələri, idarəetmə müqavilələri) ilə çoxsaylı oxşar xüsusiyyətlərinin olması ilə yanaşı, bu mexanizmin bir sıra spesifik xüsusiyyətləri də mövcuddur. Həmin xüsusiyyətləri Cədvəl 2-də öz əksini tapmışdır:

### Cədvəl 2. Dövlət-özəl tərəfdaşlığının müxtəlif formalarının xüsusiyyətlərinin müqayisəli təhlili

| *Dövlət-özəl tərəfdaşlığı forması* | *Obyektin mülkiyyət forması* | *İstismar və texniki xidmət* | *Kapital qoyuluşu* | *Risklər* | *Layihənin müddəti* | *Müqavilənin növü* |
|---|---|---|---|---|---|---|
| Xidmətin göstərilməsi haqqında müqavilə | Dövlət | Dövlət və özəl sektor | Dövlət vəsaiti | Dövlət | 1-2 il | Xidmət müqaviləsi |
| İdarəetmə haqqında müqavilə | Dövlət | Özəl sektor | Dövlət vəsaiti | Dövlət | 3-5 il | İdarəetmə haqqında müqavilə |
| İcarə haqqında müqavilə | Dövlət | Özəl sektor | Dövlət vəsaiti | Müştərək | 8-15 il | İcarə müqaviləsi |
| **Konsessiya** | **Dövlət** | **Özəl sektor** | **Özəl kapital** | **Özəl sektor** | **25-30 il** | **Konsessiya müqaviləsi** |

***Mənbə.*** *Cədvəl araşdırmalar əsasında müəllif tərəfindən tərtib edilib*

Konsessiya mexanizminin mahiyyətini dərindən başa düşmək məqsədilə onu biznes-proses olaraq nəzərdən keçirmək məqsədəuyğundur. Belə ki, blok-sxemlərdən formalaşan biznes-proses olaraq konsessiya mexanizmi - icra ediləcək dövlət-özəl tərəfdaşlığı layihəsinin ardıcıl addımlar çoxluğudur. Ümumiləşdirilmiş olaraq konsessiya razılaşması əsasında icra edilən dövlət-özəl tərəfdaşlığı layihələrinin biznes-prosesinin ardıcıl blok-sxemi şəkil 1-də öz əksini tapmışdır:

### Şəkil 1. Dövlət-özəl tərəfdaşlığı layihələrinin konsessiya mexanizmi üzrə biznes-proseslərin sxemi




Qeyd etmək lazımdır ki, konsessiyanın dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılmasının ən geniş yayılmış forması kimi bir çox üstün cəhətlərinin olmasına baxmayaraq, bu mexanizmin özünəməxsus aşağıdakı çatışmazlıqları da mövcuddur. Həmin çatışmazlıqlar aşağıdakılardır:

1. Rəqabətin məhdudlaşdırılması və qiymət artımı. Konsessiya razılaşması konsessionerə bazarda inhisarçı mövqeyə sahib olmaq imkanı verə bilər ki, bu da öz növbəsində təqdim edilən məhsul və xidmətlərin qiymətinin artımı ilə nəticələnir.

2. Məhsul və ya xidmətin keyfiyyətinin aşağı düşməsi. Konsessioner fəaliyyətinin nəticələrindən asılı olmayaraq sabit məbləğlə gəlir əldə etdiyindən, o, istehlakçıya keyfiyyətli xidmət göstərməkdə maraqlı olmaya bilər.

3. Dövlət nəzarətinin mümkünsüzlüyü. Konsessiya mexanizminin tətbiqi zamanı dövlət demək olar ki, konsessionerin fəaliyyətinə nəzarət imkanlarından məhrum olur. Bu da öz növbəsində bəzi hallarda istehlakçılar və digər maraqlı tərəflərin hüquqlarının pozulmasına gətirib çıxara bilər.

4. İnvestisiyaların yatırılmama riski. Konsessioner müəyyən səbəblərdən müqavilə ilə nəzərdə tutulmuş investisiya öhdəliklərini yerinə yetirməyə bilər. Bu isə öz növbəsində konsessiya müqaviləsinin pozulması ilə nəticələnir.

5. Konsessiya obyektinin istismar edilməsinin məhdudlaşdırılması. Dövlət konsessiya obyektinin istismar edilməsinə bir sıra məhdudiyyətlər tətbiq edə bilər ki, nəticədə bu konsessionerin istehlakçılara keyfiyyətli xidmət göstərmək imkanlarını azalda bilər.

6. Şəffaflığın kifayət qədər olmaması. Konsessioner öz fəaliyyətinə dair məlumat və hesabatlar təqdim etməkdən yayına bilər ki, bu da istehlakçılar və digər maraqlı tərəflərin hüquqlarının pozulması ilə nəticələnir.

7. Ətraf mühitin çirkləndirilməsi. Konsessioner müqavilə şərtlərindən irəli gələn, təsbit edilmiş ekoloji normalara riayət etməyə bilər ki, nəticədə ətraf mühitin ciddi çirklənməsi baş verə bilər.

## NƏTİCƏ

Yuxarıda qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, nəzərdən keçirilmiş çatışmazlıqlara baxmayaraq konsessiya, müəyyən şərtlər çərçivəsində dövlət mülkiyyətində olan infrastruktur obyektlərinin özəl sektor tərəfindən uzunmüddətli istismarını təmin edən ən geniş yayılmış dövlət-özəl tərəfdaşlığı mexanizmidir. Digər tərəfdən, konsessiya dövlətin infrastruktur obyektlərinin tikintisi və ya modernləşdirlməsinə investisiya qoyuluşu imkanlarının məhdud olduğu dövrdə həmin tikinti və ya modernləşdirmə işlərini icrasını təmin etməyə imkanı verən səmərəli mexanizmdir.

Hazırda Azərbaycanda konsessiya razılaşmalarının hüquqi bazası kimi Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il Fərmanı ilə təsdiq edilmiş tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası çıxış edir. Müvafiq normativ sənəd tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli (TİT modeli) çərçivəsində həyata keçirilməsi şərtlənməklə, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələbləri, bağlanılan müqavilələrin xüsusiyyətlərini və şərtlərini, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi qaydasını tənzimləyir [12].

Xüsusilə qeyd etmək lazımdır ki, konsessiya nəqliyyat sistemi və onun müxtəlif sahələrində özəlləşdirmə prosesinin alternativi olmaqla, bu sistemə maliyyə resurslarının cəlb edilməsinin ən optimal mexanizmidir. Azərbaycanın nəqliyyat sisteminin bir hissəsinin dövlət mülkiyyətində olması bu sahəyə mütəmadi olaraq iri həcmli büdcə resurslarının cəlb edilməsi zərurəti yaradır. Bu isə öz növbəsində dövlət büdcəsinə əlavə yük yaradarır və nəqliyyat sistemində reallaşdırılan dövlət-özəl tərəfdaşlığı layihələrinin ən səmərəli mexanizmi kimi konsessiya sahənin inkişafına böyük töhfə verə bilər. Belə ki, konsessiya nəqliyyat sistemində özəl sektrorun payının artmasına təkan verməklə həm də büdcə vəsaitlərindən səmərəli istifadəyə xidmət edir.

## ƏDƏBİYYAT

1. Румянцева А.А. Кластерная политика как стратегия регионального развития. Москва, 2013.
2. Спицына Т.А. Оценка эффективности инфраструктурных инвестиционных проектов : диссертация кандидата экономических наук. Москва, 2009.
3. Guasch, J. Laffont, S. Straub. Infrastructure Concessions in Latin America: Government-Led Renegotiations // World Bank Policy Research Working Paper 3749, October, 2005.
4. Самигулин Р.Р. Концессионные механизмы развития регионов: диссертация кандидата экономических наук. Москва, 2011.
5. Черникова В.Е. Концессия как специфическая форма взаимодействия государства с частным предпринимательством. Экономика и управление в xxı веке: тенденции развития. 2016.
6. Варнавский В.Г. Государственно-частное партнерство в России: проблемы и перспективы // Отечественные записки. № 6, 2004.
7. Самигулин Р.Р. Концессионные механизмы развития регионов: диссертация кандидата экономических наук: 08.00.05. Москва, 2011.
8. A. Fayard, F. Bousquet. Road infrastructure concession practice in Europe // Policy research working paper. The World Bank. World Bank Institute. Governance, Regulation, and Finance Division. September. 2001.
9. Азизов А. Возможности использования концессионных соглашений в условиях кризиса // Корпоративный юрист. №5, 2009.
10. Privatization and Regulation of Transport Infrastructure: Guidelines of Policymakers and Regulations. Washington D.C. 2011. P. 10.
11. Игошин Н.В. Инвестиции. Организация, управление, финансирование. 3-е изд., перераб. и доп. Учебник. 2017.
12. Зворыкина Ю.В. Методологические основы и механизмы управления концессиями в России: диссертация доктора экономических наук. Москва, 2003.
13. Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin investorlar tərəfindən "Tik-idarə et-təhvil ver" modeli çərçivəsində həyata keçirilməsinin şərtləri, tikinti və infrastruktur obyektlərinin növlərinə uyğun olaraq investorlar qarşısında qoyulan tələblər, bağlanılan müqavilələrin xüsusiyyətləri və şərtləri, investisiya qoyuluşu nəticəsində əldə olunacaq mal və xidmətlərin dəyərinin müəyyənləşdirilməsi Qaydası. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 7 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir https://president.az/az/articles/view/21973

## CONCESSION AS THE MOST WIDESPREAD MECHANISM OF PUBLIC-PRIVATE PARTNERSHIP

Fuad MIRZAYEV

### SUMMARY

The challenges facing post-Soviet countries that have transitioned to a market economy are twofold: developing the private sector and individual entrepreneurship while preventing the state budget from being burdened by the privatization of most sectors of the economy. Additionally, alternative mechanisms must be found and applied in areas where privatization is not directly possible. The analysis of global experience indicates that the most significant mechanism is the implementation of the public-private partnership model. One of the such mechanisms is the Public-Private Partnership (PPP).

The analysis of economic literature and international experience indicates that there is currently no universally accepted approach, norms, or standards for public-private partnerships. At present, concession agreements are the most widespread form of public-private partnership. They ensure the improvement of service quality by distributing risks and financing capital and current expenses through a private partner (investor). This allows for adaptation to dynamically changing market requirements.

The article discusses the economic nature and significance of concession agreements, as well as their characteristics, distinguishing features, and differences from other public-private partnership mechanisms.

***Keywords***: *Public-Private Partnership (PPP), concession, concessionaire, business process, block-scheme.*

## КОНЦЕССИЯ КАК НАИБОЛЕЕ РАСПРОСТРАНЕННЫЙ МЕХАНИЗМ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА

Фуад МИРЗОЕВ

### РЕЗЮМЕ

Одной из актуальных задач, стоящих перед странами постсоветского пространства, завершившими переход к рыночной экономике, является достижение развития частного сектора за счет приватизации государственной собственности, а также применение альтернативных механизмов этому процессу в тех сферах, где приватизационные процессы затухают. не проведено. Анализ мирового опыта показывает, что важнейшим из соответствующих механизмов является реализация модели государственно-частного партнерства.

Анализ экономической литературы и международного опыта показывает, что на сегодняшний день не существует единого подхода, норм и стандартов государственно-частного партнерства. При этом широко используется практика взаимного разделения рисков, финансирования капитальных и текущих затрат частным партнером (инвестором). Из исследования видно, что наиболее распространенной формой государственно-частного партнерства, обеспечивающей повышение качества обслуживания потребителей за счет гибкой адаптации к динамично меняющимся требованиям рынка, являются концессион-ные соглашения.

В статье рассматриваются экономическая природа и значение концессионных соглашений, особенности, характеристики, а также их преимущества и недостатки перед другими механизмами государственно-частного партнерства.

***Ключевые слова:*** *государственно-частное партнерство, концессия, концессионер, бизнес-процесс, блок-схема.*

Məqalə redaksiyaya daxil olub: 12.01.2024
Təkrar işlənməyə göndərilib: 19.02.2024
Çapa qəbul olunub: 22.04.2024

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# İQTİSADİ İNKİŞAF MƏRHƏLƏLƏRİNDƏ DÖVLƏTİN DƏYİŞƏN ROLU: FORDİZM VƏ POSTFORDİZM

№ 1(10)-2024

Manaf BAĞIRZADƏ,
Siyasi və İdarəetmə Elmlər
üzrə fəlsəfə doktoru,
Dövlət və Bələdiyyə İdarəetmə
Kafedrasının Əməkdaşı,
Bakı Mühəndislik Universiteti
DOI:10.30546/2790-2196.1.10.2024.010.

mbagirzadeh@beu.edu.az

# İqtisadi inkişaf mərhələlərində dövlətin dəyişən rolu: fordizm və postfordizm

Manaf BAĞIRZADƏ,
Siyasi və İdarəetmə Elmlər üzrə fəlsəfə doktoru,
Dövlət və Bələdiyyə İdarəetmə Kafedrasının Əməkdaşı,
Bakı Mühəndislik Universiteti

**XÜLASƏ**

Sənayeləşmə ilə yüksələn kapitalist iqtisadiyyatı, tarixdə istehsal üsulu, əmək və sosial münasibətlər infrastrukturunu formalaşdıran müəyyən inkişaf mərhələlərini keçmişdir. İqtisadi inkişafın hər bir mərhələsi istehsal və istehlak münasibətlərinin xüsusiyyətlərini müəyyən edən sosial təşkilatı təmin edən mexanizmlərin həyata keçirilməsini zəruri edir. Bu məqalənin məqsədi yeni iqtisadi mərhələlərin yaratdığı şəraitin dövlətin roluna necə və hansı tendensiyalarla təsir etdiyini araşdırmaqdır. Kapitalizm bir çox böhran, müharibə və tənəzzülü əhatə edən fordist və postfordist istehsalın təşkilinin iki əsas formasını yaşamışdır. Xüsusilə, iqtisadiyyatda istehsalın post fordist təşkilatlanmasına paralel olan neoliberal siyasətin artması dövlətin yeni roluna iqtisadi münasibətlərin yeni mərhələsi çərçivəsindən baxmağa ehtiyac yaradır.

Dövlətin roluna və iqtisadi münasibətlərin dinamikasına yönəlmiş yanaşmaların təhlili bu məqalədə istifadə olunan əsas metodologiyadır. Bu çərçivədə fordizm və postfordizm, keynesçilik, post-industrializm, yığım rejimi, tənzimləmə yanaşması, neoliberal siyasət kimi anlayışlar dövlət və iqtisadi münasibətlərin göstəricilərini müəyyənləşdirmək üçün istifadə edilir. Postfordizmin yeni istehsal təşkilatlanması xüsusiyyətləri özəlləşdirmə, özünüidarəetmə və əks-mərkəzləşdirməni dəstəkləyən politikalar çərçivəsində dövlətin roluna təsir etmişdir. İnformasiya texnologiyaları dövrünə paralel olaraq gələn post-fordist istehsal təşkilatlanmasında iqtisadi rəqabət qabiliyyətinin qlobal səviyyəyə çatdığını görən dövlətlərin istehsalın, bazarın və təşkilatın yeni tələblərinə, əmək bazarının çevikliyinə və sosial öhdəliklərin bazara uyğun hərəkət etdiyi müşahidə olunur. Beləliklə, post-fordist çevik yığım rejimində keynesçi sosial dövlətdən qlobal inhisarçı tənzimləmənin olduğu neoliberal "sahibkar" dövlətinə keçid baş vermişdir.

***Açar sözlər:*** *fordizm, postfordizm, yığım rejimi, sahibkar dövlət, tənzimləmə formaları.*

***JEL kodu: E10, E20, D46, L51, P00***

## GİRİŞ

Henry Ford kütləvi istehsalın qurulmasına imkan verən montaj xətti əsasında istehsalın təşkili modelini icad etmişdir. Bu istehsal konsepsiyası ictimai quruluşun sosial, iqtisadi, siyasi və idarəetmə sisteminə də təsir edir. Bu səbəbdən 1910-1970-ci illərdə idarəetmə nəzəriyyələrini və iş münasibətini təyin edən kütləvi istehsal və kütləvi istehlakı xarakterizə edən kapitalizm ideologiyası fordizm olaraq adlandırılmışdır (Valli, 2018). 1970-ci illərdə baş verən iqtisadi durğunluq, Fransız Tənzimləmə Məktəbi tərəfindən kapitalizmin növbəti bir böhranı və mərhələsi olaraq qəbul edilmişdir. Bununla, mövcud rejimin böhranla əlaqəli başlıca xüsusiyyətləri təyin edilməyə çalışıldı. Beləliklə, təhlil göstərmişdir ki, iqtisadiyyatda dəyişməz qanunlar yoxdur və kapitalist sistem yeni post-fordist mərhələyə keçid yaşayır (Murray, 1989). Post-fordist yanaşmanın inkişafında o dövrdə İtaliyada "Üçüncü İtaliya" adlanan hadisələr mühüm rol oynamışdır. "Birinci İtaliya" - kütləvi istehsalın aparıldığı bölgələr," ikinci İtaliya " - ölkənin inkişaf etməmiş cənub bölgəsi idi. Digər tərəfdən, "üçüncü İtaliya" ölkənin yeni istehsal və təşkilat formalarının tətbiq olunduğu yeniliklərə əsaslanan bölgələridir (Bianchini, 1991).

Fransız iqtisadçıların kapitalizmin tarixi inkişaf prosesini izah etməyə çalışdığı "Tənzimləmə

Məktəbi" (The regulation school, French: l'école de la régulation) Şumpeter yanaşması ilə Kondrayatevin kapitalizmin kriz dalğalarının birləşdirərək fordizmi və post-fordizmi yığım rejimi (regime of accumulation) və tənzimləmə forması (mode of regulation) ilə əlaqələndirmişdir. Məqalədə tənzimləmə məktəbinə müraciət eməklə, istehsal forması ilə dövlət idarəçiliyi arasındakı sosial, siyasi və institusional əlaqələrin təhlili daha da aydın olmuşdur.

Fordist və post-fordist istehsal formaları yalnız sənaye mühəndisliyi ilə əlaqəli bir anlayış deyil, həm də təşkilat, ictimai münasibətlər, sosial quruluş, dövlətin rolu və mövcud iqtisadi şərtlərə uyğun tənzimləmə forması kimi məsələləri əhatə edir. Ölkədəki iqtisadi fəaliyyətlə məşğul olan özəl təşkilatlar kimi, dövlət qurumları da mövcud ictimai quruluşa uyğun bir təşkilat modelini qəbul etməyə meyllidirlər.

Məqalənin geniş nəzəri diapazonu səbəbindən fordist və post-fordist inkişaf mərhələlərini, xüsusən də post-sovet auditoriyası üçün bir nümunə ilə qısaca ümumiləşdirmək mümkündür. Məsələn, AvtoVAZ-ın eyni VAZ-2107 modelini 1982-ci ildən 2012-ci ilə qədər təxminən 30 il ərzində istehsal etməsinin əsas səbəbi post-fordist istehsal təşkilatılanmasına keçə bilməməsidir. Post-fordist istehsal təşkilatlanmasının idarəetmə yanaşmalarının aktuallığı təkcə özəl sektorda deyil, həm də dövlət idarəçiliyində özünü göstərir. Çünki, ölkədə iqtisadi fəaliyyətlə məşğul olan özəl təşkilatlar kimi, dövlət qurumları da mövcud ictimai quruluşa uyğun təşkilatlanma modelinin tətbiqi meylindədirlər. Dövlət idarəçiliyi sahəsində, post-fordist istehsal üsuluna uyğun olan bütün yeni yanaşmalar "yeni dövlət inzibatçılığı" (New Public Administration) və "yeni dövlət menecmenti" (New Public Management) olaraq adlandırılmışdır. Son illərdə Azərbaycanda dövlət idarəçiliyi sahəsində bir çox inzibati islahatlar aparılmışdır. Bu islahatlara özəlləşdirmə, əks mərkəzləşdirmə, yeni hüquqi statusların verilməsi, yenidənqurma, idarəetmə, hesabatlılıq, şəffaflıq, rəqəmsallaşma və vətəndaşların ehtiyaclarını ödəmək kimi bir çox yenilik daxildir.

Bu yeniliklərin tətbiqindəki fundamental səbəblərin nəzərə alınmaması, praktiki icraatda çox sayda əngəllərin və istənilməyən nəticələrin meydana gəlməsinə səbəb ola bilir. Məqalədə ilk öncə fordizm və post-fordizm başlıca prinsipləri üzərində durulmuş daha sonra müqayisəli təhlil edilmişdir. Ayrıca, tənzimləmə formaları və yığım rejimləri çərçivəsində dəyərləndirilərək yeni dövlət idarəçiliyi anlayışları ilə əlaqələndirilmişdir. Nəticə olaraq fordist və post-fordist təşkilatlanma modelinə aid dövlətin formalaşan rolunun başlıca xüsusiyyətləri təyin edilmişdir.

## FORDİST İSTEHSAL TƏŞKİLATLANMASINDA DÖVLƏTİN ROLU

Fordizm kapitalizmin inkişaf mərhələlərindən biri hesab edilə bilər. Hər mərhələnin fordizm kimi öz istehsal və istehlak xüsusiyyətləri var idi. Kütləvi istehsal və kütləvi istehlak ilə xarakterizə olunan fordizm, mövcud vəziyyətə uyğun olaraq xüsusi bir təşkilat modeli irəli sürür. Bu təşkilat modeli Henry Ford tərəfindən avtomobillərin kütləvi istehsalı üçün montaj xəttinin inşasına uyğun olaraq hazırlanmışdır.

Fordist təşkilatlanma modeli, eyni zamanda F. Taylorun görülən işləri hissələrə bölməklə məhsuldarlığı artırmağın ən sadə və ən uyğun yolunu seçməyi nəzərdə tutan "elmi metod" yanaşmasını da istifadə edir (Pollard 1996, s.30). Taylordan fərqli olaraq, fordun fikrincə, kütləvi istehsala əsaslanan təşkilati modelin tətbiqi kütləvi istehlak, xüsusi məşğulluq sisteminə və yeni sosial quruluşun formalaşması kimi daha geniş nəticələrə səbəb olur. Ford sadəcə istehsal məsələləri ilə yetinməyib, işçilərə verdiyi yüksək maaşla istehlakın düzgün ailə həyatına və əxlaqi dəyərlərə uyğun həyata keçirilməsinin nəzarətiylə də məşğul olmuşdur. Beləliklə, həm istehsalı, həm də istehlakı istiqamətləndirəcək fordist sistemin iqtisadiyyatı istiqamətləndirə biləcəyinə inanırdı (Harvey, 2012). Bu səbəbdən, Keynesçi makroiqtisadi politikaların aktual olduğu dövrlərdə fordist istehsalı yüksək olan ölkələrin sosial dövlət (rifah dövləti) politikalarını həyata keçirdiyini görmək olar (Harvey, 2020).

Fərqli şərtlərdə öz aktuallığın qoruyan fordizm, 1945 və 1970 illəri arasında dünyada əsas təşkilatlanma modeli kimi öz varlığını davam etmişdir. Günümüzdə əsas olmasa belə, fordist təşkilat modelinin tətbiq edildiyi nümunələr vardır. Bu nümunələr daha çox yeni dövlət

idarəçiliyi yanaşmasını mənimsəməyən ölkələrin dövlət qurumlarında və istehlak tələbinin yüksək olduğu məhsulların istehsalını həyata keçirən şirkətlərdə öz əksini tapmışdır.

Məhsulların standart kütləvi istehsalını təmin edən fordist təşkilatlanma, muzdlu sinifin istehlakçı olaraq yüksəlişini, əməyin həm iş yerində, həmdə evdə formalaşmasını məqsəd almışdır (Sakli, 2008). Bu çərçivədə fordizmin və yığım rejiminin qısaca aşağıdakı başlıca xüsusiyyətlərini qeyd etmək mümkündür:

1. Kütləvi istehsal və istehlak – istehsal konkret müştərilərə deyil, cəmiyyətin ümumi tələbinə hədəflənmişdir. Bu səbəbdən kütləvi istehsalın təşkilatlanması və formalaşması nəzərdə tutulur.
2. Məhsullarda yüksək standartlaşma - standart məhsullar əvvəlcədən müəyyən edilmiş kütləvi istehlak profilinə uyğun olaraq dizayn edilir və istehsal olunur. Standartlaşdırma kütləvi istehsalın təmin edilməsinə şərait yaradır.
3. Çevik (elastik) olmayan istehsal prosesi: istehsal prosesi standart əmtəənin kütləvi istehsalı üçün nəzərdə tutulduğundan, malın keyfiyyətinin asan dəyişməsi üçün uyğun deyil. Rutin işləri yerinə yetirəcək işçi qüvvəsi istehsal xəttində işlədildiyi üçün yalnız standart məhsul istehsal etmək imkanı mövcuddur.
4. İşin təşkilində yeni texnologiyalardan istifadə edilir: Rutin işləri görməsi gözlənilən işçi qüvvəsi əvəzinə maşınlardan istifadə olunur və məhsuldarlığı artırmaq üçün yeni texnologiyalar və işçi qüvvəsinin müxtəlif kombinasiyaları sınaqdan keçirilir və istifadə olunur.
5. Rutin işləri yerinə yetirən yarı təhsilli işçi qüvvəsinin istifadəsi nəzərdə tutulur: Seriyalı və kütləvi istehsal xəttində standart məhsulun müəyyən hissəsində öz vəzifələrini yerinə yetirəcək və asanlıqla əvəz edilə bilən işçi qüvvəsi işə salınır.
6. Keynesçi iqtisadi politikalar və bazar tənzimlənməsi: Lazımi kütləvi tələbi təmin etmək üçün dövlətin müdaxiləsi ilə inkişaf etdirilən sənayeləşməyə üstünlük verilir və Fordist sistemin zəif nöqtəsi olan kütləvi tələbatın rifah dövləti politikaları ilə yaradılması arzu edilir.
7. Digər sektorlar üçün həllediciddir və izafi dəyərin formalaşmasında üstünlük təşkil edir: iqtisadiyyatda əsas çəki kütləvi istehsal vahidlərinin üzərinə düşür, digər istehsal vahidləri isə bu sistemə uyğun kiçik sistemlər olaraq qalır.
8. Bu, hegemoniyalı bir xüsusiyyət daşıyır. Güclü yönləndirmə və inteqrasiya meyli var. Şəxslərin şəxsi həyatlarına qədər izlənilməklə və yönləndirilərək sistemə uyğunluqlarının təmin edilməsinə çalışılır.
9. Həyat tərzinin tənzimlənməsi üsuludur: İnsanları əvvəlcə gəlirlə təmin edib, sonra bu gəlirdən istifadə qaydalarını öyrədərək onların həyat tərzlərini bilavasitə müəyyən etmək cəhdi vardır (Saklı, 2013) (Eraydın, 1992, p.15).

Kapitalizmin fordist mərhələsi, işçi sinifi üçün sosial müdafiədən maliyyə haqlarına kimi vacib haqların qazanıldığı bir mərhələ olmuşdur (Sadioglu, 2020). Gramsciyə görə, Amerkanizm və Fordizm yeni insan və işçi növünü meydana gətimişdir. Ona görə Amerikan cəmiyyətində istehsal edə bilməyən torpaq sahibləri, institusionallaşmış dindarlar kimi feodal strukturların və aktorların olmaması, burjuva inkişafına maneə törətməmişdir. Bu səbəbdən iş həyatında Fordist təşkilatlanmanın həyata keçirilməsinə görə Avropadan daha irəlidə olmuşdur (Quentin və Geoffrey, 1971).

Bob Jessop fordizmi dörd fərqli səviyyədə izzah edir:

1. Kapitalist əmək prosesi: Daha yüksək məhsul istehsal etmək üçün nəzərdə tutulmuş yüksək mütəşəkkil, taylorist istehsal üsullarını tətbiq etməklə məhsulu artırmaq və işçilərdən tam istifadə etmək olar.
2. Yığım rejimi: genişləndirilmiş təkrar istehsalı təmin edən makro-iqtisadi rejim olan Fordizm, kütləvi istehsal və kütləvi istehlaka əsaslanan böyümə dairəsini əhatə edir. Bir çox tədqiqatlar Fordist rejiminin və onun təkrar istehsalının avtosentrik olduğunu, yəni kapitalın dövrəsinin ilk növbədə milli sərhədlərlə məhdudlaşdığını güman edir.
3. İqtisadi tənzimləmənin sosial forması: fordizm həm də iqtisadi tənzimləmənin sosial üsulu kimi, Fordist yığım rejimini dəstəkləyən, "rəhbər edən" və iqtisadi qərarların mərkəzləşdirilməmiş qərarları arasında uyğunluğu təşviq edən normalar, institutlar, təşkilati

formalar, sosial şəbəkələr və davranış nümunələri toplusu kimi də nəzərdən keçirilə bilər.

4. "Cəmiyyətləşmənin" ümumi üsulu: yəni institusional inteqrasiya və sosial birləşmə nümunəsi kimi qəbul edilən Fordizm sosial münasibətləri daha da kütləviyə doğru irəliləməsidir. Sosial həyatın təşkili getdikcə daha çox ondan ibarətdir ki, əhalinin böyük əksəriyyəti beşikdən məzara qədər öz ehtiyaclarını ödəmək üçün fərdi və yaxud sosial əmək haqqından asılıdır(Jessop, 1990).

Fordizmlə əlaqəli siyasi həyatın spesifik formaları onun iqtisadi məntiqindən bir qədər uzaqdır. Dövlət müdaxiləsi, iqtisadi və sosial planlaşdırma və artan inzibati ixtiyar, habelə dövlətin kollektiv istehlak və sosial rifahda genişlənən rolu vasitəsilə, fordist tənzimləmə rejimini asanlaşdırmaq üçün yenidən təşkil edilmişdir.

1929-cu il Böyük Böhran həm nəzəri sahədə, həm də Keynesin yeni paradiqması ilə və eyni zamanda rifah dövlətinin yaranması ilə təcrübədə ciddi transformasiyaya səbəb olmuşdur. Bu müddətdə xeyli ideoloji zədə almasına baxmayaraq, fordist yığım rejimi köklü dəyişikliyə məruz qalmamışdır. Fordist yığım rejimi rifah dövlət anlayışı ilə birlikdə varlığını sürdürmüşdür. Rifah dövləti, məlum olduğu kimi, iş dünyası (korporasiyalar), mütəşəkkil əmək (həmkarlar ittifaqı) və dövlət arasında hərtərəfli razılaşmaya əsaslanır və buna görə də iqtisadi tənzimləmə ilə yanaşı, siyasi proses xüsusiyyəti daşıyır. Bu istiqamətdə rifah dövlətinin nəzəriyyəsi və praktikasında Fordist yığım rejimi də təkrar istehsalı təmin edə bilirdi.

Fordist dövrdə dövlətin əsas xüsusiyyətini, sosial (rifah) dövlətinin praktikası və Keynesçi iqtisadi politikalar, Veberçi bürokratiya və statuslu bürokratdan ibarət kadr rejimi formalaşdırmışdır. Sosial dövlətə görə, bazar iqtisadiyyatı özlüyündə resursların bölüşdürülməsində ədalətli ola bilməz və iqtisadi inkişaf üçün dövlətin müdaxiləsi zəruridir. Bu dövrdə dövlətin ən mühüm funksiyası geniş sosial təminatın himayəsi altında işçilər üçün minimum həyat səviyyəsi yaratmaq və onları iqtisadi və sosial risklərdən qorumaq idi (Gül, 2004, s. 147). Keynesçilik isə dövlətin sosial-iqtisadi məhsulunu ən yüksək səviyyəyə qaldırdı. Resurslardan səmərəli istifadənin təmin edilməsi və gəlirlərin bölüşdürülməsinin tənzimlənməsi dövlətin əsas funksiyasına çevrilmişdir. Veber bürokratiyasına görə, dövlət qulluqçusu peşəkar şəkildə hazırlanır və karyera sisteminə uyğun olaraq işə götürülür. Veber konsepsiyasının iyerarxik quruluşu şəxsi münasibətlər şəklində deyil, formal şəkildə təşkil olunur. Kapitalist fordizmi, eynilə fabrikanın (zavodun) təşkili kimi investor və işçi arasındakı münasibətlərin qeyri şəxsiliyi ilə bağlıdır.

1929-cu il böhranı və İkinci Dünya Müharibəsi fordist dövləti formalaşdıran və dəstəkləyən amillərdən idi. İqtisadi böhran dövlətin iqtisadiyyatda rolu haqqında Keynesin fikirlərinin qəbul edilməsinə səbəb oldu. Beləliklə, dövlətin iqtisadiyyatda rolu və məhsuldarlığı artmış, əhalinin tam məşğulluğunun təmin edilməsi və dövlət xərcləri hesabına bazar tələbatının ödənilməsi politikaları həyata keçirilmişdir. İkinci Dünya Müharibəsindən sonra dağıntıların təmizlənməsi və infrastrukturun bərpası üçün hökumət təşəbbüsünə ehtiyac var idi. Bu, öz növbəsində, dövlətin infrastrukturun yenidən qurulması üçün iqtisadiyyatda daha çox yer tutmasına səbəb olmuşdur.

Dövlətin istehsalçı roluna çıxması onun iqtisadiyyatda iştirakının genişlənməsi, iqtisadi və sosial həyata təsirinin artması ilə dövlət idarəçiliyi fordist yanaşmanı qəbul etmişdir. Fordist dövləti sosial rifah anlayışı vasitəsilə fəhlə sinfinə daha çox təminat verərək işçi qüvvəsinin təkrar istehsalında böyük rol oynamışdır. Səhiyyə, təhsil və mənzil-təsərrüfat müəssisələri vasitəsilə fəhlə sinfinin rifahına töhfə vermiş və əmək sektorunun düzgün işləməsini təmin etmişdir. Fordist yığım rejimini tənzimləməklə dövlət təkrar istehsalın tərkib hissəsinə çevrilmişdir.

Fordizmdə kütləvi istehsala uyğun ictimai quruluşun formalaşması və saxlanması dövlət politikasına təsir etmişdir. Fordist dövlət idarəçiliyi bu politikaları vahid sistem kimi həyata keçirməkdən ibarətdir. Simon Klark Fordist dövləti Fordist istehsalın ictimailəşməsi forması kimi nəzərdən keçirir, onu cəmiyyətdəki insanların bu yığım rejiminə uyğunlaşmasına imkan verən struktur kimi görür (Clarke, 1991). Yəni dövlətin formalaşması Fordist yığım rejimini

təmin etməklə baş vermişdir. Fordist yığım rejimi iş təhlükəsizliyinin, obyektiv meyarlara əsaslanan iyerarxiyanın və rasionallığa əsaslanan idarəetmənin mövcud olduğu dövlət qulluğu sistemini (kadr rejimi) formalaşdırır. Məmurun qanuni statusu, onun səlahiyyətləri, məhsulu və onun müdafiəsinə əsaslanan kadr rejimi uzun müddət büdcəni öz mülahizəsinə uyğun idarə edən, müqəddəs və sorğulanmayan bir bürokratik təbəqənin yaranmasına səbəb olmuşdur.

## POST-FORDİST İSTEHSAL TƏŞKİLATLANMASINDA DÖVLƏTİN ROLU

1960-cı illərin ortalarından başlayaraq fordist rejimin yetərsizliyi ilə bağlı meydana gələn problemlərin müzakirəsinə başlanmışdır. David Harvey öz çalışmasının "Fordizimdən elastik yığıma" adlı başlığında bütün yetərsizliklərin səbəbini "sərtliliklə" (rigidity) əlaqələndirmişdir (Harvey, 2020). Qatı şəkildə tənzimlənmiş əmək və sərmayə münasibətləri, beynəlxalq rəqabətin artması, bazarın sakitləşməsi, məhsuldarlığın azalması kapitalizmin yeni yığım rejimi olan post fordizmə keçməsinə səbəb olmuşdur. Post-fordizim şirkətlərin elastik təşkilatlanma modelinə keçməsi, dövlətin də xüsusiylə əmək və maliyyə münasibətləri sahəsində yumuşaltma politikasının həyata keçirilməsini öngörür.

Fordizm krizi ilə əlaqəli post-fordizmin yüksəlişi səbəblərini aşağıdakı kimi xülasələndirmək mümkündür:

1. Bazara adaptasiyanın çətinliyi: Tələb və təklif balansınadakı dəyişikliklərə adaptasiya ola bilməmək. Fordist kütləvi istehsalın həyata keçirilməsi tələb və təklif balansındakı dəyişikliklərə uyğunlaşmada çətinlik yaratmaqtadır.
2. Məhsulun çeşitli olmaması: İstehlakçının fərqli istəklərinə uyğun istehsalın təmin edilə bilməməsi.
3. Az sayıda istehsal: Fordizm standartlaşmış istehsalı əsas aldığına görə az sayıda məhsulların istehsalını təmin edə bilmək üçün təşkilati imkanları yetərsiz idi.
4. İstehsal prosesinin ləngiməsi: Fordist təşkilatların şaquli iyerarxiyalı strukturu istehsal prosesindəki dəyişikliklərin həyata keçməsini olduqca ləngidir. Təşkilatın üfiqi strukturlaşması qərarvermə prosesini sürətləndirir və istehsal prosesinin sürətini artırır.
5. İş və əməyin sərtliyi: İşçilərin dəyişən məhsul çeşitliyi və miqdarına görə işçinin birdən çox funksiyanı yerinə yetiməsi ehtiyacı yaratmışdır. Bu eyni zamanda təşkilatın dəyişən hədəflərinə görə təşkilati strukturun və işçilərin vəzifələndirilməsində elastikliyin təmin edilməsi ilə mümkündür.

1970-ci illərin iqtisadi böhranının gətirdiyi bir çox sahədəki dəyişikliklər, fordizmdən post-fordizmə keçidlə paralel reallaşırdı. Bu keçid kapitalizmin inkişafının yeni mərhələsini, sənaye inqilabını, yeni yığım tərzinin və tənzimləmə formasının başladığı dövrü izah edir. Yeni mərhələdə dəyişiklik qanunauyğunluqlarını izah etməyə çalışan tənzimləmə yanaşmasının bir hissəsi olaraq bir neçə nəzəriyyəni birləşdirməyə cəhd edilmişdir.

Post-Fordizmin mahiyyətini dövlət idarəçiliyi baxımından anlamaq üçün tənzimləmə nəzəriyyəsi, çevik ixtisaslaşma və neo-şumpeteryan yanaşma üzərində dayanmaq lazımdır. Bu anlayışlar yeni ictimai münasibətlərin nəzəri əsasını təşkil edir və hansı səbəblərdən post-fordist istehsal formasının müəyyən edildiyi, yeni istehsal üsulunun dövlət idarəçiliyini necə formalaşdırdığı, iqtisadi münasibətlərdə dövlətin roluna hansı amillərin təsir göstərməsi kimi suallara cavab verə bilər.

## TƏNZİMLƏMƏ YANAŞMASI

Tənzimləmə yanaşmasının yaranmasının səbəbi fransız iqtisadçılarının 1973-cü ildən sonrakı iqtisadi böhranla bağlı suallara cavab axtarışları ilə bağlıdır. "Uzunmüddətli iqtisadi nizamı necə təmin etmək olar?", "Yeni iqtisadi nizamı necə təmin etmək olar?", "İqtisadi böhranların əsas səbəbləri hansılardır?" kimi suallar tənzimləmə yanaşmasının maraqlandığı suallardır. Təbii ki, siyasi iqtisadiyyat nöqteyi-nəzərindən bu sualların müxtəlif cavablarını nəzərə alan tənzimləmə yanaşması müxtəlif nəzəriyyələri əhatə etməklə təhlil etməyi cəhd edilmişdir (Mesut, 2011). Bu nəzəriyyələrə iqtisadi tarazlığa neoklassik yanaşma, tələb və təklif arasında tarazlığın olmadığını iddia edən disbalans nəzəriyyəsi, dünya sistemi nəzəriyyəsi və

monopolist (inhisar) investisiya (monopol sərmayə) yanaşması, çevik ixtisaslaşma (Baran və Sweezy, 1966), texno-iqtisadi yanaşma və yaradıcı məhv kimi nəzəriyyələr daxildir.

Sənaye cəmiyyətinin formalaşması əsasən kapital yığımına əsaslanan əmək sahəsinin dəyişikliklərinə səbəb oldu. Bu səbəbdən tənzimləmə məktəbinin əsas anlayışlarından biri "yığım rejimi"dir (Tickell və Peck, 1995). Yığım rejimi, alınıb satılan mal və xidmətlərin istehsalı və istehlakının bir növüdür. Yığım rejiminə istehsal və əmək normaları, gəlir bölgüsü prinsipləri, bazarda tələbin növləri və istehlak normaları, sənaye və ticarətin birgə idarə edilməsi qaydaları, iqtisadiyyatın sektorları arasında dəyişikliklərin formaları və əlaqələri daxildir (Saklı, 2013). Tənzimləmə məktəbinə görə sənaye iqtisadiyyatı kapital yığımına əsaslanır. Kapitalın yığılmasının təhlili kapitalist iqtisadiyyatın inkişaf dinamikasının təhlilinə gətirib çıxarmışdır.

Tənzimləmə yanaşmasına görə, dövlət iqtisadi inkişafın müxtəlif mərhələlərində kapitalın yığılmasını təmin etmək üçün bazar və ya müdaxiləçi tənzimləmə formasını seçir. Müxtəlif mərhələlərdə dövlət tərəfindən qəbul edilən bu qaydalar daha da böyüməyə və investisiyanın qlobal miqyas almasına səbəb olmuşdur. Məsələn, sənayeləşmənin ilkin mərhələlərində dövlət təhkimliləri torpaqdan ayırır və onları fabriklərdə işləməyə həvəsləndirirdi.

Dövlət idarəçiliyi nöqteyi-nəzərindən tənzimləmə forması iqtisadi böhranların gətirdiyi yeni yığım rejiminə imkan verən və ictimai təkrar istehsala aparan institusional təcrübələr, normalar və politikalar məcmusudur. Lipitz Allen (1987) reproduksiya kontekstində tənzimləmə rejimini nəzərdən keçirir. O, yığım rejimini "ictimai istehsalın istehlak və yığım arasında bölüşdürülməsində uzunmüddətli sabitlik" kimi müəyyən edir. Eyni zamanda, o, tənzimləmə formasını yığıma təsir edən davranış qaydaları və normaları kimi müəyyən edir (Lipietz, 1987, s.15). Böhranın olması tənzimləmə metodunun yığım rejiminə uyğun gəlmədiyini göstərir. Zamanla tənzimləmə nəzəriyyəsi müxtəlif sahələrdə müxtəlif anlayışlar vasitəsilə təhlil edilərək daha mürəkkəb bir çərçivəyə çevrilmişdir. Bob Jessop araşdırmasında böyümə rejimi, beynəlxalq strategiya, regional üstünlüklər və hegemon bloklar kimi sahələri misal olaraq verir. Beləliklə, tənzimləmə məktəbi müxtəlif axınlara bölünmüşdür (Jessop, 1988).

Tənzimləmə yanaşmasının fransız mənşəli olduğunu nəzərə alaraq, ingilisdilli, rusdilli və türkdilli mənbələrin geniş təhlili nəticəsində tarixi inkişaf prosesini qiymətləndirən və dövlətin rolunu nəzərə alan yalnız iki mənbə müəyyən edilmişdir.[1] 2000-ci ildə nəşr olunan "Post-Fordist konsepsiyalar (tənqidi təhlil)" əsərində Şevçuk A.V. tarixi inkişaf prosesinə uyğun olaraq toplanma rejimini və tənzimləmə formasını təsnif etmişdir (Şevçuk, 2000, s. 15). Tarixi inkişaf prosesində yığım rejimi və tənzimləmə forması baxımından dövlət qulluğunun oxşar təsnifatını Aslan O. E.-nin 2005-ci ildə nəşr olunan "Mülki kadr rejimi: status hüququndan çevikliyə" adlı əsərində təqdim olunur. (Aslan, 2005, s.25). Bu mənbələrin müqayisəli şəkildə xülasəsi aşağıdakı cədvəldə təqdim edilmişdir.

[1]Tənzimləmə məktəbi və post fordizmlə əlaqəli Azərbaycan dilli heç bir ədəbiyyat tapılmamışdır.

**Cədvəl 1. Fordist Və Post-Fordist Ştatlarında Yığım Rejimi Və Tənzimləmə Formaları**

| **Şevçuk A.V.** | **...- 1913** | **1914-1945** | **1946-1973** | **1974-...** |
|---|---|---|---|---|
| **Yığım Rejimi** | Ekstensiv | İntensivliyin yaranması | İntensiv | Fordizmin Krizi |
| | | | (Fordist) | Çevikliyin yaranması |
| | | | | Neofordism |
| **Sosial Tənzimləmə forması** | Rəqabətçi | Rəqabətçiliyin krizisi | Monopolist | Monopolistçiliyin krizisi |
| | | | (İnzibatçı, fordist keynesçi) | |
| **Aslan O.E.** | **1850-1945** | | **1945-1980** | **1980** |
| **Yığım rejimi** | Ekstensiv | | İntensiv | Çevik Yığım |
| | | | (Fordist yığım) | (Post-fordist yığım ) |
| **Tənzimləmə forması** | Rəqabətçi | | Monopolist | Qlobal monopolist |
| | | | (fordizm) | (Post-fordizm) |
| **Dövlət** | Liberal | | Fordist | Postfordist |

***Mənbə:*** *Müəllif tərəfindən iki fərqli araşdırmanın təhlili əsasında tərtib edilmişdir. (Aslan O. E., 2005, s. 15) (Şevçuk A. V., 2000, s. 24)*

Aslan O. E. 1914-1945 və 1973-1980-ci illəri keçid və yenidənqurma dövrləri kimi xarakterizə edir. Onun fikrincə, çevik yığım rejimi ilə səciyyələnən post-fordist dövrdə qloballaşmanın artması və yığımın qlobal miqyası ierarxik qaydada qlobal monopolistlərin dövlətdən yuxarıda yer tutmasına səbəb olmuşdur. Qlobal inhisarçıların tənzimlənməsində əsas təyinedici aktor dövlət deyil, bu qlobal inhisarçılardır. Fikrimcə, bu yanaşma təkcə post-fordist dövrdə dövlətin rolunu deyil, həm də onun antoloji mahiyyətini şübhə altına alır.

Yığım, qoyulmuş kapitala istehsal kapitalının əlavə edilməsi prosesi kimi kapitalizm və onun dinamikası ilə sıx bağlıdır. Son üç əsrdə biz müxtəlif növ kapital yığımını görmüşük. Bunların içərisində üç əsas rejim var: ekstensiv, intensiv və çevik. Ekstensiv yığım rejimində texnologiya hələ tam inkişaf etdirilmədiyi üçün iş saatlarının uzadılması hesabına izafi dəyər artırılırdı. Dövlət iqtisadi və sosial həyata minimum müdaxilə edərək, iqtisadi fəaliyyətin hüquqi bazasını tənzimləyirdi. Fəhlə sinfinin həyat şəraitini bazar müəyyən edirdi. Ümumilikdə kapitalın ekstensiv yığım rejimi yeni fəaliyyət sahələrinə yayılmışdır. Fərqli olaraq, intensiv yığım rejimində mövcud kapitalist fəaliyyətlər yenidən təşkil edilir və izafi dəyərin nisbi payını artırmaq üçün toplanır (Jessop, 1990). Fordist istehsal təşkilatlanması monopol tənzimləmə və intensiv yığım rejimi altında 1970-ci illərə qədər sabit qalmışdır.

Ekstensiv yığım rejimindən fərqli olaraq intensiv yığım rejimində texnologiya fəal şəkildə istifadə olunurdu. Fordist istehsalın təşkilinə aid olan intensiv yığım rejiminin tənzimlənməsi formasına kütləvi marketinq, monopolist rəqabət və dövlətin aktiv müdaxiləsi daxildir. İş şəraitinin idarə edilməsi kütləvi marketinqə uyğun təşkil olunur. Beləliklə, sabit qalmaq üçün işçilərin maaşları qiymət dəyişikliklərinə uyğun olaraq tənzimlənirdi (Lipietz, 1987, s.34). Kapitalizm "hamı üçün iş təhlükəsizliyi və məşğulluq" və "hamı üçün istehlak imkanları" deyiminə uyğun olaraq intensiv yığılma rejimində təşkil edilmişdir. Fordizm dövrü hesab edilən intensiv yığım rejimi xüsusi əmək prosesinə və yarımavtomat konveyerdə istehsala əsaslanır.

Fordizm əmək prosesinin mexanikləşdirilməsini təkmilləşdirərək əqli və əl əməyi arasındakı fərqi gücləndirmişdir. İşçilərin işinin sürəti üzərində nəzarəti fordist istehsal təşkilatlanması sistemi tamamilə idarəedənlərə vermişdir. 1960-cı illərdən başlayaraq Fordizmin əmək məhsuldarlığını artıra bilməməsinin əsas səbəbi, məhsuldarlığın artmasına mane olan həddən artıq əmək bölgüsü və istehsal sisteminin tədricən öz çevikliyini itirməsidir (Aglietta, 1987, s.55). Beləliklə iqtisadi sistemdəki aşağı artım tempi və yüksək işsizlik, inflyasiya, bazardakı passivlik kimi böhranlar yeni yığım rejimi və tənzimləmə formasının meydana gəlməsinə səbəb olmuşdur.

Çevik yığım rejimində post-fordist istehsalın təşkilindəki dəyişiklikləri aşağıdakı kimi qeyd etmək olar:

1. Əməyin və istehsalın təşkilində informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə edilməsi,

2. Yeni informasiya-kommunikasiya texnologiyaları əsasında xidmət sektorunun sənayeləşdirilməsi,

3. Kənd təsərrüfatının sənayeləşməsi və onun milli gəlirə töhfəsinin azalması;

4. Əmək məhsuldarlığının və şəxsi gəlirin artımının istehlaka təsiri;

5. Həyat tərzinin plürallaşdırılması və fərdiləşdirilməsi: əmək haqqı ilə əmək münasibətlərinin pozulmasına əsaslanır (Esser, 1994, s.77).

Tənzimləmə forması mövcud yığım rejiminə uyğun olaraq institusional strukturlarla ictimai münasibətləri yenidən qurur. Burada dövlət ən mühüm tənzimləmə subyekti olmaqla, müxtəlif sahələrdə yaranan münaqişələrin həlli funksiyasını yerinə yetirir. Yeni mərhələdə dövlətin rolunu izah edən qlobal inhisarçı tənzimləmənin post-fordist forması onun dəyişikliklərini aşağıdakılarla ifadə edir:

1. Qabaqcıl istehsal texnologiyalarına əsaslanan sektor və sənaye inteqrasiyasında yeni əlaqələr; sənaye və maliyyə kapitalı arasında münasibətlərdə beynəlxalq proseslərin intensivləşməsi;

2. Sosial təminat sisteminin institusional parçalanması və tənəzzülü;

3. Kütləvi işsizliyin təsiri altında əmək münasibətlərinin heterojenliyi və həmkarlar ittifaqlarının zəifləməsi;

4. Xüsusilə texnologiya sektorunda şirkətlərin yeni təşkilat formalarının yaranması (Esser, 1994, s. 78-79).

Post-fordizmdə neoliberal siyasət intensiv yığım rejimini əvəz edən çevik yığım rejiminin normativ formasının əsasını təşkil edir. Neoliberal və bazar yönümlü tənzimləmə forması sosial (rifah) dövləti anlayışında və sosial politikalarıda dövlətin geri çəkilməsində aydın görünür. Beləliklə, post-fordizmdə hakim olan qlobal monopolist (çevik) tənzimləmə formasında liberallaşdırma politikaları yeni investisiya imkanları yaratmağa başlamışdır. Beləliklə, "Laissez-faire" və "laissez-passer" anlayışları yenidən bazara hakim olmağa başlamışdır (Dereli, 2023, s.124). Qloballaşmaya paralel olaraq neoliberal siyasət aparılaraq çevik yığım, dövlətin iqtisadi və sosial həyata müdaxiləsini məhdudlaşdırmış və dövlətin ixtisarı prosesini başlatmışdır (Heintz, 2012, s.13).

Beləliklə, post-fordist dövrdə kütləvi istehsal istehlakçıların üstünlüklərinə əsaslanan şaxələndirilmiş istehsalla əvəz olunmuş, yeni informasiya texnologiyalarının tətbiqi ilə istehsal daha çevik, əməyin və iş proseslərinin təşkili daha sərbəst olmuş, istehsalın avtomatlaşdırılması və robotlaşdırılması prosesi getmişdir. Çevik yığımın post-fordist rejimi altında neoliberal əməyə qarşı istehsal və məşğulluq inkişaf etmişdir. Kapitalın azadlığını təmin edən dövlət politikası gücləndirilmişdir. Post-fordizmin dövlətin roluna təsirləri, dövlətin ölçüsünün azalması, özəlləşdirmə, istehsalda dövlət sektorunun payının azalması, dövlət qurumlarında yeni iş yerlərinin məhdudlaşdırılması, əks-mərkəzsizləşdirmə və idarələşmə olmuşdur (Bağırzade, 2010).

## ÇEVİK İXTİSASLAŞMA

Post fordizmin yüksəlməsinin başlıca amilinin yalnız yeni yığım rejimindən və yalnız tənzimləmə formasıdan və istehsalın fərqli təşkilatlanmasından asılı olduğunu söyləmək çox çətindir. Çünki yeni dəyişikliklər bütün sahələrdə demək olar ki, paralel gerçəkləşməktədir. Buna baxmayaraq yığım rejiminə və tənzimləmə formasına istehsalın yeni təşkilatlanmasını təsir edən əsas amil kimi götürərək yeni dövrü təhlil etmək mümkündür. Bu çərçivədə istehsal və əmək prosesi sisteminin başlıca xüsusiyyətləri üzrərində duraraq fordizmi və post fordizmi anlaya bilərik. İstehsal sistemi cəhətindən bir növ məhsulun kütləvi istehsalına əsaslanan fordizmin yerinə, çeşidli məhsulların az sayıda istehsalını həyata keçirən tam zamanında istehsalın yəni post fordizmin gəldiyini demək mümkündür. Çevik yığım (flexible accumulation) rejiminə əsaslanan Post fordist istehsal təşkilatlanması əmək proseslərində çevik məşğulluq və çevik ixtisaslaşma şərtlərini meydana gətirmişdir.

Çevik (Elastik) İxtisaslaşma – İlk dəfə Michael Piore və Charles Sabel tərəfindən 1984 tarixində yayınlanmış "İkinci Sənaye Bölgüsü: Rifah İmkanları" (The Second İndustrial Divide:

Possibilities For Prosperity) adlı kitabında, kütləvi istehsal krizi ilə bağlı dəyərləndirmələrində termin olaraq qeyd etmişdir (Piore and Sabel, 1984, s.28). Çevik ixtisaslaşma bazar şərtlərinin dəyişim sürətinin artdığı, çoxsaylı istehlak orientasiyasına uyğun təşkilati bir taktikanı xarakterizə edir. Hamının istehlak edəbiləcəyi ümumi məhsul yerinə şirkətlər, müxtəlif istehlakçı qruplarına və onların zövqünə və eyni zamanda dəbə (modaya) uyğun muxtəlif məhsulların istehsal edilməsini strategiyasına keçmişdilər. İqtisadiyyatda xidmət və informasiya texnologiyaları sektorunun çəkisinin artması, bu sahələrdəki daimi innovasiya və yeniliklərin çevik ixtisaslaşmanın əhəmiyyətini artırmışdır. Xammaldan hazır məhsula qədər istehsalı təmin edən şirkətlərdən, istehsalın bir hissəsini həyata keçirən ixtisaslaşmış parçalanmış şirkətlərə keçid olmuşdur. İnformasiya texnologiyaları eyni zamanda istehlakçı vərdişlərin və bazar dinamikasını sürətli izləməyə imkan yaratmışdır. Bu çeviklik əmək münasibətlərində, işçilərin bacarıq və biliklərinin dəyərləndirməsinə və ümumilikdə insan resurslarının menecmenti politikasına təsir göstərmişdir. Şirkətlər spesifik məhsulların istehsalı üçün, nüvə işçilərinin bacarıq və biliklərindəki çevikliyin və müxtəlifliyin əhəmiyyətli olduğunu anlamışdırlar.

**Cədvəl 2. Fordist və Postfordist İstehsal Prosesi**

| Fordizm | Post Fordizm |
|---|---|
| Eyni məhsulun kütləvi istehsalı | Kiçik partiyalarda istehsal |
| Vahidlik və standartlaşdırma | Müxtəlif məhsul növlərinin çevik və kiçik həcmdə istehsalı |
| Böyük anbarlar və inventarizasiya | Anbar yoxdur |
| Gecikmiş keyfiyyət nəzarəti (rədd və səhvlər gec aşkarlanır) | Keyfiyyətə nəzarət istehsal prosesinin bir hissəsidir. (səhvlərin dərhal aşkarlanması) |
| Qüsurların gizlədilməsi | qüsurlu hissələrin dərhal ləğv edilməsi |
| İstehsal zamanında itkilər (uzun quraşdırma müddətləri, nasaz hissələri, inventarizasiya öhdəlikləri) | İtirilmiş vaxtın azaldılması, "iş gününün məsaməliliyinin" azalması |
| Resursların əsas alınması | Tələbin əsas alınması |
| Şaquli və (bəzi hallarda) üfüqi inteqrasiya | (Kvazi -) şaquli inteqrasiya, subpodratçılıq |
| Əmək haqqının nəzarəti ilə xərclərin azaldılması | İnteqrasiyalı uzunmüddətli planlaşdırma |

***Mənbə:*** *David Harvey, The Condition of Postmodernity "An Enquiry into the Origins of Cultural Change", Blackwell Publishers, 1992, 177.*

Yuxarıdakı cədvəldə post fordist istehsal təşkilatlanmasının keyfiyyətcə xüsusiyyətləri qeyd edilmişdir. Bu xüsusiyyətlərin kəmiyyətcə nəticələri, yəni post fordist istehsala keçid; ambarların 90% azalmasına, istehsala hazırlıq prosesinin 75% azalmasına, satış xərclərinin 15-40% azalmasına, işçi sayının 10-30% azalmasına və məhsulun keyfiyyətinin 75-90% artmasına səbəb olmuşdur (Aslan, 2005, s.105).

İstehsalın avtomatlaşması və robotlaşması, xidmət sektorunda informasiya texnologiyalarının geniş istifadəsi əməyə olan ehtiyacı qismən azaltmışdır. Xidmət sektorunun yeni gəlir mənbəyinə çevrilməsi, bu sektor üzrə yeni iş yerlərinin meydana gəlməsinə səbəb olmuşdur. Beləliklə, post-fordizmdə xidmət sektorunun (üçüncül sektorun) çəkisi artaraq sənaye sektorunu (ikincil sektoru) keçmişdir. Yeni istehsal təşkilatlanmasının ictimai və iqtisadi mahiyyətini neo-şumpeterçi, çevik ixtisaslaşma və tənzimləmə məktəbi anlayışları formalaşdırır. Bu anlayışların başlıca xüsusiyyəti 1970-ci illərdə meydana gələn mövcud kütləvi istehsalı təmin edən bazarın zəyifləməsi, yarımçıq ixtisaslaşmış "mavi yaxalı" işçilərin əhəmiyyətinin azaldığı, ağ yaxalı işçilərin əhamiyyətinin artdığı, milli dövlətlərin tam məşğulluq cəhtlərinin uğursuz olduğu yeni dövrə uyğunlaşma mahiyyəti daşıyır. Post fordizm dövrü xidmət sektorununda sənaye sektoru kimi izafi dəyər yaradan bir struktura çevrilmiş və xidmət əsaslı yeni iş yerlərinin

yaranmasına səbəb olmuşdur.

**Cədvəl 3. Fordizmdə və Post Fordizmdə İş Nizamı**

| FORDİZM | POST-FORDİZM |
|---|---|
| İşçi tərəfindən tək vəzifənin/tapşırığın icrası | Çox sayda vəzifə/tapşırıq |
| Dərəcəyə görə ödəniş (işdən asılı olaraq ödəniş meyarları) | Fərdi ödəniş (ətraflı bonus sistem) |
| Yüksək dərəcədə ixtisaslaşma | Vəzifə ayrımının qaldırılması |
| İşdə təlim yoxdur və ya çox azdır | Uzun iş təlimləri |
| Şaquli əməyin təşkili | Daha çox üfüqi əmək təşkili |
| Öyrənmə təcrübəsi yoxdur | İşdə öyrənmə |
| işçinin məsuliyyətinin azaldılmasına vurğu (intizam işçi qüvvəsi) | İşçinin məsuliyyətinə vurğu |

***Mənbə:*** *David Harvey, The Condition of Postmodernity "An Enquiry into the Origins of Cultural Change", Blackwell Publishers, 1992, 177-178. /Swyngedouw E. 1986. The Socio-Spatial Implications of Innovations in Industrial Organisation. Working Paper. No. 20. Lille: Johns Hopkins European Center for Regional Planning and Research.*

Henry Ford işçiyə stasionarlıq verdikdən sonra əməyin məhsuldarlığında önəmli dərəcədə artışlar olmuşdur. 1911-ci ildə dərc olunan Frederick Taylorun yanaşması məhsuldarlığı artırmaq üçün əməyin təşkilatlanmasını başlıca hərəkətlərə əsaslanan parçalanmış işlərə ayırmaqda görürdü (Taylor, 1911). İşçidən tək bir vəzifəni (tapşırığı) həyata keçirməyi tələb edən fordist yanaşma, öyrənmə təcrübəsi olmayan, aşağı kvalifikasiyalı işçilərin əməyindən faydalanmaq imkanı yaratmışdır. Eyni sadə işi təkrarlayan işçilərin, konkret iş parçası üzərində yüksək dərəcədə ixtisaslaşmasına səbəb olmuşdur. Texnologiyanın istehsalda aktiv istifadəsi rutin və parçalardan ibarət işlərin avtomatlaşdırılmasına və robotlaşmasına gətirmişdir. Beləliklə, Taylorçu mexanik işçilərə ehtiyac azalmış, çox sayda vəzifəni yerinə yetirə bilən, geniş ixtisaslaşmaya sahib, yüksək təhsilli, məhsuliyyətli işçilərə ehtiyac yaranmışdır. İşçilərin vəzifə və məhsuliyyətlərinin genişlənməsi təşkilat modelinin üfiqi forma almasına gətirmişdir. Bu səbəbdən yeni dövrün yığım və tənzimləmə formalarının dəyişikliyini qiymətləndirərkən Erik Swyngedouw, texnologiya və əmək prosesiləri üzərində daha çox durmuşdur (Moulaert and Erik, 2015).

Muzdlu işçilərin kapitalist sistemə uyğunlaşdırması, dövlətin də iştiraki ilə birlikdə uzun tarixi proses olmuşdur. Hər yeni nəslin əmək gücünün mövcud sərmayə yığımı məqsədinə, "işçi nəzarəti" adı altında uzlaşdırılması yetəri qədər çətin prosesdir. İlk öncə bu proses həm iş yerində, həm də ümumiyyətlə cəmiyyətdə bir çox repressiya, vərdiş və əməkdaşlıq fəaliyyətlərini tələb edir. Bu fəaliyyətlərin içinə fiziki və zehni əməyin üzərində təhsil, inandırma, səfərbərlik kimi sosyal nəzarət və bir sıra iqtisadi və siyasi dəyişikliklər tənzimləmə adı altında daxil edilmişdir. 1945-dən 1973-cü ilə qədər həyata keçirilən əməyin üzərindəki nəzarət praktikasını, texnoloji vəziyyəti, istehlak vərdişini və siyasi-iqtisadi hakimiyyəti mövcud yığım rejimini fordist monopol tənzimləmə (keynesçi tənzimləmə) olaraq adlandıra bilərik (Harvey, 1992, s. 177). 1973-cü ildən başlayaraq çevik əmək prosesi və bazarın yüksək dinamikası, istehlakın daimi dəyişməsi, istehsalın və marketinqin yeni sistemi dövrün fərqli siyasi iqtisad təcrübəsi, fordist yığım rejimindən elastik yığım rejiminə keçidin baş verdiyini söyləməyə əsas yaradır.

- Van Dijk çevik ixtisaslaşma anlayışının başlıca elementlərini aşağıdakı kimi qeyd edir:

Çoxməqsədli avadanlıq və innovasiya: Bacarıqlı işçi qüvvəsi, innovativ düşüncə tərzi ilə tələb olunan hər şeyi istehsal etmək üçün ümumi təyinatlı avadanlıqdan istifadə ediməsi.

- Müəssisələrin və ya kiçik sahibkar icmalarının klasterləri: fikir mübadiləsi üçün toxum yatağıdır. Fiziki yaxınlıq həm fikir mübadiləsini asanlaşdırır, həm də institutların inkişafını və onların müdaxilələrini asan və effektiv edir.
- Qarşılıqlı əlaqə/şəbəkələşmə: kiçik müəssisələrin, daha kiçik və daha böyük müəssisələr arasında subpodrat münasibətləri və əməkdaşlıq səylərinin güclənməsi.
- Kollektiv səmərəlilik: digər yenilikçi istehsalçıların fiziki mövcudluğunun nəticəsidir (Dijk, 1995, s.16).

Çevik ixtisaslaşma kiçik müəssisələrin müsbət rolunu və rəqabətlilik üstünlüyünü təmin edir. Müstəqil kiçik müəssisələr öz aralarında daha tez üfiqi və şaquli əlaqələri yarada bilir, əmək bölgüsünü və idarəetmə qərarlarını qısa bir zamanda qəbul etmək və dəyişmək imkanına sahibdirlər. Çevik ixtisaslaşmanın başlıca elementlərində təşkilati və istehsal prosesinə aid xüsuslar olmasına baxmayaraq, əsas amil multi bacarıqlara və biliklərə sahib işçilərin mövcudluğudur. Yeni yüksək kvalifikasiyalı işçilərin mövcudluğu eyni zamanda cəmiyyətin bütünlükdə yeni inkişaf mərhələsi ilə əlaqəlidir. Təbii ki, sənayeləşmənin ilk dövrlərində əhalinin böyük hissəsinin kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olduğu, təhsilin yalnız seçilmişlərə (aristokratlara) aid olduğu dövrlərdə kvalifikasiyalı və çox funksiyalı işçilərin kütləvi məşğulluğundan söz etmək qeyri mümkündür. Çevik ixtisaslaşma yanaşması dövlət qurumlarının təşkilati strukturunda da öz əksini tapmış, dövlət məmurlarının status əsaslı fəaliyyətini dəyişdirərək dövlət qurumlarında mütəxəssislərin və müqaviləli işçilərin sayının artmasına səbəb olmuşdur.

## NEO-ŞUMPETERÇİ NƏZƏRİYYƏ

Texnologiyanın ictimai münasibətlərdə mühüm amilə çevrilməsi kapitalist inkişaf prosesində texnoloji yeniliyin iqtisadi rolunun qiymətləndirilməsini zəruri etmişdir. Hazırda neoklassik və keynesçi iqtisadi yanaşmaların texnoloji inkişafı nəzərə ala bilməməsi texno-iqtisadi yanaşmanın prioritet olmasına səbəb olmuşdur (Jessop, 1993, s.11). Xüsusilə texnoloji inqilablar təkcə yeni məhsul növlərinin və istehsal üsullarının deyil, həm də cəmiyyətdə sosial, ictimai, siyasi, mədəni və iqtisadi dəyişikliklərə səbəb olur. Yeniliyin yığım mənbəyi olduğunu müdafiə edən Şumpeter iqtisadi yanaşması post-fordizmin yüksəlişini texnoloji paradiqmanın dəyişməsi kimi qiymətləndirir. 1970-ci illərin neft və kimya böhranları ilə paralel olaraq yaranan mikroelektron texnoloji inqilab, yeni paradiqmaya keçid və innovasiyalar vasitəsilə yığımın başlanğıcıdır. Post-fordizmdə geniş yayılmış neo-şumpeterci iqtisadi yanaşmanı daha yaxşı başa düşmək və müasir informasiya texnologiyaları cəmiyyətindəki dövlət və iqtisadi münasibətlərində şumpeter iqtisadi nəzəriyyələrinə qayıdış səbəbini müəyyən etmək üçün onun mülahizələri üzərində dayanmaqda fayda vardır.

Şumpeter (Schumpeter) iqtisadi anlamda müasir dövlətin varlılığının başlıca səbəbini özəl və ictimai (dövlət) mülkiyət anlayışın dəqiq formalaşması ilə əlaqələrir. İqtisadi proseslərin mərkəzinə maliyə vasitələrini qoyaraq, iqtisadi inkişafın və innovasiyanın yalnız borc götürülmüş pul vasitəsiylə həyata keçə bildiyini bildirir (Schumpeter, 1939, s.223). Rasionallıq mədəniyyət sahəsinə və yaşam tərzinə, hakimiyyətin seqmentlərinə və siyasət kimi ictimayətin bütün sahələrinə hökum sürməsi, kapitalizmin təkamülünə şərait yaratmaqdadır. Beləliklə, kapitalizm sadəcə iqtisadi anlayış olmaqdan çıxıb, ictimaiyyətin rasionallıq istəyinin yansıması olaraq özünü əks etdirir. İnstitusionallığın iqtisadi inkişafdakı rolunun əhəmiyyətini vurğulayaraq, sahibkarla birlikdə ailə, din, hökümət və dövlətin institusional funksiyaları üzərində durur. Şumpeter sərmayədarı kapitalizmin rasional elementi hesab edərək, sahibkarla sərmayədar arasında fərq qoyur. Sahibkarı istehsalı və innovasiyanı təmin edən xüsusi iqtisadi agent kimi dəyərləndirir. Kapitalist isə sahibkarın bu fəaliyyətlərinin həyata keçməsi üçün kredit verən və maliyələşdirən bir elementdir. Kapitalizmin iqtisadi inkişaf mərhələsini XIX əsrin “rəqabət” kapitalizmi və XX əsrin “Etibar” (trusted) kapitalizmi olaraq ikiyə ayırır. Rəqabət kapitalizmində ailə sahibkarlığı hökum sürürdüsə, etibar kapitalizmində əməkdaşlığı və koordinasiyanı yaxşı bacaran böyük şirkətlərin mövcudluğu əhəmiyyət kəsb edir (Ebner, 2006). O hətta sürətli və dinamik innovasiyaların tədbiqi şərtlərində, sahibkar liderlərə olan ehtiyacdan

dolayı, böyük şirkətlərin əməkdaşlarının sahibkar rolunda fəaliyyət göstərməsinin mümkünlüyünü qeyd etmişdir.

Elmi ədəbiyyatlarda Şümpeteri konkret dövlət modelinin banisi kimi dəyəndirilməyə çalışılmasına baxmayaraq, əsərlərinin analizində dövlətlə bağlı ziddiyyətli fikirləri görmək mümkündür. Belə ki, o iqtisadiyyatda ictimai sektorun payının yüksək olduğu geniş brürokratik institusionallaşma ilə xarakterizə edilən "dövlət kapitalizminin" perspektivlərinə vurğu edərək, sosializmə keçidə hazırlıq mərhələsi kimi dəyərləndirir. Eyni zamanda dövlətin sosial rolunun azaldılmasını və hakimiyyətin institusional əsaslandırmasını boşa sayan, dövlətin sahibkarlıq funksiyasını irəli sürür. "Sahibkar dövlətinə" keçidi dövlətin təkamülü kimi dəyərləndirməklə birlikdə, "vergi dövləti" yanaşmasınada çalışmalarında xüsusi yer ayırmışdır. "Vergi dövləti" yanaşması çərçivəsində dövləti kapitalizmin xüsusi institusional forması kimi dəyərləndirir. Müasir dövrü xarakterizə edən vergi dövləti, XIV əsrdə qərbdə feodalizmin monarxik fiskal krizisindən sonra struktur krizisinə çevrilmiş bir tarixi inkişaf prosesinin nəticəsidir. Müharibələrin meydana gətirdiyi xərclərdəki böyük artışlar, monarxın borca girməsinə və feodalizmin institusional nizamının dağılmasına səbəb olmuşdur. Şumpeterə görə, bu səbəbdən vergilərin toplanması və fiskal siyasətin idarə edilməsinin təşkilatlanması olaraq müasir dövlət meydana gəlmişdir (Enber, 2006).

Bu fikirin parktiki nümunəsini, Türkiyə Respublikasının meydana gəlməsi ərəfəsində Osmanlı imperiyasının böyük boclarının olmasında görmək olur. Təbii ki, yeni institusional formaya sahib dövlət sadəcə aristokratiyanın maraqlarını deyil, əsas olaraq bu fiskal sistemi idarə edən bürokratiyanın maraqlarınıda özündə əks etdirirdi. O dövrdə vəzifələrin pulla alınan olduğunu və əsas fiskal politikların banklar tərəfindən həyata keçirildiyini nəzərə alsaq, müasir dövlətin formalaşdığı ilk dövrlərdə bürokratiyanın banklarla əlaqəli qrupların maraqlarını əsas aldığını deyə bilərik. Təsadüf deyik ki, Türkiyədə yeni formalaşan dövlətin birinci məclis binasının damını inşası, Koçun ilkin sərmayəsi olmuşdur. Türkiyədə yeni institusionallaşmış dövlətin Koç və Sabancı kimi qruplarının maraqlarına xidmət etməsi çərçivəsində Şumpeterin haqlı olduğunu qənaətinə gəlmək mümkündür. Schumpeter`çi dövlət anlayışında, dövlət fenomeninin realistik anlama cəhti vardır. O, dövləti hakim ola bilməyi bacaran ictimayətin bəlli bir qrupunun dar məqsədlərini həyatə keçirməyə çalışan bir maşın kimi görür.

"Həqiqətən də, heç vaxt "dövlət bunu edir-onu edir" deyilməməlidir. Həmişə kim və ya kimlərin maraqlarının dövlət maşını hərəkətə gətirdiyini və onun vasitəsilə danışdığını anlamaq vacibdir" (Schumpeter, 1953, s.68).

Bu yanaşma dövlətin ictima rifaha xidmət etdiyini müdafiyə edən və fövqəlbəşəri statusa yüksəldən nəzəriyyələrə ziddir. Bu səbəbdən Schumpeter`çi dövlət nəzəriyyəsi, keynesçi rifah dövlətinin siyasi idealları çərçivəsində kontrast yaratmışdır. Kontrastın yaranmasına səbəb olan görüşlər kimi aşağıdakıları qeyd etmək mümkündür.

- Dövlətin gücü onun fiskal potensiyalındadır,
- Vergi dövləti iqtisadi parazit olaraq dəyərləndirir,
- Bazar iqtisadiyyatında dövlət sektorun rəqabətliliyi zəifdir,
- İqtisadi agentlər öz maraqlarına uyğun dövləti yönləndirirlər,
- Büdcə dövlətin skletidir.
- Sahibkarlıq liderlik vasitəsi ilə yenilikləri həyata keçirmək qabiliyyətini ifadə edir.

Şumpeterə görə, dövlətin daimi gəlirlərə ehtiyacı var. Sahibkarlardan vergi vasitəsiylə əldə etdiyi gəlirlər, dövlətin sahibkarlığı genşləndirməyə və fəaliyyətindən asılı olmağa gətirib çıxarır. İstənilən halda sahibkarın bir iqtisadi angent kimi, dövlətdən üstün olduğu və dövləti yönləndirdiyi görüşüdə höküm sürür. Hətda dövlət kapitalizminə bənzər dövlət sahibkarlığının yüksək olduğu şərtlərdə də, özəl sektorun xüsusiyyətlərinin yüksək olması dövləti üstün iqtisadi agent vəziyyətinə gətirmir. Ona görə, vergi dövlətinin inkişaf edərək başqa dövlət formasına keçməsi üçün üç əsas üç əsas xüsusiyyətin uzunmüddətli dəyişməsi ilə mümkündür:

1. Gəlir mənbələrindəki dəyişikliklərdə,
2. Sosial strukturdakı dəyişikliklərdə,
3. Siyasi sistemin dəyişməsində (Schumpeter, 1953, s.68).

Şumpeterin iqtisadi politikasında innovasiyaların çəkisi böyük olur, dövlətin rolunu innovasiyaların reallaşdırlması üçün sahibkarlara lazımı maliyə dəstəyinin (kreditin) verilməsində vasitəçi kimi görür. Sahibkar dövlətinin iqtisadi əsasında yeniliyin (innovasiyanın) hesabına sərmayə (zənginliyin) yığımı durur. Bu şərtlər siyasi hökümətin demokratik seçimlərində problemlərlə qarşılaşacağını istisna etmir. Schumpeterin təsvir etdiyi dövlət, özəl sektorun iqtisadi fəaliyyəti ilə formalaşan, vergilər hesabına maliyələşən tarixi institusional bir fenomendir.

Shcumpeter`in dövlət nəzəriyəsinin əsasında heç bir empirik araşdırmanın olmadığı, onun bir birinə uyğunlaşdırlması çətin olan görüşlərindən təyin etmək mümkündür. Buna baxmayaraq, ictimai tərcih (seçim) nəzəriyyəsi çərçivəsində onun çalışmalarının ictimai idarəetmədə önəmli aspektlərin üzə çıxması üçün faydalıdır. Şumpeterin Almaniya Avstrasının Maliyyə Naziri vəzifəsi tutması, daha sonra Biedermann özəl bankında prezident vəzifəsində və Kaufmann bankının idarə heyətində olması, onun elmi hesab edilən görüşlərinin fərdi və ya bənzər qrup maraqların reallaşması üçün analitik çalışma olduğu qənaətinə gəlmək mümkündür. Belə ki, qısa müddətli maliyyə naziri vəzifəsində olarkən, müharibə öncəsi Avstrya Kronu ilə qeyd edilən borcların, müharibə sonrası dəyərinin 15000 dəfə düşməsinə və hiper infilyasiyaya baxmayaraq, qanuni olaraq eyni məbləğdə ödənilməsi fərmanını vermişdir. Bankların maraqlarına xidmət edəcək qərarın verilməsi, yerli əhali üçün "Şumpeter" adı neqativ özəllik daşımışdır (Xayek, 1996, s.34). Buna baxmayaraq, postfordizmin yüksəlişi xüsusi ilə elm sahəsində Şumpeterin praktiki təcrübələrə dayanan görüşlərinin nəzəriyəyə çevrilməsinə əsas yaratmışdır.

## NƏTİCƏ

Aparılan ədəbiyyat təhlilindən belə nəticə çıxır ki, hər hansı iqtisadi münasibətlərin təhlili həm tarixi baxımdan, həm də mövcud ictimai quruluş baxımından xüsusi yanaşma tələb edir. Hər bir nəzəriyyə və ya ümumi qəbul edilmiş universal yanaşmadan istifadə edərək iqtisadi münasibətləri təhlil etməyin əhəmiyyəti azdır. Bir çox nəzəriyyə və yanaşmaları özündə birləşdirən tənzimləmə məktəbi, dövlət və iqtisadi münasibətlərin tarixi inkişafında hansı amillərin reallaşdığını müəyyən etməyə çalışmışdır. Dövlət və iqtisadi (sahələrarası) münasibətləri təhlil edərkən əsas göstərici kimi yığım rejimlərini və tənzimləmə formalarını əhatə edən anlayışlardan istifadə etmək məqsədəuyğundur.

Məsələn, post-fordist istehsalın təşkil etdiyi iqtisadiyyatların əsas göstəriciləri bunlardır: aşağı və çevik istehsalın səviyyəsi, məhsul müxtəlifliyi, tələb yönümlü istehsal (tələb üzrə mallar), istehlakçıların müxtəlifliyi. Tənzimləmənin bu post-fordist qlobal monopolist forması dövlətlə iqtisadiyyat arasındakı əlaqəni əhatə edən faktiki göstəriciləri müəyyən edir. Bu göstəricilərə aşağıdakılar daxildir: hökumətin derequlyasiyası/yenidən tənzimləməsi, çeviklik, ayrılma və ya fərdiləşdirmə, yerli və ya firma səviyyəsində danışıqlar, kollektiv ehtiyacların və sosial təminatın özəlləşdirilməsi, beynəlxalq qeyri-sabitlik, əks-mərkəzləşmə, regionlar və şəhərlər arasında rəqabətin artması, "sahibkar dövləti", neoliberal siyasət və idarələşmə.

1980-ci illərdə başlayan neo liberallaşma prosesi dövlət idarəçiliyində çoxsaylı dəyişikliklərə səbəb olmuşdur. Bu dəyişikliklərin ən mühüm nəticələrindən biri neoliberalizm və qloballaşma şəraitində "yeni dövlət idarəçiliyi" yanaşmalarının meydana çıxması olmuşdur. Bu illərdə Böyük Britaniyada Tetçer və ABŞ-da Reyqandan başlayaraq neoliberalizmin meydana çıxması ilə əlaqədar dövlət qurumlarının ixtisar edilməsi və dövlət müəssisələrinin özəlləşdirilməsi cəhdləri dövlət idarəçiliyində islahatlara çevrilmişdir (Manaf, 2011, s.357). Özəl sektorda inkişaf etdirilən post-Fordist idarəetmə yanaşması "yeni dövlət idarəçiliyi" vasitəsilə dövlət sektoruna keçmişdir. Səmərəlilik, keyfiyyət, effektivlik, şəffaflıq, müştəri yönümlülük, mənfəət yönümlülük, nəticələrə yönəlmə, iştirak və sahibkarlıq kimi yeni dəyərlər dövlət idarəçiliyinin əsas elementlərinə çevrilmişdir. Fordizmin böhranından meydana gələn post-fordist transformasiya da mühüm rol oynayır və iqtisadi böhranlar həm sənaye münasibətlərinə, həm də dövlətin funksiyalarına təsir edir. Bu hadisələr nəticəsində dövlət idarəçiliyi sərtlikdən çevikliyə, birölçülülükdən çoxölçülülüyə, qapalılıqdan şəffaflığa keçmişdir. Bugünkü dövlət

idarəçiliyi post-fordist yığım rejiminin tələblərinə uyğun qurulub və biznesin idarə edilməsi üsullarından istifadə edir. Özəlləşdirmə dövlət sektorunda bu transformasiyaların təzahürlərindən biridir.

Dövlət və özəl sektorlar bir-birinə təsir edir, nəticədə əmək haqqı və iş şəraitinin bərabərləşdirilməsi tendensiyası yaranır. Çevik ixtisaslaşmaya əsaslanan yeni iş şəraiti dövlət qulluqçularının daimi deyil, müqavilə əsasında işləməsinə təşviq edir. Dövlət qurumlarının maliyyələşdirilməsinin təşkili vergiləndirmədən qiymətləndirməyə keçmişdir. Dövlət xərclərini azaltmaq istəyi çevik kadr sistemlərini və dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsini vacib etmişdir. İdarəetməyə yeni yanaşma daha çevik və yumşaq idarəetmə metodlarına gətirib çıxarsada, iş bazarında tədarük böhranı, demotivasiya və fərdi rəqabət kimi mənfi nəticələrə də səbəb olmuşdur. İqtisadiyyatın fordist və postfordist inkişafında dövlət idarəçiliyini və dövlətin rolunu xarakterizə edən meyarların qısa təsviri aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl 4. Fordist və Post-fordist Dövlətin Əsas Xüsusiyyətlərinin Müqayisəsi**

| | **Fordist Dövlət** | **Post-fordist Dövlət** |
|---|---|---|
| **İqtisadi Tənzimləmə** | Keynesçilik | Monetarizm |
| **Tənzimləmə Səviyyəsi** | Milli | Qlobal |
| **İnzibati Qərar Qəbulu Prosesi** | Avtoritar | Idarələşmə |
| **Dövlət Politikaları** | Rifah dovləti, Inkişaf dovləti | Liberallaşdırma, derequlyasiya,<br>Ozəlləşdirmə və əks-mərkəzləşdirmə |
| **Texnologiya** | Elektronika, kimya, yag, avtomobil, plastik | Mikroelektronika, biotexnologiya, yeni xammal |
| **İdarəetmə Strukturu** | Mərkəzləşdirilmiş | Əks-mrəkəzləşdirilmiş, şəbəkə strukturu |
| **Təşkilat Modeli** | Burokratik, iyerarxik | Ierarxik, çevik təşkilat, bazar şəbəkələri |
| **Bürokratiyalaşdırılma** | Milli | Regional və qlobal |
| **İşçilər** | Kutləvi | Yuksək ixtisaslı |
| **Sosial Oriyentasiya** | Fabrika | Universitet |
| **Əmək Münasibətləri** | Həmkarlar ittifaqları, kollektiv muqavilələr | Korporativ və fərdi muqavilələr |
| **Dövlət Qulluqçuları** | Statuslu işçi | Iş zəmanəti yoxdur |
| **İş Zəmanəti** | Həmkarlar ittifaqı təşkilatı | Həmkarlar ittifaqlarının əhəmiyyətinin itirilməsi |
| **Dövlətin Funksiyası** | Subsidiyalaşdırılan dovlət | Sahibkar dovləti |
| **Dövlət xidmətlərinin göstərilməsi** | Formal, seçilmiş ozunuidarəetmə, mərkəzləşdirilmiş xidmət gostərilməsi | Çoxtərəfli, muxtəlif xidmət təminatçıları |
| **Qərar qəbulunun əsaslandırılması** | Hokumətin maliyyələşdirilməsi və audit | Maraqlı Tərəflərin Iştirakı |
| **Dominant ideologiya** | Sosial Demokrat | Neoliberal |
| **Dominant diskussiya** | Texnokratik | Sahibkar |
| **Metodologiya** | Empirizm | Abstrakt nəzəriyyə: modellər, simulyasiya, sistem təhlili |
| **Fəlsəfi yanaşma** | Modernizm | Postmodernizm |
| **Dövlət yanaşması** | Aktiv vəziyyət | Aktivləşdirmə vəziyyəti |

***Mənbə:** Müəllif tərəfindən ədəbiyyat təhlili əsasında tərtib edilmişdir.*

Post-fordist dövlət quruluşu qloballaşmanın yeni bir mərhələyə keçdiyi meyllər kimi xarakterizə edilə bilər. Beynəlxalq Valyuta Fondu (IMF) və Dünya Bankı kimi beynəlxalq aktyorlar neoliberal politikaların üstünlük təşkil etdiyi tənzimləmə formasını müəyyənləşdirir, dövlət bazar prinsipləri üzərində işləyir və qlobal kapital milli iqtisadiyyatlarda dominant olan dövləti əvəz edir.

Dövlət xidmətlərinin kommersiyalaşdırılması dövlət qurumlarında çevik ixtisaslaşmanın tətbiqinə və dövlət qulluğunun bürokratik sistemindən post-veberian sistemə keçməsinə səbəb olmuşdur. Post-fordist dövlət idarəçiliyi sahibkarlıq yanaşması da daxil olmaqla yeni idarəetmə

konsepsiyalarını təqdim etmişdir. Bu yanaşmanın mərkəzində yerli böyümə, azad ticarətin və sahibkarlığın təşviqi və hökumətin maliyyələşdirilməsinin aradan qaldırılması strategiyaları dayanır. Bürokratiya və dövlət müdaxiləsi ilə səciyyələnən fordist dövlət yanaşmasından fərqli olaraq, post-fordist dövlət idarəçiliyi mərkəzləşmə və modernləşmədən çevik, əks-mərkəzləşdirilmiş və neoliberal prinsiplər əsasında təşkil olunmuş struktura doğru təkamülü əks etdirir. Dövlətin rolu müdaxiləçidən hakimliyə çevrildi, Veberin hüquqi bürokratiya konsepsiyasından imtina edildi və qərarların qəbulunda səmərəlilik və effektivlik meyarları getdikcə daha vacib rol oynamağa başladı. Artan rəqabəti və idarəetmədə çevikliyini müdafiə edən post-fordist paradiqma eyni zamanda kapitalın maraqlarına xidmət edir.

Post-fordizm və neoliberalizm dövlətin rolunun azalmasına, bazarın liberallaşmasına və siyasi məsuliyyətin əks-mərkəzləşdirilməsinə, dövlətin bəzi səlahiyyətlərinin transmilli təşkilatlarla bölüşdürülməsinə gətirib çıxarmışdır. De-milliləşdirmə, dövlətsizləşdirmə və beynəlmiləlləşdirmə prosesləri keynsçi milli rifah dövlətinin transformasiyasına gətirib çıxardı ki, bu da dövlətin Şumpeterian konsepsiyasına uyğun inkişafa səbəb olmuşdur. Post-Fordist dövlət idarəçiliyi islahatları və dövlətin yeni rolu müxtəlif dairələrdən tənqid və etirazlara da məruz qalıbdır. İslahatlar kapitalın suverenliyinin gücləndirilməsi, bütün hakimiyyətin kapitala verilməsi və xalq hakimiyyəti dövlətinin əlindən alınması kimi tənqidləri mövcutdur. İddia olunur ki, xidmətlərin sərbəst qurumlara ötürülməsi dövlətin siyasətsizləşməsinə gətirib çıxara bilər.

Dövlət idarəetmə islahatları dörd istiqamətdə inkişaf edir: dövlət kadr rejimi, yerli idarəetmə, dövlət büdcəsi və dövlət idarəçiliyinin özü. İslahatların məqsədi vergitutmadan daha çox qiymətqoyma hesabına maliyyələşdirilən və şəffaflıq, hesabatlılıq və iştirakın ön planda olduğu dövlət idarəçiliyinin yaradılmasıdır (Amin və Malmberq, 1994, s.244). Beləliklə, post-fordist təsir dövlət idarəçiliyi islahatlarında mühüm rol oynayır. O, azaldılmış tənzimləməni, işçilərin istifadəsini və əks-mərkəzləşdirməni təşviq edir ki, bu da bazar şəraitindəki dəyişikliklərə cavab verməkdə daha çox çevikliyə imkan verir və özəl sektora daha sərbəst qərarlar qəbul etməyə imkan verir. Bu cür dəyişikliklər dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına və müasir dünyanın tələblərinə uyğunlaşmasına yönəldimişdir.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, fordist istehsal üsuluna uyğun keynsçi iqtisadi yanaşmanı mənimsəyən rifah dövlətindən, post-fordist istehsal formasına uyğun olaraq neo-şumpeter iqtisadi yanaşmanı mənimsəyən "bazar dövləti"nə keçid prosesi getmişdir. Yığımın dövlət hüdudlarından kənara çıxması, regional və qlobal xarakter alması milli dövlətin rolunun maliyyə və kapital vasitəsilə millətlərüstü strukturlar tərəfindən yenidən müəyyənləşdirilməsinə gətirib çıxarmışdır. Bu şəraitdə beynəlxalq qaydalarla məhdudlaşdırılmış suveren hüquqlarını reallaşdırmağa çalışan dövlətin rolu tədarük yönümlü iqtisadi politikanın və bazar əsaslı sosial politikanın həyata keçirilməsinə qədər azalır. Dövlət idarəçiliyi nöqteyi-nəzərindən bu vəziyyət əks-mərkəzləşdirməni, idarələşməni (governance), dövlət institutlarının post-bürokratik və bazar fəaliyyətini tələb edir. Transsərhəd əməkdaşlığının və strateji ittifaqların formalaşdırılması, beynəlxalq valyuta sistemlərinin yenidən təşkili, texnoloji innovasiyaların stimullaşdırılması, yeni beynəlxalq mülkiyyət hüquqları rejiminin müəyyən edilməsi və əmək miqrasiyasının tənzimlənməsinin yeni formalarının işlənib hazırlanması dövlətin ən mühüm funksiyalarına çevrilmişdir (Bağırzadə, 2023).

## ƏDƏBİYYAT

1. Aglietta, M. (1987), A Theory of Capitalist Regulation: The US Experience, Londra: NLB.
2. Amin, A. & A. Malmberg (1994), "Competing Structural and Institutional Influences on the Geography of Production in Europe", içinde: A. Amin (ed.), Post- Fordism A Reader, Oxford: Blackwell Publishers, 227-248. (244)
3. Aslan, Onur Ender (2005), Kamu Personel Rejimi; Statü Hukukundan Esnekliğe, TODAİE Yayını, Ankara.
4. Bağırzade Manaf (2010), Küresel Ekonomik Krizin Kamu Yönetimine Yansımaları ve Azerbaycan Örneği, 21. Yüzyılda Türk Dünyası Uluslararası Sempozyumu 02 - 05 Aralık 2010 / Lefke - K.K.T.C , EkoAvrasya, 351-361.
5. Bagirzade Manaf (2021), The Etymological Nature of Governance and Current Situation in Azerbaijan, The Sustainable Development of Economy and Administration: Problems and Perspectives II International Scientific And Practical Conference, pp. 332-336.
6. Bagirzade, Manaf. (2023). İdarələşmə (Governance) Deyiminin Terminləşdirilməsinin Etimoloji və Semantik Əsasları / Etymological and semantic basis of the terminologization of the expression "İdareleshme" (Governance). 1. 97-100.
DOI: 10.59849/2663-8967.2023.1.97
7. Baran P., Sweezy P. M. (1966) Monopoly Capital (New York: Monthly ReviewPress).
8. Bianchini F. (1991), The third Italy: model or myth? //Ekistics. 58(350/351) – C. 336-345.
9. Clarke S. (1991), The state debate //The state debate. – London: Palgrave Macmillan UK, – C. 1-69.
10. Dağdelen  İlhan (2005), Post-Fordizm //Mevzuat Dergisi. – 2005. – T. 8. – №. 90. – C. 1-10.
11. David Harvey (2020), The condition of postmodernity //The New social theory reader. – Routledge, pp. 235-242.
12. David Harvey (1992), The Condition of Postmodernity "An Enquiry into the Origins of Cultural Change", Blackwell Publishers.
13. DERELİ S. (2023) Birikim Rejimleri Perspektifinden ILO'nun İşe Aracılık Faaliyetlerine Yaklaşımında Yaşanan Dönüşüm //Management and Political Sciences Review. – T. 5. – №. 1. – C. 119-139.
14. Ebner, A. (2006). Institutions, entrepreneurship, and the rationale of government: An outline of the Schumpeterian theory of the state. Journal of Economic Behavior & Organization, 59(4), 497-515.
15. Ebner, A. (2006). Schumpeterian entrepreneurship revisited: historical specificity and the phases of capitalist development. Journal of the History of Economic Thought, 28(3), 315-332.
16. Eraydın A. (1992), et al. Post-fordizm ve değişen mekansal öncelikler //ODTÜ Mimarlık Fakültesi Yayını, Ankara.
17. Esser J., Hirsch J. (1994) The crisis of Fordism and the dimensions of a 'post-Fordist'regional and urban structure //Post-Fordism: A Reader. – 1994. – C. 71-97.
18. George, Susan. (1999) "A short history of neoliberalism." Nueva York: Global Policy Forum. https://www.calculemus.org/lect/07pol-gosp/arch/dekalog-dawne/materialy/anti-lib.htm (07.03.2024)
19. Gül S. S. (2004) Sosyal Refah Devleti Bitti, Yaşasın Piyasa //Yeni Liberalizm ve Muhafazakârlık Kıskacında Refah Devleti, İstanbul: Etik Yayınları. C. 79.

20. Heintz J., Lund F. (2012) Welfare regimes and social policy: a review of the role of labour and employment. – Geneva: UNRISD.
21. Jessop B. (2005) Fordism and post-Fordism: a critical reformulation //Pathways to industrialization and regional development. – Routledge, pp. 54-74.
22. Jessop B. (1990) Regulation theories in retrospect and prospect //Economy and society. – 1990. – T. 19. – №. 2. pp. 153-216.
23. Jessop, Bob. (1998) "Post-Fordism, mass integration, and the state: a comment on the work of Hirsch'." Available from Jessop. In part published in Jessop.
24. Jessop, Bob. (1993) "Towards a Schumpeterian workfare state? Preliminary remarks on post-Fordist political economy." Studies in political economy 40, no. 1, pp 7-39.
25. Lipietz Alain (1987), Mirages and miracles the crises of global Fordism. – London: verso. – T. 21.
26. Mesut S. (2011) Düzenleme'nin seyri //Bolu Abant İzzet Baysal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi. – T. 11. – №. 2, pp. 64-78.
27. Michael Pollard (1996), Henry Ford ve Ford, Tərcümə: Ayşe Aydoğan, İlk Kaynak Yayınları, Ankara.
28. Moulaert, Frank, and Erik Swyngedouw (2015), "Accumulation and organization in computer and communications industries: a regulationist approach." Towards Global Localization. Routledge, 2015. 39-60.
29. Murray R. (1989) Fordism and post-Fordism //New times: The changing face of politics in the 1990s., pp 38-53.
30. Piore, M. J., & Sabel, C. F. (1984), The second industrial divide: possibilities for prosperity. Basic books.
31. Quentin Hoare and Geoffrey Nowell Smith (1971). Selections from the prison notebooks. Gramsci, A., ElecBook, London, pp. 558-620.
32. SADİOĞLU U., Altay S. (2020) Post-Fordizm ve Kamu Yönetimine Yansımaları //Sosyoekonomi. –T. 28. – №. 45, pp. 327-352.
33. SAKLI A. R. (2013) Fordizm'den esnek üretim rejimine dönüşümün kamu yönetimi üzerindeki etkileri //Elektronik Sosyal Bilimler Dergisi, T. 12. – №. 44, pp. 107-131.
34. SAKLI A. R. Kapitalist gelişim sürecinde fordizm ve post-fordizm //Ankara, http://www. sakli. info/Fordizm. pdf, 26. – C. 2008.
35. Schumpeter, J.A. (1939) Business Cycles: A Theoretical, Historical and Statistical Analysis of the Capitalist Process, Two Volumes, New York: McGraw-Hill.
36. Schumpeter, J.A. (1953) Die Krise des Steuerstaates, Zeitfragen aus dem Gebiet der Soziologie, Vol.4, pp.1-71
37. Swyngedouw E. (1986), The Socio-Spatial Implications of Innovations in Industrial Organisation. Working Paper. No. 20. Lille: Johns Hopkins European Center for Regional Planning and Research.
38. Taylor, Frederick Winslow (1911), The Principles of Scientific. New York.
39. Tickell A., Peck J. A. (1995) Social regulation after Fordism: regulation theory, neo-liberalism and the global-local nexus //Economy and Society, – T. 24. – №. 3, pp. 357-386.
40. Valli V. (2018), Return and crisis of the fordist model of development //The American Economy from Roosevelt to Trump, pp. 31-43.

41. Van Dijk, M. P. (1995). Flexible specialisation, the new competition and industrial districts. Small Business Economics, 7, 15-27. S.16.
42. М. С. Ильченко, В. С. Мартьянова (2015) Постфордизм: концепции, институты, практики / под ред. – М. : Политическая энциклопедия, 279 с.
43. Хайек, Фридрих А. "Частные деньги." (1996). Русский перевод: Институт Национальной Модели Экономики, KOLONNA Publications, БАКОМ.
44. Шевчук А. В. (2002), Постфордистские концепции как исследовательская программа //Экономическая социология, Т. 3. – №. 2, pp. 44-61.
45. Шевчук, А. В. (2000) "Постфордистские концепции (критический анализ)." Казань: КГУ.

## THE CHANGING ROLE OF THE STATE IN STAGES OF ECONOMIC DEVELOPMENT: FORDISM AND POST-FORDISM

Manaf BAGIRZADE

### ABSTRACT

Capitalist economy, which rose with industrialization, has passed in history certain stages of development, forming the infrastructure of the mode of production, labor and social relations. Each stage of economic development entails the need to implement mechanisms that ensure social organization, determining the specificity of relations of production and consumption. The purpose of this article is to explore how and with what tendencies the conditions created by new economic stages affect the role of the state. Capitalism has experienced two major forms of production organization, Fordist and post-Fordist, which included many crises, wars and recessions. In particular, the rise of neoliberal policies that parallel the post-Fordist organization of production in the economy creates the need to look at the new role of the state in terms of the new stage of economic relations.

$$\text{Relative Market Share} = \frac{Q_{\text{Institution}}}{Q_{\text{Strongest Competitor}}} = \frac{1.150.000 - 1.000.000}{1.000.000} = \%\,15$$

For example, we can calculate the relative market share of Hospital A in 2014 as follows. Hospital A's strongest competitor in 2014 is Hospital B. In this case, A hospital's relative market share will be 0.85.

$$\text{Relative Market Share}_{\text{Hospital A}} = \frac{Q_{\text{Hospital A}}}{Q_{\text{Hospital B}}} = \frac{300.000}{350.000} = 0{,}85$$

The strongest competitor of Hospital B in 2914 is Hospital A. Hence, the relative share of Hospital B in 2014 can be calculated as follows:

$$\text{Relative Market Share}_{\text{Hospital B}} = \frac{Q_{\text{Hospital B}}}{Q_{\text{Hospital A}}} = \frac{350.000}{300.000} = 1{,}67$$

Since the strongest competitor for Hospitals C, D, and E in 2014 is Hospital A, their relative market shares are 0,57, 0,50, and 0,357, respectively.

Based on the relative market share of an institution, we can infer three cases:

- If the relative market share is greater than 1, then it means that its market share is higher than its strongest competitor, which means thar the institution is the market leader.
- If the relative market share is equal to 1, then it means that its market share is equal to that of its strongest competitor, that is, it is in the same position as its strongest competitor in the market.
- If the relative market share is smaller than 1, then it means that the institution's market share is less than its strongest competitor, that is, the institution is not in a strong position in the market.

## CONCLUSION

The attractiveness of the market/service area analysis is an important tool for health institutions in designing implementable and evidence-based strategies to enter a new market. When developing market entry strategies, it is crucial for health institutions to correctly identify environmental factors pertaining to market attractiveness. Market entry scores calculated through the market attractiveness analysis are used to determine the potential markets. Market attractiveness scores are also employed in identifying environmental factors.

The market attractiveness analysis is also used to determine how the attractiveness of the market/serviced area changes over time. It should also be noted that market attractiveness analysis provides clues to health institutions about the competitive conditions they will face in the future. An increase in the market attractiveness score signals the rising likelihood of new health institutions entering the service area. Hence, in essence, a rise in market attractiveness score indicates intensifying competition in the market.

Finally, another important concept providing the health institutions with crucial information about the market structure is market concentration. A rising market concentration indicates an increase in barriers to entering the market.

## REFERENCES

1. Hax, C. A., Majluf, S. N., (1983). The Use of The Industry Attractiveness -Business Strength Matrix in Strategic Planning. Interfaces, Vol:13, pp.54-71.
2. Wind, Y., Mahajan, V., (1981). Designing Product and Business Portfolios: Steps Leading to Construction of a Portfolio Model for Planning Strategy. Harvard Business Review. January-February, pp.155-165.

# SƏHİYYƏ MÜƏSİSƏLƏRİNDƏ RƏQABƏT VƏ BAZARA ÇIXIŞ STRATEGİYALARI NECƏ HAZIRLANIR

Selami YILDIRIM

**XÜLASƏ**

Rəqabət və bazara giriş strategiyalarını hazırlayarkən səhiyyə müəssisələri hansı strategiyaların işləyə biləcəyini bilməlidirlər. Habelə, strategiyaların səmərəli həyata keçirilməsi də çox vacibdir, çünki bəzən uyğun və effektiv strategiyaların düzgün həyata keçirilməməsi səbəbindən səhiyyə müəssisələrinin uğursuzluqlarına şahidi oluruq.

İyirmi birinci əsrdə səhiyyə qurumları rəqabət və bazar alətlərindən sıfır səhv strategiyaları ilə istifadə etməlidirlər. Digər tərəfdən, səhiyyə müəssisələri rəqabət və bazara giriş strategiyalarını inkişaf etdirmək üçün xidmət bazarının strukturu və xüsusiyyətlərini yaxşı bilməlidirlər. Bu tədqiqat bazarın cəlbediciliyi, bazarın konsentrasiyası və bazar artımı anlayışlarına dair ədəbiyyatın hərtərəfli sorğusunu təqdim edir. Bu tədqiqat bazarın cəlbediciliyi, bazarın konsentrasiyası və bazarın böyüməsi anlayışlarına dair ədəbiyyatın hərtərəfli icmalını təqdim edir və səhiyyə müəssisələrinin rəqabət və bazara giriş strategiyalarını necə inkişaf etdirdiklərini araşdırmağa çalışır.

***Açar sözlər:*** *Bazarın cazibəsi, bazarın konsentrasiyası, bazarın artım dərəcəsi, rəqabət, səhiyyə müəssisələri.*

Məqalə redaksiyaya daxil olub: 10.04.2024
Təkrar işlənməyə göndərilib: 01.05.2024
Çapa qəbul olunub: 14.05.2024

"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# TİKİNTİ SƏNAYESİ MƏHSULUNUN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ ZAMANI YARANAN XƏRCLƏR

№ 1(10)-2024
səh. 131-145

İzmir FƏTAHOV,
Azərbaycan Memarlıq və
İnşaat Universiteti, doktorant

DOI:10.30546/2790-2196.1.10.2024.061.

izmirfataxov@gmail.com

# Tikinti sənayesi məhsulunun keyfiyyətinin yüksəldilməsi zamanı yaranan xərclər

İzmir FƏTAHOV
Azərbaycan Memarlıq və İnşaat Universiteti, doktorant

**XÜLASƏ**

Məhsulun keyfiyyətinin planlı şəkildə idarə edilməsi , həm hazır məhsulun fərqli xassələrini, həm də keyfiyyətin idarə edilməsi sistemi və proseslərinin fərqli xüsüsiyyətlərini əks etdirən tədbir və kriteriyalardır.

Bu göstəricilər özünü konkret olaraq tikinti məhsulunun keyfiyyətinin yaxşılaşdırılması üzrə tapşırıqlarda, elmi-tədqiqat planlarında və təcrübə-konstruktor işlərində, standartlaşdırma və keyfiyyətin idarəetmə sisteminin tətbiqində, müəssisənin texnika ilə təminatı, kadrların hazırlanmasında və s. tapır.

Məhsulun keyfiyyətinin planlaşdırma mərhələsində tikinti məhsulunun mərhələləri kompleks, ritmli və lazım olan vaxtda xammal, materiallar və s. ilə təmin edilməli və istehsal gücü ilə uyğunlaşdırılmalıdır.

Müəssisədə fəaliyyət prinsipi və ya planlı fəaliyyətin uzunmüddətli missiyası kimi keyfiyyətə əsaslanan siyasət formalaşmalı, tikinti müəssisələrinin fəaliyyətinin səmərəli təşkili üçün tədbirlər işlənməlidir. Məqalədə tikinti məhsulunun keyfiyyətinin aşağı olmasının səbəbləri, hazır məhsulun keyfiyyətinin artırılması, keyfiyyətin idarə edilməsinin planlaşdırılması və bu zaman həyata keçirilən tədbirlər, keyfiyyətin yüksəldilməsi, eyni zamanda şəhər tikintisi zamanı işlərin yerinə yetirilməsində yaranan zədələrin aradan götürülməsi (bərpası) xərcləri, onların müəyyənləşdirilməsi və qruplaşdırılması araşdırılmışdır.

***Açar sözlər**: tikinti, keyfiyyət, tikinti məhsulu, amil, xərc, planlaşdırma*
***JEL kodu: L74, L23***

## GİRİŞ

Aparılan bir sıra araşdırmalar göstərir ki, tikinti məhsulunun keyfiyyətinin yüksəldilməsi istehsal prosesinin hansı üsullarla həyata keçirilməsindən deyil (podrat və ya təsərrüfat üsulu), bir sıra səbəblərdən asılıdır [8]:

- layihə-smeta sənədlərinin təkmilləşdirilməməsi;
- istehsalda istifadə olunan materiallar, yəni xammal, tikinti materialları və ya avadanlıqların keyfiyyətinin aşağı olması və vaxtında təchiz olunmamasından;
- layihələndirmə zamanı tikintidə və güc maşın və avadanlıqların keyfiyyətsiz olmasından.

Tikintinin hazır məhsulunun keyfiyyətinin artırılması və komplektləşdirmə mərhələsində əldə olunan resursların faydalılığını bir sıra tədbirlər hesabına saxlamaq olar:

- alınan məhsulun loqistika və saxlanılması üçün lazımi şəraitin yaradılması;
- alınan istehsal ehtiyatlarının faydalı xassəsinin tikintinin hazır məhsulunun keyfiyyətinə uyğunluğunu;
- tikinti üçün əsas vəsaitlərin istifadəyə yararlığı onların gətirilməsi, yerləşdirilməsi dövründə saxlanılmasını;
- səyyar və zavodlarda hazırlanan, sonradan tikintiyə iriləşdirilmiş və komplektləşdirilmiş şəkildə çatdırılan hazır məhsulu;
- layihə-smeta sənədlərində nəzərdə tutulmuş göndərilən məhsulların istehsala hazırlama və reallaşdırma mərhələsində keyfiyyətinin yüksəldilməsi və çatdırılma vaxtının azaldılmasını.

Müəssisədə istehsal olunan məhsulun keyfiyyəti onun fəaliyyətinin mühüm göstəricilərindəndir. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması əhəmiyyətli dərəcədə müəssisənin bazar şəraitində rəqabətqabiliyyətliliyini, elmi-texniki tərəqqinin tempini, istehsalatın səmərəliliyinin yüksəlməsini, müəssisədə istifadə olunan bütün növ ehtiyatların

düzgün istifadəsini müəyyənləşdirir. Tikinti sənayesi məhsulunun keyfiyyətinin yüksəldilməsinə sərf edilən xərclərin təhlil edilərək optimallaşdırılması, keyfiyyəti yüksəltmək, daha az resurs sərf etməklə daha yüksək nəticələr əldə etmək **tədqiqatın aktuallığını** özündə ehtiva edir.

**Tədqiqatın məqsədi** tikinti sənayesi müəssisələrində xərclərin ümumi vəziyyətini təhlil etməklə yanaşı, məhsulun keyfiyyətinin yaxşılaşdırılması amillərini, istehsal prosesi dövründə aşkarlanan zədələrin (qüsurların) düzəldilməsinə yönəldilən xərclərin xususiyyətlərini araşdırmaqdan ibarətdir. Tədqiqat zamanı statistik muqayisəli təhlil, analiz **metodlarından** istifadə olunmuşdur.

## TİKİNTİDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİNƏ ÇƏKİLƏN XƏRCLƏRİN TƏHLİLİ

Tikinti-quraşdırma və xüsusi təyinatlı işlərin istehsalı mərhələsi tikintinin hazır məhsulunun faydalı xassəsinin formalaşmasının bir səviyyəsidir. Bura obyektin istehsalının bütün xərclərinin böyük həcmi aiddir. Hazırda tikintinin ümumi smeta dəyərinin 50%-dən çox hissəsini tikinti-quraşdırma işləri təşkil edir.

Tikinti-quraşdırma və xüsusi işlər mərhələsində demək olar ki, işçi qüvvəsinin və istehsal vasitələrinin birgə istifadəsindən layihə-smeta sənədlərinin və material-texniki resursların göndərişi hesabına, eyni zamanda həmin tikinti meydançasında əmək prosesinin idarəedilməsi hesabına tikinti məhsulunun gələcək faydalı xüsusiyyətləri formalaşır. Ona görə də tikinti-quraşdırma və xüsusi işlər yerinə yetirilərkən təhvil verilən məhsulun (hazır məhsulun) keyfiyyətinə həmin işləri görən tikinti müəssisəsinin sərəncamında olan istehsal vəsaitləri və işçi kadrların ixtisas səviyyəsi təsir edir [2].

Bu mərhələ qurtardıqdan sonra tikinti məhsulu tamamlanır, istifadəyə yararlı obyekt kimi təqdim edilir (son olaraq işə salınma prosesi daxil olmadan).

İstehsal münasibətlərinin təsiri olan variantda məhsulun keyfiyyətinin yaxşılaşdırılması amilləri aşağıdakı kimi qruplaşdırıla bilər:

1) subyektdə qarşılıqlı münasibətlərə görə - kadrlar və cəmiyyət; kadrlar və müəssisə, idarə; müəssisə və idarə; müəssisə, idarə və cəmiyyət və s.;
2) təsərrüfatçılıq səviyyəsinə görə - region üzrə, sektor üzrə, sektor və ərazi üzrə və s.
3) kompleks şəkildə geniş təkrar və ictimai-sosial həyat tsiklində mahiyyətinə görə;
4) təkrar istehsal fazalarına əsasən - istehsal, bölgü, mübadilə və istehlak.

Tikinti məhsulunun keyfiyyətinin yüksəldilməsinin digər bir qrupunun amillərinə tikinti tsikli mərhələlərinin təşkili və idarəedilməsi aid edilir. Təbii ki, bu amillərin təsiri bir çox hallarda məhsuldar qüvvələrin və istehsal münasibətlərinin hansı dərəcədə inkişaf səviyyəsi ilə müəyyən edilməsindən asılıdır. Bu zaman ən mühüm amillərə aiddir:

- əsaslı tikintinin qanunlar və normativlərlə əsaslandırılmış və razılaşdırılmış planla təmin edilməsi;
- sahənin təşkilati strukturunun və idarəetmə metodlarının artan tələbə və iqtisadiyyatın müasir vəziyyətinə uyğunluğu.

Tikinti məhsulunun keyfiyyətinin planlaşdırılması deyərkən verilmiş zaman müddətində tələb olunan keyfiyyət göstəriciləri buraxılışı üzrə əsaslandırılmış məsələlərin bərqərar olunması düşünülür. Keyfiyyətin yüksəldilməsinin planlaşdırılması həm daxili, həm də xarici bazarın tələbatlarının elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırılmasıdır. Bu zaman keyfiyyətin yüksəldilməsi planlarının düzgün əsaslandırılmasında hazır məhsulun istismarı zamanı əldə olunmuş nəticələr haqqında informasiyanın ümumiləşdirilməsi və təhlili böyük rol oynayır.

Tikinti məhsullarının keyfiyyətinin planlaşdırılmasının əsas problemlərinə aşağıda sadalanan məsələlər daxil edilməlidir:

- bazarın hazırkı və gələcək tələbatlarına maksimum uyğun olan məhsul buraxılışının təmini;
- tikinti məhsulunun ehtiyatlarla təminatı və istehlakçıların tələbatları əsasında onun keyfiyyətinin yüksəldilməsi üçün iqtisadi cəhətdən optimal məsələlərin təyin edilməsi;

- tikinti növləri üzrə istehsal olunaraq buraxılan məhsulun strukturunun təkmilləşdirilməsi;
- sertifikatlaşdırılmış tikinti məhsullarının buraxılış həcminin artırılması;
- standartlar, texniki şərtlər və digər normativ sənədlərin tələblərinə ciddi əməl olunmasının təşkili, yeni işlənilmiş standartların vaxtında tətbiqi;
- keyfiyyətin qarşıya qoyulmuş səviyyəsinə nail olmağı təmin edən konkret tədbirlərin işlənilməsi və reallaşdırılması;
- istehsalın iqtisadi cəhətdən səmərəliliyinin artırılması və keyfiyyəti yaxşılaşdırılmış tikinti məhsulundan istifadəsi.

Son dövrlərdə müəssisələrdə tikinti məhsullarının keyfiyyətinin idarəedilməsi zamanı beynalxalq təcrübədə İSO 9000 seriyalı standartları geniş yayılmışdır. Bu sənədlərə əsaslanaraq, keyfiyyət sahəsində, tikinti məhsulunun keyfiyyətinin idarə edilməsinin və onun təmin edilməsinin təkmilləşdirilməsini özünə daxil edən siyasət həyata keçirilir. Keyfiyyətə əsaslanan siyasət müəssisənin fəaliyyət prinsipi və ya planlı fəaliyyətin uzunmüddətli missiyası kimi formalaşmalıdır və bura:

- tikinti təşkilatlarının fəaliyyətinin yaxşılaşdırılmasını;
- tikinti məhsulunun satışının təşkili üçün yeni bazarların axtarışını;
- tikinti şirkətlərinin hazır məhsulunun xüsusiyyətlərinin yaxşılaşdırılmasını;
- müştərilərin (istifadəçilərin) tələblərinə əsaslanan tikinti məhsulunun istehsalı;
- innovativ tikinti materialları və məmulatlarının əldə edilməsini;
- tikintinin hazır məhsulunun keyfiyyətinin yaxşılaşdırılması göstəricilərinin tətbiq olunması;
- keyfiyyətsiz tikinti məhsulunun istehsal həcminin azaldılmasını;
- tikinti xidmətlərinin artırılmasını.

İnkişaf etmiş bir sıra inkişaf etmə səviyyəsinə görə öndə olan ölkələrdə tikinti məhsulunun keyfiyyətinin idarə edilməsinə xüsusi diqqət yetirilir. Son illər keyfiyyətin idarəedilməsinin müasir strategiyaları işlənmişdir:

- tikinti məhsulunun keyfiyyətinin yüksəldilməsinə sistemli yanaşma prosesi kimi baxılması;
- məhsulun keyfiyyətinin yaxşılaşdırılması məsələləri reallaşdırıldıqdan sonra belə aktual qalması;
- tikinti məhsulunun keyfiyyətinin yaxşılaşdırılmasının müştərilərə əsaslandırılması daxildir.

Qeyd olunanlar sadəcə istehlakçının maraqlarına uyğun məhsulun keyfiyyətinin idarə edilməsinin düzgün təşkili zamanı həyata keçirilə bilər.

Tikinti məhsulun keyfiyyətinin artırılması məqsədilə ən vacib amillərdən olan proqnozlaşdırma hələ ki az istifadə olunur. Bunun nəticəsində tikinti məhsulunun keyfiyyətinin yaxşılaşdırılması üçün normativ sənədlər reallaşdırılmır və çox hallarda texnoloji intizama riayət edilmədiyindən işlərin keyfiyyəti pisləşir. Belə ki, yerinə yetirilən tikinti, eyni zamanda tikinti-quraşdırma işlərinin keyfiyyəti beynəlxalq standartlarda öz əksini tapmış tikinti norma və qaydalarının, standartların və sair vacib tələblərə cavab verməlidir [2].

Tikinti sektorunun spesifik xüsusiyyətləri və onun indiki səviyyəsinin inkişafı imkan verir ki, tikintinin hazır məhsulunun keyfiyyətini formalaşdıran amillərdən göstərilənləri ayıraq:

- nəzərdə tutulan tikinti və tikinti-quraşdırma işlərinin ölçüsünə uyğun olaraq muzdlu işçilərin ixtisasının və sayının düzgün müəyyənləşdirilməsi;
- tikinti məhsulunun həcminin planlaşdırılması və əsaslandırılmasının təmini;
- tikinti şirkətlərinin idarəedilməsinin təşkilati strukturlarının tikinti-quraşdırma işlərinin inkişafı və iqtisadiyyatın tələbatına uyğunluğunu;
- məhsulun son nəticəsi və keyfiyyəti ilə əlaqədar hər bir işçinin məsuliyyəti ilə onun motivasiya formalarının qarşılıqlı əlaqəsini;
- tikinti tsiklinin bütün fazalarında müasir texnoloji proseslərin səviyyəsini.

Beləliklə, tikintidə hazır məhsulun faydalı xüsusiyyətlərinin yaranmasına təsir edən üç qrup amilləri qeyd edə bilərik:

- işçi kadrların ixtisasının artırılmasını nəzərə alan (işçilərin ixtisası, istehsal texnologiyası və innovativlik, əmək cisimlərinin səmərəliliyi, gözlənilməyən təbii-iqlim amilləri, aralıq məhsulun qarşılıqlı əvəzlənməsi və hazırlıq səviyyəsinin yüksəldilməsi);
- istehsal münasibətlərini nəzərə alanlar (əsaslı tikinti işlərinin ixtisaslaşdırılması səviyyələri, məhsulun qiymətləri, əməyin qarşılığının stimullaşdırılma yolları və s.);
- tikintinin həyat dövranı fazalarının idarə edilməsi sferasına aid olanlar (planlaşdırma, təşkilati strukturları və metodları və s.)

Qeyd olunan bu qrup amillər bir-birindən asılı olaraq vahidlik təşkil edir və biri digərini tamamlayır. Tikinti prosesinin mərhələlərində qarşıya çıxan amillər qrupu tikintinin son məhsulunun keyfiyyətinə fərqli təsir göstərir. Həmin amillərin hər biri tikintinin planlaşdırılmasında və idarəedilməsində nəzərə alınmalıdır. Bunlar isə öz növbəsində tikinti məhsulunun keyfiyyətini yaxşılaşdıra və onun səmərəliliyini yüksəldə bilər.

Tikinti məhsulunun istehsalına sərf edilən “keyfiyyətin təmin edilməsi” və “keyfiyyətin idarə edilməsi” terminlərinin beynəlxalq səviyyədə qəbul olunması tikinti şirkətinin keyfiyyət sahəsində apardığı siyasətə uyğun gəlir.

Cədvəl 1-də şəhər tikintisinin keyfiyyətinin yüksəldilməsinə çəkilən xərclərin təsnifatı verilmişdir.

## Cədvəl 1. Şəhər tikintisinin keyfiyyətinin yüksəldilməsinə sərf edilən xərclərin təsnifatı

| № | Keyfiyyətin təsnifat amilləri | Şəhər tikintisi xərclərinin qruplara bölnməsinin təsnifatı |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Məqsədli əhəmiyyəti üzrə | **Keyfiyyətin yüksəldilməsi** |
| | | **Keyfiyyətin təmin edilməsinin yüksəldilməsi** |
| | | **Keyfiyyətin idarə edilməsinin həyata keçirilməsi** |
| 2. | İqtisadi xarakteri üzrə keyfiyyətə sərf edilən xərclər | **Cari xərclər** |
| | | **Gözlənilməyən xərclər** |
| 3. | Keyfiyyətə sərf edilən xərclərin iqtisadi xarakteri üzrə | **Tikintinin icrası xərcləri** |
| | | **Qeyri istehsal xərcləri** |
| 4. | Keyfiyyətin yüksəldilməsinin müəyyən edilməsi metodu üzrə | **Düzünə xərclər** |
| | | **Sair xərclər** |
| 5. | Keyfiyyətin yüksəldilməsi uço-tunun aparılması üzrə | **Uçota alınan xərclər** |
| | | **Uçota alınmayan xərclər** |
| | | **İqtisadi cəhətdən məqsədsiz xərclər** |
| 6. | Tikintinin məhsulunun həyat tsikli mərhələləri üzrə | **Texnoloji avadanlıqların komplektliyi və keyfiyyəti** |
| | | **Tikinti avadanlıq, konstruksiya, məmulat və materialların keyfiyyəti** |
| | | **Tikinti-quraşdırma işlərinin, inşaatın keyfiyyəti** |
| | | **İşçi, kadrların keyfiyyətinin yaxşılaşdırılması** |
| 7. | Obyektlərin tikilməsi və yenidən qurulması üzrə | **Layihələndirmə işlərinin keyfiyyətinin yaxşılaşdırılması** |
| | | **Tikinti, tikinti-quraşdırma işlərinin keyfiyyətinin yüksəldilməsi** |
| | | **Tikintinin istismara təhvil verilməsində keyfiyyətin yüksəldilməsi** |
| 8. | Keyfiyyətin yüksəldilməsi prosesinin qiymətləndirməsi üzrə | **Planlaşdırmanın təşkil olunması** |
| | | **Tikinti işlərinin faktiki yerinə yetirilməsi** |
| 9. | Keyfiyyətin yüksəldilməsinə təsir edən amillər üzrə | **Avadanlıqların keyfiyyətinin yüksəldilməsi** |
| | | **Əməyin keyfiyyətinin yaxşılaşdırılması** |
| | | **Mal-materialların keyfiyyətinin yaxşılaşdırılması** |
| 10. | Keyfiyyətin yüksəldilməsinin təşkil olunması üzrə | **Podratçılar tərəfindən nəzarətin yerinə yetirilməsi** |
| | | **Binaların tikintisini yerinə yetirənlər tərəfindən texniki nəzarətin həyata keçirilməsi** |
| | | **Layihəni hazırlayanların müəlliflik nəzarətinin icrası** |
| | | **Dövlət tərəfindən tikintiyə nəzarətinin həyata keçirilməsi** |
| | | **Tikintinin son məhsulunun qəbulu üzrə monitorinq komissiyasının nəzarəti** |
| 11. | Tikintinin son məhsulunun çeşidləri üzrə | **Texnoloji səviyyə (bütün, seçmə)** |
| 12. | Keyfiyyətin yüksəldilməsi uçotunun aparılması üzrə | **Operativ əməliyyat uçotu** |
| | | **Analitiq əməliyyat uçotu** |
| | | **Mühasibat uçotu** |
| 13. | Keyfiyyətin yüksəldilməsinin struktur xüsusiyyəti üzrə | **Şirkətin fəaliyyəti üzrə** |
| | | **Müəssisənin istehsal fəaliyyəti üzrə** |
| | | **Müəssisənin tikinti məhsulunun ayrı-ayrı növləri üzrə** |

***Mənbə:*** *cədvəl müəllif tərəfindən tərtib edilib.*

9000 seriyalı İSO standartlarının tələblərinə əsasən baxılan təsnifat qrupularına aparıcı keyfiyyətin artırılması və idarəedilməsi məsrəfləri də artırıla bilər.

Keyfiyyətə sərf edilən xərclərin iqtisadi xarakteri üzrə cari (məhsulun yerinə yetirilməsinin keyfiyyət xərclərinin hər biri) və gələcək dövrün xərclərinə bölmək olar.

Tikinti müəssisəsinin fəaliyyətinin səmərəliliyi üzrə strateji məqsədlərinə uyğun tədbirlərin hazırlanması müəllif tərəfindən sxem 1-də göstərilir.

**Sxem 1. Tikinti müəssisələrinin fəaliyyətinin səmərəli təşkilli üçün tədbirlərin işlənməsi**




Bildiyimiz kimi podrat bazarında tikinti müəssisələrinin müvəffəqiyyətli fəaliyyəti həm keyfiyyət üzrə, həmdə dəyər üzrə müştəriləri təmin edən, məhsulun hazırlanması qabiliyyətindən asılıdır.

Tələb olunan tikinti məhsulunun keyfiyyətinin təmin edilməsi, zədələrin aşkar edilməsi və həmçinin qarşısının alınmasından ibarətdir.

Tikinti məhsulunun istehsal prosesi dövründə aşkarlanan zədələrin (qüsurların) düzəldilməsinə yönəldilən xərclərə aiddir:

- aşkarlanan zədələrin düzəldilməsinin mümkün olması;
- tikinti konstruksiyalarında əmələ gələn zədələrin aradan qaldırılması və s.;
- material göndərənlərdən (təchizatçılar) alınan mal və materiallarda və ya bina tikənlərin işlərində əmələ gələn zədələrin aradan qaldırılması.

Müəssisələrdə operativ və mühasibat uçotunda tikinti prosesi zamanı yaranan zədələrə sərf edilən xərclər ayrıca göstərilir. Tikinti müəssisələrinin bu xərclərinin tərkibində keyfiyyətin yüksəldilməsi xərclərinin qruplaşdırılması və çeşidləri üzrə mühasibat uçotu təhlil olunur.

**Cədvəl 2. Şəhər tikintisi zamanı işlərin yerinə yetirilməsində yaranan zədələrin aradan götürülməsi (bərpası) xərcləri [7].**

| Zədələr zamanı sərf edilən xərclərin qruplara bölünməsi | Bir qrupun orta əhəmiyyəti | Xərclərin növləri |
|---|---|---|
| Tikinti məhsulunun keyfiyyətinin qiymətləndirilməsi xərcləri | 0,31 | Birinci nəzarətin aparılması |
| | | Operativ nəzarətin icrası |
| | | Aralıq nəzarətin icrası |
| | | Məhsulun qəbil edilməsinə nəzarət |
| Tikinti məhsulunun istehsalı zamanı alınan zədələrin qarşısının alınmasına sərf edilən xərclər | 0,43 | Tikinti-quraşdırma işlərində düzəldilməsi mümkün olmayan zədələr |
| | | Düzəldilməsi mümküm olan zədələr |
| | | Mal göndərənlərin və yarımpodratçıların işlərində alınan zədələr |
| | | Tikinti məhsulunun istehsalında alınan zədələr |
| Tikinti obyektinin istismara veril-məsindən sonra alınan zədələrin düzəldilməsi xərcləri | 0,20 | Tikinti obyektinin zəmanət müddəti ərzində zədələrin düzəldilməsi |
| | | Tikinti məhsulunun keyfiyyətinə məsuluy-yət daşımaq |
| Zədələrin aradan qaldırılması üzrə tədbirlərin hazırlanmasına çəkilən xərcləri | 0,06 | Tikintinin son məhsulunun istehsalında alınan zədələrin araşdırılması |
| | | Məhsulun keyfiyyətinin planlaşdırılmasının həyata keçirilməsi |
| | | Tikintinin diversifikasiyası |
| | | Kadrların ixtisasının yüksəldilməsinin icrası |

Keyfiyyətli məhsulun istehsalının təmin edilməsi üçün tikinti müəssisələrinin (firmaların) yerinə yetirdiyi tikinti işlərində "məsrəflərin 63%-i tikinti istehsalına və aşkarlanan zədələrin düzəldilməsinə aid olur. Bu məsrəflər tikinti təşkilatının itkiləri hesab olunur. Ümumi məsrəflərin 31%-ini isə tikintinin keyfiyyətinin monitorinq zamanı qiymətləndirilməsi xərcləri təşkil edir" [9]. Cədvəl 2-də bu xərclərin tikinti məhsulunun keyfiyyətinə uyğun qoyulan tələblərin səviyyəsinə təsiri araşdırılmışdır.

Ümumi xərclərin 6%-i alınan zədələrin aradan qaldırılması üçün yerinə yetirilən işlərə sərf edilir.

Keyfiyyətin təmin edilməsi xərclərinin strukturunun əhəmiyyəti və tikinti-quraşdırma işlərinin maya dayərinin təhlilinə görə "tikinti istehsalı zamanı yaranan xərclərin ümumi həcmdə keyfiyyətin təmini üzrə xərclərinin xüsusi çəkisi müəyyənləşdirilir". Cədvəl 3-də hesablamaların nəticəsi göstərilmişdir [7].

**Cədvəl 3. Tikinti müəssisələri məhsulunun maya dəyərində keyfiyyətin təmin edilməsi xərclərinin xüsusi çəkisi**

| № | Xərclərin növləri | Xüsusi çəkisi, % |
|---|---|---|
| 1 | İlkin nəzarət | 0,74 |
| 2 | Operativ nəzarət | 1,1 |
| 3 | Aralıq nəzarət | 0,6 |
| 4 | Qəbul edilmə zamanı nəzarət | 0,31 |
| 5 | Düzəldilməsi mümkün olmayan zədələr | 0,18 |
| 6 | Tədarükçülərin və subpodratçıların məhsulunun zədələrinin düzəldilməsi | 0,42 |
| 7 | Tikinti-quraşdırma işlərinin zədələrinin düzəldilməsi | 5,15 |
| 8 | Tikinti məhsulu zədələrinin və planlaşdırma səhvlərinin hesabına boş dayanmalar | 0,24 |
| 9 | Təminat verilmə dövrü ərzində zədələrin düzəldilməsi | 0,92 |
| 10 | Məhsulun keyfiyyətinə hüquqi məsuliyyət | 0,13 |
| 11 | Zədələrin səbəblərinin təhlili | 0,04 |
| 12 | Keyfiyyətin planlaşdırılması | 0,06 |
| 13 | Yeni texnika, texnologiya və tikintinin təşkilinin tətbiqi | 0,49 |
| 14 | İşçilərin ixtisasının yüksəldilməsi | 0,05 |
| 15 | Keyfiyyət üzrə xərclərin cəmi | 10,43 |

Cədvəl 3-ə əsasən qeyd edə bilərik ki, hazırda göstərilən xərclər orta hesabla tikinti şirkətinin məhsulunun maya dəyərinin 10,43%-ini təşkil edir. Burada tikinti məhsulunun istehsalı zamanı və keyfiyyətə operativ nəzarət prosesində zədələrin aradan götürülməsinə sərf edilən xərclərin xüsusi çəkisi göstərilir.

Tikinti müəssisəsinin yerinə yetirdiyi tikinti-quraşdırma işlərində alınan zədələrin həcmini və məhsulun keyfiyyətini özü müəyyən edə bilər. Tikinti məhsulunun zədələrinin aradan qaldırılmasına yönəldilən xərclər onların bərpa edilməsi ilə əlaqəlidir. Beləliklə, keyfiyyətin yaxşılaşdırılması və zədələrin aradan qaldırılması səmərəlilik əmsalının köməkliyi ilə müəllif tərəfindən təyin edilir:

$$Ə_s = \frac{X_i + X_s}{K_q + X_t}$$

burada,

$X_i$ - tikinti məhsulun istehsal müddəti ərzində əmələ gələn zədələrə sərf edilən xərclər, man.;

$X_s$ - tikinti obyektinin istifadə üçün təhvil verilməsindən sonra müəyyən edilən zədələrə yönəldilən xərclər, man;

$K_q$ - tikinti məhsulun keyfiyyət səviyyəsinin qiymətləndirilməsi zamanı yaranan xərclər, man.;

$X_t$ - zədələrin aradan qaldırılması üçün işlənilən tədbirlərin tətbiqi zamanı yaranan xərclər, man.;

$Ə_s$ - tikinti məhsulunun keyfiyyətinin yaxşılaşdırılmasının səmərəlilik əmsalı.

Müəllif tərəfindən hazırlanmış tikinti məhsulun keyfiyyətinin yüksəldilməsi xərcləri qrafik şəkildə göstərilir və sahələrə bölünür (Şəkil 2.):

- tikinti məhsulunun keyfiyyətinin yüksəldilməsi üçün məqsədyönlü xərclərin sahəsi

$$0,7 \leq Ə_s \leq 1,5$$

Bu sahədə keyfiyyətin yüksəldilməsi zamanı ümumi xərclər minimuma bərabər olur;

- tikinti-quraşdırma və bərpa işlərinin həyata keçirilməsində alınan zədələrin aradan qaldırılması xərcləri – burada, tikinti məhsulunun keyfiyyət səviyyəsi aşağı olur;
- tikinti istehsalı prosesi zamanı alınan zədələrin düzəldilməsi xərcləri

$$Ə_s < 0,7$$

Bu xərclər tikinti prosesində istifadə olunan səmərəsiz tədbirləri xarakterizə edir.

**Qrafik 1. Şəhər tikintisinin son məhsulunun keyfiyyətinin yüksəldilməsinə yönəldilən xərclərinin qrafiki.**




burada,

1 – tikintinin keyfiyyətinin yüksəldilməsinə əsaslanan ümumi xərclər;

2 – tikinti obyektlərində zədələrin olması ilə bağlı, xərclər;

3 – zədələrin düzəldilməsinə əsaslanan keyfiyyətin qiymətləndirilməsi xərclərini göstərir.

Tikinti müəssisələrinin yerinə yetirdiyi işlərin keyfiyyətinin yüksəldilməsi üçün əvvəlcə İSO 9000 seriyalı Beynəlxalq Standartın tələblərinə uyğun olaraq, keyfiyyətin idarə edilməsi sistemi işlənilib, sonra isə bir sistem tikinti müəssisələrində tətbiq edilməlidir.

Ümumiyyətlə, keyfiyyətin idarə edilməsi sisteminin səmərəliliyinin qiymətləndirilməsi şəhər tikintisinin iqtisadi səmərəliliyin formalaşması sxeminə əsaslanır. İqtisadi səmərənin formalaşması sxemi aşağıda (sxem 2) verilir.

**İQTİSADİ SƏMƏRƏNİN FORMALAŞMASI SXEMİ**

Birinci bloka şəhər tikintisinin məhsulunun istehsalına nəzarətin aparılmasının təkmilləşdirilməsi daxildir. Tikinti istehsalının təkmilləşdirilməsi üzrə İSO 9001 standartının tələblərinin yerinə yetirilməsi aşağıda göstərilən nüansların əldə olunmasını təmin edir:

- tikinti işlərinin yerinə yetirilməsində yaranan zədələrin minimuma endirilməsi;
- tikinti işlərinə zəmanətin verilməsi xərclərinin azaldılması;

- məhsulun istismarı müddətində yaranan xərclərinin azaldılması.

**Sxem 2. Şəhər tikintisinin keyfiyyətinin yüksəldilməsinin iqtisadi səmərəliliyinin formalaşması**




Tikintinin son məhsulunun keyfiyyətinin yüksəldilməsi məqsədilə məsuliyyət sisteminin təkmilləşdirilməsi üçün İSO 9001 standartının tələblərinin yerinə yetirilməsi (ikinci blok) bir sıra proseslərə səbəb olur. Bunlara aşağıda qeyd olunanları aid etmək olar:

- tikinti müəssisəsində istehsal və ya idarə etmə ilə əlaqədar bir sıra qəbul edilən qərarların keyfiyyətinin yüksəldilməsinə;
- tikinti məhsulunun keyfiyyətinin yaxşılaşdırılmasının planlaşdırılmasına.

Üçüncü blok tamamlayıcı blok hesab olunur, tikinti bazarında şirkətin rəqabətqabiliyyətli məhsulla təmin edilməsi ilə əlaqədardır. Belə halda İSO 9001 standartının tələblərinin yerinə yetirilməsi ilə əlaqəli tikinti bazarında şirkətin payının artmasını göstərir.

İSO 9001 standartının bütün tələblərinin yerinə yetirilməsi zamanı tikinti müəssisəsinin fəaliyyətinin tamamlayıcı göstəricilərini dəyişdirir:

- tikinti istehsalı xərclərinin azaldılması;
- tikinti istehsalının həcminin artmasına nail olunması;
- tikinti obyektlərinin qiymətlərinin dəyişdirilməsini.

Göründüyü kimi, tikintinin istehsal xərclərinin və zəmanət xərclərinin azaldılması tikinti heyətinin səlahiyyətinə aiddir.

Sxem 3-də tikinti istehsalı üzrə məhsulun keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar xərclər tədqim olunur.

**Sxem 3. Tikinti istehsalı üzrə məhsulun keyfiyyətinin yaxşılaşdırılması xərcləri**




Tikintinin son məhsulunun keyfiyyətinin yaxşılaşdırılması üzrə sərf edilən xərcləri müəyyən etmək üçün tikintinin bütün dövrü ərzində keyfiyyətinin xarakteristikasına nəzarət edilməlidir:

- tikintinin istehsalının təşkilinə;
- tikinti prosesinin təkmilləşdirilməsinə;
- tikinti obyektinin təhvil verilməsi müddətinin azaldılmasına;
- obyektin istismara hazır olmasına.

İSO 9000 – seriyasının qəbul etdiyi keyfiyyətin yaxşılaşdırılmasına sərf edilən məsrəflərin iqtisadi cəhətdən qiymətləndirilməsi konsepsiyasına əsasən, tikintinin son məhsulunun keyfiyyətinin sərf edilən xərclərinin araşdırılmasını Cədvəl 5-də görmək olar.

**Cədvəl 5. Tikintinin son məhsulunun keyfiyyətinin yüksəldilməsi üçün çəkilən xərclərin müəyyən olunması formaları**

| № | Araşdırmanın aparılması | Araşdırmanın məqsədi |
|---|---|---|
| 1. | ¨Keyfiyyətsiz həyata kuçirilən tikinti-quraşdırma işlərindən alınan itkilər | ¨Həyat tsiklinin muxtəlif mərhələlərində keyfiyyətsiz məhsula əsasən itkilərin aşkar edilməsi |
| 2. | Alınan itkilərin mənbəyinin aşkar edilməsi | Keyfiyyətin yaxşılaşdırılması nəticəsində alınan tikintinin son məhsulunun menecmentinin səmərəliliyinin artırılması |
| 3. | Tikinti işlərinin keyfiyyətinin artırılmasına çəkilən məsrəflərin ¨muəyyən olunması | Tikintinin son məhsulunun ¨keyfiyyətinin yuksəl-dilməsinə çəkilən xərclərin azaldılması |
| 4. | ¨Muəssisənin yerinə yetirdiyi tikinti-¨quraşdırma və təmir işlərinin novləri ¨uzrə keyfiyyətin yuksəldilməsinə sərf edilən xərclər | ¨Muəssisənin gorduyu işlərin ¨novləri uzrə keyfiyyətin ¨yuksəldilməsinə təsir edən ¨xərclərin muəyyən edilməsi |
| 5. | ˘Tikinti istehsalı ilə baglı key-fiyyətin ¨yaxşılaşdırılmasına yonəldilən xərclər | Tikintinin son məhsulunun keyfiyyətinin yaxşı-laşdırılmasına ¨yonəldilən məsrəflərin auditi |

***Mənbə:*** *[2].*

## NƏTİCƏ

Tikinti məhsulunun istehsalının bütün mərhələlərində onun keyfiyyətinin yaxşılaşdırılması problemlərinin normativ, metodoloji, qanunvericilik və xüsusi normativlərin işlənilməsi, həmçinin həmin proseslərin faydalı strukturunun və idarəetmə metodlarının müəyyənləşdirilməsi hələki başlanğıc mərhələsindədir. Tikinti-quraşdırma, elmi-tədqiqat, ixtisaslaşdırılmış, layihə-axtarış və istismar təşkilatları hələki zəruri şəraitlə və işçilərlə təmin olunmayıblar. Ona görə də, çox az şirkətlərdə tikinti məhsulunun lazım olan xüsusiyyətlərinin inkişafının proqnozunun hazırlanması, ölçülməsi, standartların tətbiq olunması həyata keçirilir. Nəticə olaraq qeyd edə bilərik ki, tikinti müəssisəsinin fəaliyyətinin mənfəətinin yüksəldilməsi üçün keyfiyyətin səmərəli idarə edilməsi ilə bağlı məsrəflərin araşdırılması və uçotu aparılmalıdır.

Məhsulun keyfiyyətinin yüksəldilməsinin planlaşdırılması fəaliyyəti, məhsulun həyat dövranının müxtəlif idarəetmə səviyyə və mərhələlərində layihələndirmə, tikinti-quraşdırma, komplektləşdirmə və həmçinin istismar da daxil olmaqla həyata keçirilməsi hesabına təmin edilir. Keyfiyyətin artırılması planları lazımi maddi, maliyyə və əmək resursları ilə təmin edilməli, keyfiyyətin yüksəldilməsi üzrə planlaşdırılan indikatorlar və tədbirlər isə iqtisadi səmərəliliyin hesablamaları ilə dəqiq əsaslandırılması vacibdir.

Tikinti sektoru bazarında məhsulların rəqabətqabiliyyətli olması üçün ən mühüm göstərici onun keyfiyyətinin yüksək olmasıdır. Realizə olunduqdan sonra üstünlük əldə etmək üçün əmtəənin bu xüsusiyyəti əsas şərtdir. Belə ki, istehsalçılar üçün əmtənin faydalılığı onun sosial, ekoloji, funksional, eyni zamanda erqonomik xüsusiyyətləri ilə müəyyənləşir.

Keyfiyyətin təmin edilməsi xərcləri kimi məhsulun və ya xidmətlərin alıcıları üzrə keyfiyyəti müəyyən edilmiş tələblərə uyğun bütün xərcləri nəzərdə tutulur. Tikintinin keyfiyyətinin yüksəldilməsinə istiqamətlənən xərclər istehlakçıların nəzərdə tutulan tələblərinin təmin edilməsi üçün lazımdır.

Tikintinin səmərəliliyinin yüksəlməsinə və onun məhsulun istehsal müddətinin qısaldılmasına keyfiyyətin yüksəldilməsi və aralıq tikinti məhsulunun bir-birini əvəz etməsi təsir göstərir. Təcrübədə göstərilən amilin zəruriliyi tikintinin mal-materiallara (xammala) və əmək alətlərinə ehtiyacın yüksək olması ilə əlaqədardır.

**REFERENCES**


1. "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən tikinti işlərinin dayandırılması haqqında Qaydalar"ın təsdiq edilməsi barədə AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI // Bakı şəhəri, 4 oktyabr 2007-ci il № 154
2. Məmmədov, İ.R. Şəhər tikintisinin inkişaf və yenidən qurulmasının iqtisadi problemləri:/ iqtisad üzrə fəlsəfə doktoru dis. /- Bakı, 2018. – 316 s.
3. Uğural, M.N. İnşaat Sektöründe Kalite Maliyeti Entegre Edilmiş Kazanılmış Değer Analizi Üzerine Bir Uygulama/ Ş. Çağrı // Avrupa Bilim ve Teknoloji Dergisi, Aralık 2020, № 20, - s. 42-49.
(DOI: 10.31590/ejosat.727794)
4. Бузырев, В.В. Управление качеством в строительстве: учебное пособие для вузов / В. В. Бузырев, М. Н. Юденко; под общей редакцией М. Н. Юденко. — 2-е изд., перераб. и доп. — Москва: Издательство Юрайт, 2024. — 198 с.
5. Бузырев, В.В., Управление качеством в строительстве: учебное пособие для вузов / М.Н. Юденко // под общей редакцией М. Н. Юденко. — 2-е изд., перераб. и доп. — Москва: Издательство Юрайт, 2023. — 198 с.
6. Петренко, Л.К. Система управления качеством в строительстве: актуальные проблемы / П.В.Колобаев // Инновации в науке № 9 (58), 2016 г.
7. Сайфуллина, Ф. Экономические и управленческие аспекты повышения инновационной активности строительных предприятий // Журнал Креативная экономика, - Санкт-Петербург: -2010. № 10 (46), - с. 87-91.
8. Симонов, Р.Ю. Анализ качества строительной продукции:рыночные подходы и методики // Экономический анализ: теория и практика, - 2005, 13(46), с. 17-21
9. Тамполар, Ю.Н. Методика оценка и анализа конкурентной среды // Экономика, Статистика и Информатика, - Вестник УМО. - 2010, №4, с.53-57
10. Юрьева, Л. В. Основы стратегического конкурентного анализа: учебное пособие / Л. В. Юрьева. – Екатеринбург: Изд-во Урал. ун-та,- 2014. – 52 с. ISBN 978-5-7996-1278-8
11. Dr. J. Bhattacharjee. Quality control and quality assurance in building construction // International Research Journal of Management Science & Technology IRJMST Vol 9 Issue 4 [Year 2018] ISSN 2250 – 1959 (0nline) 2348 – 9367 (Print), p- 10-16 https://doi.org/10.1007/s11135-022-01574-8
12. Khadim N. Quantifying the cost of quality in construction projects: an insight into the base of the iceberg / M.J. Thaheem, F. Ullah, M. N. Mahmood // Quality & Quantity (2023) 57:5403–5429
13. Rauzana A. Implementation of Quality Management System in Construction// American Journal of Engineering Research (AJER): -2017/ e-ISSN: 2320-0847 p-ISSN: 2320-0936 Volume-6, Issue-12, pp-173-179

# АНАЛИЗ ЗАТРАТ ПОТРАЧЕННЫХ НА ПОВЫШЕНИЕ КАЧЕСТВА ПРОДУКЦИИ СТРОИТЕЛЬНОЙ ОТРАСЛИ

Измир ФАТАХОВ

## РЕЗЮМЕ

Планирование качества продукции – это, в конечном счете, меры и критерии, отражающие как отдельные свойства продукции, так и различные характеристики системы и процессов управления качеством.

Эти показатели отражаются в конкретных задачах по повышению качества строительной продукции, планах научно-исследовательских и опытно-конструкторских работ, стандартизации и метрологического обеспечения, внедрении системы менеджмента качества, техническом развитии предприятия, обучении персонала и т.д.

На этапе планирования качества продукции этапы цикла строительной продукции являются сложными, ритмичными и своевременными по сырью, материалам и т. д. должны быть обеспечены и соответствовать производственным мощностям.

Политика, основанная на качестве, должна формироваться как принцип действия или долгосрочная миссия планируемой деятельности на предприятии, а также разрабатываться меры по эффективной организации деятельности строительных предприятий. В статье рассмотрены причины низкого качества строительной продукции, факторы, влияющие на повышение качества готовой продукции и сохранение полезности полученных на этапе сборки ресурсов, планирование и реализуемые мероприятия по управлению качеством, затраты. Исследованы вопросы повышения качества, а вместе с тем устранения травматизма, причиненного при производстве работ при градостроительных (восстановительных) затратах, их выявление и группировка.

***Ключевые слова:*** *строительство, качество, строительная продукция, коэффициент, расходы, планировать*

# ANALYSIS OF COSTS SPENT ON IMPROVING THE QUALITY OF PRODUCTS IN THE CONSTRUCTION INDUSTRY

Izmir FATAHOV

## SUMMARY

Product quality planning is measures and criteria that reflect both individual product properties and various characteristics of the quality management system and processes.

These indicators are reflected in specific tasks to improve the quality of construction products, plans for research and development work, standardization and metrological support, implementation of a quality management system, technical development of the enterprise, personnel training, etc.

At the product quality planning stage- the stages of the construction product cycle are complex, rhythmic and timely in terms of raw materials, materials, etc. must be provided and consistent with production capacity.

A policy based on quality should be formed as a principle of action or a long-term mission of the planned activity at the enterprise and measures should be developed for the effective organization of the activities of construction enterprises. The article discusses the reasons for the low quality of construction products, factors influencing the improvement of the quality of finished products and maintaining the usefulness of resources obtained at the assembly stage, planning and implemented quality management measures, costs. The issues of improving quality, and at the same time eliminating injuries caused during the production of work during urban planning (rehabilitation) costs, their identification and grouping have been studied.

***Keywords***: *construction, quality, construction products, factor, expenses, planning*

Məqalə redaksiyaya daxil olub: 14.05.2024

Təkrar işlənməyə göndərilib: 30.05.2024

Çapa qəbul olunub: 28.06.2024

Təsisçi: İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İqtisadi İslahatlar" jurnalı 21 oktyabr 2021-ci il tarixində N4362 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Dərc olunmuş materiallardakı faktlara və rəqəmlərə görə müəllif məsuliyyət daşıyır.
Çapa imzalanmışdır: 28.06.2024

Tirajı 300 ədəd

www.ereforms.gov.az

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
E-mail: jurnal@ereforms.gov.az